XANƏLİ KƏRİMLİ

TANRI MÜJDƏSİ

Şeirlər və poemalar

BAKI-2021

Rəyçi:
Əsgər RƏSULOV,
Filologiya elmləri doktoru, professor

Redaktor:
Nəriman ƏBDÜLRƏHMANLI

Kərimli X. Tanrı müjdəsi. Şeirlər və poemalar.
Bakı, Qanun nəşriyyatı, 2021, 272 səh.

Görkəmli şair, ədəbiyyatşünas və pedaqoq Xanəli Kərimli "Ay işığında" *(1998),* "Anamdan məktub" *(2000),* "Bu da bir nağıldı..." *(2004),* "Mənə elə gəlir ki..." *(2008),* "Duyğularım, düşüncələrim", "Mənim könlüm bir ümmandır" *(İran, 2011),* "Payız duyğuları" *(2013),* "Ahlat taşı" *(Türkiyə, 2019)* poetik toplularının müəllifidir. "Yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biri" *(akad. İ.Həbibbəyli)* olan X.Kərimli haqqında "Xanəli Kərimli-55: Şairə məktub" *(2007),* "Xanəli Kərimli-60: Sözün Əlincə qalası" *(2011),* "Xanəli Kərimli-65: Bir ömrün işığı" *(2016)* adlı məqalələr topluları, S.Bəşirovun "Xanəli Kərimli: Bir ömrün nağılı" *(2011)* monoqrafiyası nəşr edilib. Eyni zamanda, şair barədə Naxçıvanın "Əcəmifilm" kinostudiyasında "Payız duyğulu şair ömrü: Xanəli Kərimli" *(2014)* adlı sənədli film çəkilib.

Kitab X.Kərimlinin anadan olmasının 70 illik yubileyinə həsr olunur.

AB

© Kərimli X., 2021
© Qanun nəşriyyatı, 2021



TALEYİN ÖZ YOLU, ÖZ ÜNVANI VAR...

Seçmə şeirlər

TOĞLUQAYANIN[1]
MƏMMƏD ARAZA MƏKTUBU

Duman daşlarımdan uzaq düşübdü,
Heç bilinmir nə payızım, nə yazım.
Tale dizlərimi yaman büküb dü,
Niyə gəlməyirsən, Məmməd Arazım?!.

Mənim gözlərimin qarası sənsən,
Mənim ürəyimin parası sənsən,
Dərdimin əlacı, çarası sənsən,
Sənsiz nə çənim var, nə də ayazım,
Ay mənim bəzəyim, Məmməd Arazım.

Ürəyimi bir köz yaman yandırır,
Sən dediyin bir söz yaman yandırır:
"Gecikmişəm, Məmməd Araz,
Yəqin, dağlar küsüb məndən".
Sən mənim tarımsan, köklənmiş sazım,
Mən səndən küsmərəm, Məmməd Arazım.

Bulaqlarım axarını dəyişib,
Gədiklərim baxarını dəyişib,
Şimşəklərim çaxarını dəyişib,
Dəyişibdi səsim, ünüm, avazım,
Gəl görüşək, mənim Məmməd Arazım.

---

[1] *Toğluqaya Şahbuz rayonunda məşhur dağın adıdır (red.).*

Şair balam, ömrüm, günüm yarıdı.
Sinəm üstə çiçəklərim qarıdı.
Nəyim varsa, təbiətin varıdı.
Çalxalanıb dərinliyim, dayazım,
Gəl görüşək, mənim Məmməd Arazım.

İndi mənim səbrim yaman daralıb.
Gözüm kökü həsrətindən saralıb.
Yollarımı boran alıb, qar alıb,
Qalmayibdı nə şənliyim, nə nazım,
Gəl görüşək, mənim Məmməd Arazım.

İllər boyu yollarına baxmışam,
Xısın-xısın ürəyimi yaxmışam,
Gah da olub şimşək kimi çaxmışam,
Bundan belə nə düşünüm, nə yazım...
Gəl görüşək, mənim Məmməd Arazım…

NƏNƏM NAĞIL DEYƏRDİ

Nənəm bir gün bizi yığıb başına
Söykəndi həyətdə ocaq daşına.
Bir nağıl başladı çox qədimlərdən,
Bizim ayağımız üzüldü yerdən...
...“Babamın buynuzlu öküzü vardı,
Yerindən durana buynuz atardı.
İş gəlib o yerə çatdı ki, bir gün,
Babamın özünə eylədi hücum.
Babam da fürsəti vermədi əldən,
Öküzün buynuzun kəsdirdi dibdən.
Buynuzu kəsilmiş öküzü görcək,
Buynuzlu öküzlər qorxdular, gerçək.
Bir müddət gəzdilər gözdən iraqda,
Buynuz oynatdılar küncdə, bucaqda.
Elə ki, dünyadan köç etdi babam,
Buynuzlu öküzlər çoxaldı yaman...
Buynuzu olmayan buynuz çıxardı,
Beş günün içində göyərdi, artdı.
Tarlalar, örüşlər talandı belə,
Kimsə cürət edib gəlmədi dilə.
Acından mələşdi dana-dunalar,
Buynuzlu öküzlər, bəlkə, qanalar.
Buynuz atılmamış qalmadı yerdə,
Buynuz oynatdılar Allaha göydə.

Zülm yeri deşib göyə dirəndi,
Dedilər ki, Allah görən, biləndi...
Hələ də səs-səda yoxdur göylərdən,
Yer də ki az qalıb çıxa məhvərdən.
Nə babam təzədən diriləcəkdir,
Nə də ki, buynuzlar kəsiləcəkdir...
Buynuzlu öküzlər olublar "kələ",
Dana-dunalarsa mələşir hələ"!

***

Nənəm nağılını qurtarıb susdu,
Bizimsə gözümüz göyü pusdu ki,
bəlkə, göylərdən bir alma düşdü...

18.03.1990

SONRA GEC OLAR

Baş alıb gedirəm dərdimlə qoşa,
Arxadan boy verən göz yaşlarıdır.
Üfüqdən əl edən nigaran ruhlar
Ömrümün, günümün sirdaşlarıdır.

Bir boş yer görünür ruhlar yaında,
O mənim ruhumun yeridir bəlkə.
Təpədən-dırnağa gəzdim dünyanı,
Tapmadım ruhuma doğma bir ölkə!..

Doğmalıq qalmayıb daha dünyada,
Sərhədlər yıxıldı, sərhədlər bitdi.
Bir ocaq başında çörək kəsənin
Qəlbində mərhəmət, insanlıq itdi.

Bu "Ali bəşərin", "Ali varlığın"
Nə astarı bəlli, nə üzü bəlli.
Dünən bir, bu gün bir sifət içində
Nə əməli bəlli, nə sözü bəlli.

Hara gedirik biz, hara, ay İnsan?!
Tükənib, bitib ta yol, ünvanımız.
Sənin öz dünyandan xəbərin yoxdur.
Qalmayıb nə ədəb, nə ərkanımız.

Quşda, qarşqada, böcəkdə belə,
Olan ünsiyyətdən insanda yoxdur.
Soyuyub, yadlaşıb, daşlaşıb insan –
Daşdan da daş olub, əsəri yoxdur.

Bəzən düşünürsən, donur qəlbdə qan,
Gündə bir möcüzə kəşf edən insan,
Bəs niyə özünü kəşf edə bilmir?!
Küllü-kainatı "dərk edən" insan
Niyə bəs özünü dərk edə bilmir?!

Hələ ki, bir damla sevgimiz qalıb,
Hələ ki, bir damla əxlaqımız var,
Abırla köçməyin vaxtıdır, Allah!..
İnsanlıq can verir – sonra gec olar...

ƏLİNƏ ƏL YETMƏZ...

Taleyin öz yolu, öz ünvanı var,
Nə qədər cəhd etsən, dəyişməz yolun.
Tale var, gədanı şahənşah eylər,
Tale var, sahın da bağlar əl-qolun.

"Səadət hər kəsin öz əlindədir" –
Deyən qələmdaşım, bəlkə də, haqdır.
Ancaq qismətində yoxsa səadət,
Dağa-daşa düşmək, vallah, nahaqdır.

Başı ucaldan da, yendirən də Haqq,
Beləysə, baş qızıl olsa, nə gərək.
"Yazıya pozu yox" deyir kitablar,
Onda yazımızla bəs biz neylyək?

Ha qaçdım, yüyürdüm, gah da ki, qovdum,
Mənim öz əzabım qaldı özümə.
Min dəfə diz çökdüm Haqqın önündə,
Haqq məhəl qoymadı bircə sözümə.

Haqqın ucaltdığı qaçaqdır haqdan,
Haqqa əyiləndən haqq qaçaq düşüb.
Fələyin gərdişli tərəzisində
Nahaqq ağır gəlir, haqq qaçaq düşüb.

Əlinə əl yetmir, dilinə də dil,
Deyəsən, “Özün seç yaxşı-yamanı”.
Haqqı dananların kef üstə kefi,
Bəs Haqq aşiqinin xoş günü hanı?!.

TƏBİƏT İTİRİB TƏBİƏTLİYİN

Bu il ərəzənə qalıb çöl, çəmən,
Nə bir laləsi var, nə bir nərgizi.
Şaxtadan, borandan gözləri qorxan
Bənövşənin də heç görünmür izi.

Otlar boy verməmiş saralıb rəngi,
Torpağın rəngində torpaq rəngi yox.
Nəğməli bulaqlar, nağıllı çaylar,
Nəğməsin itirib, nağılı da yox.

Sanki soyuqlayıb təbib təbiət.
Gecələr yuxusu çəkilib ərşə.
Neçə min illərdir, milyon illərdir
Bəlkə rast gəlməyib belə gərdişə?

Torpaqda, havada barıt iyi var,
Güllədən quşların yarılıb bağrı.
Mərmidən təpələr oyuq-oyuqdu,
Meşələr saç yolub çəkirlər ağrı.

Çiçəklər, güllərin əvəzində, bax,
Torpaqdan minalar gül-çiçək açır.
Hər mina ağzından ölüm püskürür,
Hər mina ölümə bir cığır açır.

Bulaqların suyu dadıqsayıbdır,
Tamından, duzundan xəbər-ətər yox.
Talada qarın da qaçıbdı rəngi,
Xəncər qayalarda daha təpər yox.

Hər şeyə, hər kəsə analıq edən
Təbiət anasız qalıbdı indi.
Əli çənəsində, baxışı məchul,
Minillik qayğıya dalıbdı indi.

Təbiət itirib təbiətliyin,
Buludlar yağışa qısırlayıbdır.
Təbiət öldürüb təbiətliyin,
Elə bil, dünyayla vidalaşıbdır.

DÖNƏ TALEYİMİZ QAĞAYILARA

Əgər sən özündə özünü tapsan,
Hərdn bir məni də xatırlayarsan.
O şirin dəmləri, xoşbəxt günləri,
Büküb gözyaşına, ağırlayarsan.

Onda bilərsən ki, nə imiş həyat –
Zəhəri içində gizləyən şəkər.
Neçə ki, ağzının dadı qaçmayıb,
Səni əzizləyib nazını çəkər.

Görüm ağzının heç qaçmasın dadı,
Mənim ki, arzumla dövr etmir zaman.
Çox qönçə budağın, tər puçurların,
Gözünü açmağa vermədi aman.

Ancaq bu ömürdür, yaşamalısan,
Yaşamaq bir yana – yaşatmalısan.
Susqun təbiətlə, qəmlə, kədərlə,
İnsan tək yaşamaq deyildir asan.

Onsuz olan olub, olan olacaq.
Əlindən, əlimdən nə gəlir, axı,
Mən öz taleyimi yarıdammadım.
Sənin taleyinə ...neyləyim axı?..

Dor ağacı sınan gəmiyə dönüb.
Batdıq talesizlik ümmanında biz.
Barı son təsəlli, son ümüd kimi,
Birləşək, ümmanda qalsın izimiz.

Hərdən dalğaların qanadlaryla,
Çırpına qəlbimiz ağ ləpələrdə.
Dönə taleyimiz qağayılara
Qayıdaq o çağlar, günlərə bir də.

İNDİ

Könüllərdən uzaq, gözlərdən iraq
Bir ömür yaşadım alayarımçıq.
Daha gədiklərdə qar püsəkləyir...
Daha çətin olar bu yollar açıq.

Duyğumdan, hissimdən, könül varimdan
Silinib çox şeylər, çox kimsənələr.
Hərdən seyrək-seyrək, hərdən dumanlı
Bir atam, bir anam yuxuma gələr.

O anda yuxuda uşaq oluram,
Saçımda dolaşır isti, məhrəm əl.
Üzümdə bir kədər görcək deyirlər:
"Əgər darıxırsan, yanımıza gəl".

Bu dünyaya məni bağlayan ancaq
Məni arxa bilən bir cüt qızımdır.
Tək mənəm onların ümid çırağı,
Onlar haqdan gələn tale yazımdır.

Uçub getsələr də köçəri quştək
Ata ocağında qalıb istisi.
İndi şəkillərdən baxırlar mənə,
Sanki şəkillərdən gəlir nəfəsi.

İndi bir dörd divar, bir qələm, kağız,
Bir də sirdaşımdır ömür yoldaşım.
Keçən günlərim ta ünyetməzimdir,
Qayğıdır, kədərdir bir də dərddaşım.

Ömür tənhalaşdı vaxtsız, vədəsiz,
Vaxtsız vağamlayan bir zəmi kimi.
Hələ də gözlərim yol çəkir yaman
Sərnişinə həsrət bir gəmi kimi.

Zaman çox arzumu çıxartdı boşa,
Ünvanı olmayan məktub kimiyəm.
İndi yolum gəlib dirənib daşa,
Özüm də bilmirəm kiməm, nəçiyəm.

Yaxşı ki, hələlik nəfəsim gəlir,
Hələ ki, düşməyib dizim təpərdn.
Demək, xoş müjdələr gözləmək olar
Gecənin bətnindən doğan səhərdən.

15-16.12.2009.

ŞƏHİDLİK NƏĞMƏSİ

Milli ordunun kapitanı,
şəhid Ceyhun Orucəliyevin əziz xatirəsinə

Sən, ey bu Vətənin şəhid övladı!
Qanınla yoğrulub Vətən torpağı.
Ölümü öldürən ölməzliyinə
Nəğmələr oxuyur Vətən bayrağı.

Əbədi kəfənin olan o bayraq
Canından, qanından güc alır hər an.
Dünən bir ananın oğlu idinsə,
Bu günsə anandır bu Azərbaycan.

...O Vətən uğrunda şəhid oldun ki,
Sənə can vermişdi doğma canından.
Sən, ey bu Vətənin şəhid övladı!
Qanın mayalanıb şəhid qanından.

Onunçün də qanın Vətən rəngidir.
Qan qana qovuşub döndü ümmana.
Köksünə sığmayan məşəl ürəyin
Sənlə qurban getdi Azərbaycana!..

26.09.2014

BİR DƏ GERİ DÖNMƏYƏCƏK BU QATAR

Yorğun-ağın yaşadığım bu ömür
Az qalıbdı yetişə son mənzilə.
Son nəfəsin dərib duran qatartək
Fit verərək haray salır boz çölə.

Bir də geri dönməyəcək bu qatar,
Qalmayıbdı o yolları yoran güc.
İnadımdan, inamımdan güc alıb
Qadağalar sədlərini yaran güc...

Bir ömürlük yük daşıyıb bu qatar,
Nə bezikib, nə təngiyib, nə durub.
Min tufana, min borana düşsə də
Şərəfini, qururunu qoruyub.

Bu ömürdən qalan miras bir odur,
Gələn gəldi, gedən getdi birbəbir.
Zaman axdı damarımdan qan kimi,
Daha məni bir addım da gözləmir.

Son duracaq, dayanacaq sonmudur?!
Hər sonluqda bir başlanğıc anı var.
Bundan belə yaşanacaq ömrümün,
Nə əvvəli, nə axırı, sonu var...

İNANIRAM Kİ...

İnaniram ki,
hər şey yaxşı olacaq.
Bütün xəbislikləri,
qərəzli pislikləri,
maskalanmış üzləri,
batini əyri-üyrü,
zahiri dümdüzləri
qara torpaq udacaq.
Şeytan da əl çəkib
şeytanlığından
əslinə qayıdacaq.

Onda
təzədən başlayacaq həyat,
Yenidən doğulacaq bütün kainat.
Günəş bir qüdrət kimi
bütün yaranmışlara
eyni gözlə baxacaq.
Çaylar – çaylar kimi,
bulaqlar – bulaq kimi,
meşələr – meşə kimi,
quşlar quşlar kimi...
nəğmələr oxuyacaq.
Göylər də göy kimi
guruldayacaq,

Yağış da yağış kimi
yağacaq.
Dünya başdan-başa
əlvan çiçək ətrində
məst olub uyuyacaq.
Qurd qoyunla oturacaq
bir süfrənin başında.
Həmişə qənimləşən
yazıq itlə pişik də
günah axtarmayacaq
dostunda, qardaşında.

Onda
nə günahsız
qantökən olacaq,
nə günahsız başkəsən,
nə də acgöz, acgödən.
Sərhədlər də yıxılacaq.
Dünya olacaq azad,
şəriksiz bir Vətən.

Bütün bu olacaqlar
o vaxt ki çin olacaq,
onda dünya üzündə
nə bir Allah bəndəsi,
nə də şeytan qalacaq!..

HƏYAT TABLOSU

Üzü yumşaq olanın
qəlbi də yumşaq olur.
Səksəni adlasa da
yenə Günəş tək təmiz
südəmər uşaq olur.

Pislik, nə şər-şamata
gəlməz heç vaxt əlindən.
Nə yalan, nə də böhtan
eşitməzsən dilindən.

Həyatını, varını
qurban verər büs-bütün
öləziyən ocağın
közün yaşatmaq üçün...

Onun istək, arzusu
hamıya cansağlığı,
xoş günlər diləyidir.
Ən böyük amalıysa
Vətəninin, xalqının
xoşbəxt gələcəyidir.

Di gəl, başı açılmaz
dünyanın kələyindən.
fitnə-felli şərindən.
Ancaq yenə incimir
dünyadaş nəfərindən.
Onunçün də yaşamaq
cəhənnəm əzabıdır.
Ürəyinin hər teli
bir kədər rübabıdır:
Çaldıqca o rübabı
qırılır öz içindən.
Nə bir qayğı, nə diqqət
görmədi ömrü boyu
ayağa qaldırdığı
yıxılanın birindən.
Yaşayır yana-yana...
Yaşayır qana-qana.
Çətin ki, bu zamanda
ürəyi yumşaqları
ürəyi daşlar qana...

HƏRDƏN

Yumuram gözlərimi
görmək üçün içimi,
bir də
altmış üçdən sonra
Çəkəcəyim yükümü.

Hərdən də susuram,
dinləyim
vaxtaşırı oyanan
vicdanımın səsini.
Və bu səs işığında
anlamağa çalışım
bütün Yer kürəsini.

Bəzən də
qapayıram qulaqlarımı –
bilə-bilə, qana-qana
Eşitməyim
çölümdəki zamanımın
aldadıcı küyünü,
Eşidim içimdəki
yaşanan zamanımın
“toyunu-düyününü”.
Bir də duyğularımın
narahat ahəngini,
ruhumu qarsalayan,
Azadlığın cəngini...

BABAM NAĞIL DEYƏRDİ…
(nağılça)

…Kəhər əvvəl day idi,
Hər gedişi-gəlişi
onu sevməyənlərə
yamanca ah-vay idi.
Yavaş-yavaş böyüdü,
Vurdu qulaqardına
mütiliyə çağıran
nəsihəti, öyüdü,
İpə-sapa yatmadı.
Qorxu-hürkü bilmədən
hara gəldi gedərdi.
Öz əli, öz başıydı,
nə istəsə edərdi.
Kişnərtisi tutardı
elatı, dağ-dərəni,
O heç saya salmadı
kölgəsincə hürəni.
O, büsbütün elatın,
elin sevimlisiydi.
Sanki bir gözmuncuğu,
sanki gül dəstəsiydi.
O, ilxının bəzəyi
üzüyün qaşqaşıydı.

Yurdun ərənlərinin
canıydı, sirdaşıydı.
Dolandı aylar, illər,
gəlib-keçdi fəsillər.
Get-gedə kəhəri də
saldılar gözçıxdıya.
Hər yetən bir daş atıb
çəkdilər min qovğaya.
Onu ram etmək üçün
neçə kəmənd atdılar,
pusquda da yatdılar.
Dörd yanında tor qurub
Çin səddi yaratdılar.
Çox kəmənd ləri qırdı,
Çox sədləri uçurdu
onun məğrur inadı.
Şimşəklərdən güc aldı
Günəş rəngli qanadı.
(Tükənər bu dünyanın
daşı, otu, çınqılı,
Amma heç vaxt tükənməz
nə şeytanı, yaltağı).
Axır onu tovlayıb
saldılar yay kəmənd ə.
Ağzına yüyən vurub,
çidarladılar bəndə.

Minilmək vaxtı çatıb
dedi at çodarları.
Yəhər basıb belinə
suladılar yolları.
Kəhər atdı yəhəri,
Kəhər qırdı yüyəni,
Eşitmədi minəkdən
belləri şəhrə olmuş
“böyüklər” də deyəni.
O, çox atçaparları
salsa da ayaq altda,
İnadından dönmədi
çodarbaşçısı katda.
Beş-on günə kəhəri
öyrətdilər minəyə.
“Xalqa xidmətdir” – deyə
qoşdular yaz, yay, payız
arabaya, kotana,
qış günündə xizəyə.
Gah da beş-on eşşəyin
dəstəsinə qataraq
göndərdilər daşığa.
Gah şilxor yabılarla
“saldılar” qarışığa.
Yerindən duran gədə
minib çapdı sağ-sola.

Bir kimsə tapılmadı
dərdinə dərman qıla.
Hər an onun dərdinin
dərd gəlirdi üstünə.
Tale yaman dönmüşdü
durmuş idi qəsdinə.
Kəhərin ürəyində
söndü ümid-arzusu,
Gecələr göyə uçdu
gözlərinin yuxusu.
Başına hava gəldi,
dözmədi bu zillətə.
Şərəfsiz yaşamaqdan
"ölüm yaxşıdır" – deyə
köçdü əbədiyyətə.

…O, bir nağıla döndü
gələn nəsildaşlara.
Azadlıq dəni səpdi
pozulmaz yaddaşlara!..

1989, yanvar

SAXLA QƏLBİNİ BUZ TƏK...

Bir şəhid atasına

Ağatlı oğlanların
həsrətilə yaşayan,
ay əziz vətəndaşım!
Yaşım çox olmasa da,
çox şeylər çəkib başım...

...Ağatlı oğlanları
Öldürdü zaman-zaman
qara atlılarımız.
Onunçün yad əllərdə
qalıbdı Vətənimiz,
namus, qeyrət, arımız!

İndi verib peysərə
yaşasaq da "vüqarla",
Saxla qəlbini buz tək...
Bu Vətənin ağ günü
getdi Ağatlılarla!..

26.02.1994

VƏTƏN DƏ QƏRİB ÖLÜR...

Vətəndən qəriblikdə ölənlərin ruhuna

Dədə-baba yurdunu
tərk elədi sərçələr –
bozalaq adamların
bozarmış boz üzündən.

İndi ala qarğalar,
İndi qara qarğalar
su içirlər bir zaman
sərçələr su içdiyi
bulaqların gözündən.

Uzaq-uzaq ellərdə
qərib-qərib yuxular
görür qərib sərçələr.
Yuxular qanadında
soyuq, boş yuvasına
dönür qərib sərçələr.

Bir vaxtlar bu yerlərin
xırmanbəyi idilər
sərçələr dan üzündən,
Nəğməsi oyadardı.

xırmanda yatanları
səhərin lap gözündən.
İndi nə xırman qalıb,
nə də ki, xırmanlıq var.
Yaxşı deyib babalar:
“Aclar qılınca çapar”.

Sərçələr köçən gündən
kəsilibdi, elə bil,
təbiətin gülüşü.
Soluxubdu çayları,
bulaqları, gölləri,
örəniyib örüşü...

Öyrənmişdi Xan çinar
sərçələrin səsinə
Qışın qışlığında da
qızınırdı onların
isticə nəfəsinə.

Xeyir-bərəkətiydi
sərçələr bu torpağın.
Bəzəyi-düzəyiydi
həm aranın, həm dağın.

...Siz ey bomboz bozalaq,
bozarmış boz adamlar,
Təbiətin qənimi,
Vicdanı kar,
gözü kor,
goreşən canavarlar,
Sərçə qədər xeyriniz
yoxsa da bu Vətənə,
Utanıb-qızarmadan,
yaxşı-pisə varmadan
Vətəni dirigözlü
ötürdünüz gödənə.

Onunçün də, dərddaşım,
anam, bacım, qardaşım,
bu Vətənin quşu da,
daşı da qərib ölür
Vətənin içində də...
Qəriblərin içində
Vətən də qərib ölür –
qəriblə bir biçimdə.

DƏLİSƏN, DƏLİ...

Sən Allahdan sağlıq istə,
Qalan şeylər bekarədir.
Tanrı sənlə olsa əgər,
Şeytan-şüytan nə karədir.

Cah-cəlalın cəlalı çox,
Fərəhindən məlalı çox,
Başağrısı, qey-qalı çox,...
Axırı da bez xarədir.

Var içində varsan özün,
İçindədir odun, közün,
Bu dünyaya yoxsa sözün,...
Qələm, kağız nə çarədir.

Çox axtardım öz-özümü,
Axırda tapdım sözümü.
Məh haqq bildim haqq dözümü,
Haqdan qeyri-əfsanədir.

Halallıqdan halal yaxşı,
Hərənin var öz baxışı.
Şeir yazdım – yaz yağışı,
Hər damlası dürdanədir.

Xanəli, dəlisən, dəli!..
Kürəyində haqqın əli.
Bir şeirinin əssə yeli,
Yer də, Göy də viranədir!..

DƏLİLİK BİR AZADLIQDIR

Mən Tanrının Yer üzünə
göndərilmiş dəlisiyəm.
Sirri-xuda elçisiyəm,
Haqqın qulu, vəlisiyəm.

Dəliliyin şiddətindən
sığışmadım yerə-göyə.
Onunçün Hatifi-Haqdan
nida gəldi: "Çıx kürsüyə".

Bu yolda da gördüm hər an
cəhənnəmin min üzünü,
Ancaq Haqdan dönməyərək
dedim Haqqın haqq sözünü.

Daşlayaraq Yer üzündən
qovdu məni əhli-nadan.
Mən dəlini dəliliyim,
sağ qurtardı hər qovğadan.

Dəlilik bir azadlıqdır
ağıllı bilməz ləzzətin.
Kim dünyaya aşiq isə
onun da çəkər zillətin.

Ey Həccin paltarın geyən
şeytanın sağ əli adam,
Bil ki, Haqqı tanımasan,
olammazsan dəli adam.

Dəlilik Haqq aşiqidir.
Aşiq gəldim Yer üzünə.
Tanrının xoş məqamında
dönəcəyəm Göy üzünə.

BİR AZ DA SEVGİDƏN DANIŞ

Burax kini-küdurəti,
Bir az da sevgidən danış.
Hörmətdən salma nifrəti,
Bir az da sevgidən danış.

Bir az da sevgidən danış,
Görək necə olur sevgi.
Sevən sevəni sevəndə,
Qorxma, dünya dağilmaz ki,

Varsa qəlbdə sevgi odu
Yaşayarsan qəlb dolusu.
Kədərə dustaq qəlblərin
Çiçəklənməz bir arzusu.

Sev ki, səni sevən olsun,
Duyan olsun əhvalını.
Nə çıxar nifrətdən, kindən,
Çürütmə ömür malını.

Dünya sevgi dünyasıdır,
Sevənə həmdəmdi dünya.
Sevməyi sevməyənlərə
Başdan-başa qəmdi dünya.

Bir az da sevgidən danış.
Xatirələr təzələnsin.
Qönçə-qönçə sevənlərin,
Yollarına nur çilənsin.
Bir az da sevgidən danış...

ARAMA

Sən sevda dəlisisən,
Mən sözün mübtəlası.
Mən günü gündən keçən,
Sən Allahın bəlası.

Sən duyğusu təzə-tər
Xumarğözlü bənövşə.
Mən ruhu bəndə düşən
Qəlbi qırıq bir şüşə.

Sən nazı nazdan şirin
Gözəllərin gözəli.
Mən ağacı bar verməz
Bir bağcanın xəzəli.

Onunçün də sən məni
Arama son ümidtək.
Get öz bəxtini ara,
Sən Allah, məndən əl çək.

YAXŞIDIR

Heyvan tək yaşamaqdansa,
Adam tək ölmək yaxşıdır.
Dərdi dərdə calamaqdan
Dərddaşla bölmək yaxşıdır.

Nələr çəkmədi başımız,
Qaldı ocaqda aşımız.
Qurumadı göz yaşımız...
Bəlkə, o dünya yaxşıdır.

Hamı dəyib bir-birinə,
Qoyulmur adam yerinə.
Yol ta quylanır dərinə,
Dərindən dayaz yaxşıdır.

Dünyanın ta gedib mərdi,
Onunçün yüklənib dərdi.
Kim desə ki, dünya zərdi,
Onu duymasan yaxşıdır.

Sən kimsən ki, ay Xanəli,
Ağlın olsun, olma dəli.
Hərə özünə bir vəli,
Hərə bildiyi yaxşıdır.

KAŞ, QƏLBİMİ GÖRƏYDİN...
(mahnı mətni)

Dan üzünün şəfəqi
Nur çıləyir könlümə.
Sənin məhəbbətintək
Axır mənim qəlbimə.

Xəbərin yoxdur, oğlan,
Nə özün, nə də məndən.
Yanıram eşq odunda,
Səs-səda yoxdur səndən.

Bir baxışla qor düşüb
Könlüm atəşgahına.
Ruhum fəğan eyləyir,
Yanacaqsan ahına.

İçin-için yandıran
Eşqimə inanıram.
Sənə inandığımçün
Dözürəm, dayanıram.

Kaş, qəlbimi görəydin...
Əriyir gilə-gilə.
Sənsə görüşümüzü
Atırsan ildən-ilə.

Ay qəlbimi aparıb
Məni qəlbsiz qoyan yar!..
Hər cəfana dözürəm,
Səndə bir insafmı var?!.

SEVGİ DƏ BİR DƏLİLİK
(mahnı mətni)

Mən sevgi əsiriyəm
Əsirlərin içində.
Bir sevgi damlasıyam
Kədərlə bir biçimdə.

Sevgi də bir dəlilik,
Yaman olur ovutmaq.
Hicranı sonsuz dəniz,
Ah, çətindir tor atmaq.

Gələndə qəfil gəlir
Canı alır canından.
Ay oğrun baxan oğlan,
Keçmə saymaz yanımdan.

Gəzirsən küsülütək,
Gəlmirsən bir yaxına.
Qorxuram bir söz deyəm
Ürəyinə toxuna.

Gəl hicrana son qoyaq
Vüsal bizə yar olsun.
Bütün sevən ürəklər,
Könüllər bahar olsun.

ADSIZ ŞEİRLƏR

1.

Çölüm insan yığnağı
“ağız deyəni qulaq eşitmir”.
İçim gözdən, könüldən
uzaq tənha bir ada –
Üstündən Allahın
mehi də əsmir...

2.

Mənim ömrüm
üstü bərli-bəzəkli,
içisə pul-pul olan
termos ömrüdür:
Çölüm özgəni,
İçim içimi çürüdür...

3.

Kiminin əli istidir,
kiminin ürəyi.
Əli istilərin
hasil olur diləyi,
Ürəyi istilərin
daşdan çıxır çörəyi...

4.

Qış bahara,
Bahar yaya,
Yay payıza
Payız qışa
qalib gəlir,
məğlub olur
zamanında.
Mənim ömrüm-günüm isə
bu döyüşlər meydanında
qalıb Allah amanında...

5.

Üzümdə gülüş görən
"Xoşbəxt adamsan" dedi:
"Araz aşığından,
Kür topuğundan".
– İçimi ğörənlər bilər
necə qara qanlar axır
ürəyimin çapığından...

6.

Eh...
İnsanlar, insanlar!..
Görəsən, bir-birini
bəs nə vaxt anlar?!..

TÜRKƏ AĞI DEMƏK OLMAZ

Türkiyə eskizləri

NƏ MUTLUYAM...

24 mart 2000-ci il türk xalqları tarixinin qızıl səhifələrindən biri kimi xatırlanacaq. Çünki həmin gün qardaş Türkiyənin Samsun şəhərində VIII türk dövlət və toplumlarının ənənəvi dostluq, qardaşlıq və iş birliyi qurultayı öz işinə başladı. Qurultaya Azərbaycandan dəvət olunmuş nümayəndə heyətinin tərkibində mən də vardım.

Samsun, türkün qədim eli, türk yurdunun məşəldarı!
Atatürkün güvənc yeri, istiqlalın bayraqdarı!
Həmdəmindir dənizlərin tacı olan Qara dəniz,
Dalğaları ayağını yumaqdadır gecə-gündüz.
Təmiz havan, təmiz suyun, Günəş qəlbin, uca adın
Yaddaşına yaddaş yazdı həm yaxının, həm də yadın.
Bu gün əsl başkəndisən "türkəm" deyən hər bir kəsin.
Hər bir türk də ləyaqətlə təmsil edir öz ölkəsin.
Bu, dostluğun, qardaşlığın səkkizinci birliyidir,
Türkün şeytan nəzərindən təmizlənən pak yeridir.
Gəlib bura soydaşlarım İsveçrədən, Belçikadan...
Bir türk bacım gözüyaşlı dərd danışır Kosovadan.
Gəlib bura Çeçenistan savaşından çeçen qardaş,
Deyir:
"Düşmən yenməyincə bitməyəcək yurdda savaş"!..
Minillərin qaranlığın yara-yara gəlib bura
Alp Ər Tonqa alqış deyə yurdundakı bu bahara.
Gəlib bura Qorqud Ata, Oğuz Xaqan, Bilgə Kağan,

Halay tutub yallı gedir Dəli Domrul, Qara Coban.
Güc aldıqca bir-birindən dalğalanır bayraqlarım,
Bu bayraqlar birliyində bükülməzdir ayaqlarım.
Hər bayraqda bir mavi rəng – soyluğumun nışanəsi,
Hər bayrağin al rəngində Bozqurdumun əfsanəsi...
İndi dünya çalxalanır, indi dünya təzələnir,
İndi hər xalq öz köküylə, öz soyuyla qürrələnir.
Bir süfrənin arxasında əkmək kəsən şirin-şirin
Qazax, özbək, qırğız, tükman ...ləngəridir Göyün,Yerin.
Bu birliyin məhvərində Od yurdumun öz payı var,
İş birliyi, güc birliyi, ən müqəddəs söz payı var.
"Azərbaycan!" deyiləndə salon coşur ümman kimi,
Alqış, alqış sədasıyla vəsf edilir bir şan kimi.
Uç yüz otuz miliyonluq bir sırada mən də varam,
Onunçün də bu günümdə dünənimdən bəxtiyaram.
Bu birliyin hərarəti sığışmayır Yerə, Göyə,
Qürur ilə hayqırırıq:
"Nə mutluyuq türkəm deyə"!..
"Nə mutluyuq türkəm deyə"!..

Türkiyə/Samsun

MƏRMƏRƏ DƏNİZİ

Mərmərə dənizi!
Mərmərə dənizi!..
Şükür, taleyinə...
Göz dəyməsin,
Xoşbəxtlər xoşbəxtisən,
İstanbultək incidir
sənin bəxtinə düşən.
Bir əlin Avropada,
bir əlin Asiyada.
Bu barış möcüzənlə
məşhurlardan məşhursan
İçi savaş dünyada.
Göylərtək təmiz suyun,
Hamını heyran qoyan
hüsnün, camalın, boyun.
Sağ əlin, xoş taleyin
Mazut iyi qoxuyan
Yarımcan nəfəsiylə
yarıkönül oxuyan
Xəzərimin başına.
Köksündən çağlayan neft
çoxdan soyuq su qatıb
onun isti aşına.
Deşik-deşik bağrını

boru-boru soran çox,
Yarasına bir çimdik
hələ məlhəm qoyan yox...
Mərmərə dənizi!
Dənizlərin əzizi!
Sənə bu xoş taleyi
Qoy çox görməsin Allah!..
Bir cüt ciyərparamın
kaş, arxamca uzalı
əlləri olmasaydı,
Bir də vətən savaşı
yarımçıq qalmasaydı,
Sənə könül verməyim,
Görüşünə gəlməyim
Uca haqq dərgahında
Olmazdı mənə günah.

İstanbul,
05.04.2004

SEVGİ

İstanbulda –
Eresin Topqapı hotelində
odamın pəncərəsi
açılır Gündoğana.
Mən istərəm Günəşə,
Günəş mənə sığına.
Yeni bir rəng çalana
həm Günəşin ömrünün,
həm də mənim ömrümün
durumuna, çağına.
Dan yerinin bağrından
Odlanır qızıl Günəş.
Mənim köksümü yaxıb,
yandırır gizli atəş.
Günəş atəşə möhtac,
Atəş də Günəşə ac
Qovuşur bir-birinə
Çöhrəylə bəniz kimi,
Mərmərə dəniziylə
Qaraca dəniz kimi.

İstanbul,
04.04.2004

İSTANBULDA DÜŞÜNCƏLƏR

İstanbul!..
Tariximin hünəri –
Fateh Mehmet zəfəri,
Dünənimlə günümün
Möcüzələr şəhəri.
Xaqanlar yuxusunu
Qaçıran süslü mələk,
İllər boyu Türküstan
Eşqi ilə yaşayan,
Alovlu, odlu ürək.
Görüşünə gəlmişəm
Mavigözlü ülkərim,
Taleyimə açılan
Nurlu, aydın səhərim!..

Mərmərə dənizinin
Laylasıyla uyuyan,
Qara dəniz mehiylə
Cilvələnib oyanan,
İki qitə önündə
Sual kimi dayanan
“Ayasofya” qüdrətli,
“Topqapı” əzəmətli,
“Sultaniyyə” qamətli,

“Gülhanə” parklım mənim,
Şeir, sənət, ətirli,
Təzə-tərli gülşənim.

Sənə qovuşmaq asan,
Səndən ayrılmaq çətin.
Səndən ayrılan andan
Başladı ağrıları
Balan Nazim Hikmətin.
Nə zamandır qürbətdən
Boylanır sənə sarı,
Nə zamandır uzalı
Qalıb yorğun qolları.
Çünki ona “gəl” deyən
Bir ölüm kabusunun
Yox ona ehtiyacı
Orda Nazim ruhunu
Oxşayıb, ovutmağa
Nə “Gülhanə” parkı var,
Nə də Cövüz ağacı!..

Eh, İstanbul... İstanbul!..
İlk baxışda adama
Elə gəlir ki, sənin
Dünyanın bu çağında
Cənnətin qucağında

Beşdə alacağın yox,
Üçdə də verəcəyin.
Ancaq:
Gözlərindən oxunur
Allahın bəxş etdiyi
Bütün nemətlər kimi
Qayğın, kədərin də bol,
Sevinc, fərəhin də bol,
İstanbul...
İstanbul!..

İstanbul,
23-26.03.2000

TÜRKƏ AĞI DEMƏK OLMAZ

17 avqust 1999-cu il Türkiyədə
baş vermiş zəlzələnin törətdiyi
ağır faciəyə ağılar yazıldı...

Türkə ağı demək olmaz,
Türk Tanrının törəsidir.
Quru daş da bilir ki, o,
Yer üzünün haqq səsidir.

Minillərin tarixini
Bir arayın varaq-varaq,
Görün, hansı sorununu
Türk həll edib ağlayaraq?!

Türk yaranan gündən bəri
Tanrı çəkir sınağına.
Qoca Türk baş əyərmi heç
Bir zəlzələ qınağına?!

Türkə ağı demək olmaz!
Lap ölüm ayağında da.
Türkə türkü oxuyublar
Ən dözülməz çağında da...

Haqdan gələn bəlanı da
Haqdan gələn sevgi bilib.
Onunçun də ulu Türküm
Haqq dərgahına yüksəlib.

Yaxşı bilir türk oğlu türk
Öz soyunun nişanəsin.
Qoy yazılsın yaddaşına
Qələm tutan hər bir kəsin:

– Türkə ağı demək olmaz!
Türk Tanrının törəsidir!
Qınına sığmayan qılınc
Ünlü döyüş nəğməsidir.

02.10.1999

AĞRIDAĞI

Ağrıdağı, ağır ellər ağrısı,
Gəlmişəm ağrını ağırlamağa.
Gəlmişəm hüsnünün vurğunu kimi,
Qoynunda beşgünlük qonaq qalmağa.

Sənə yol gəlirdim nə vaxtdan bəri
Yolumu kəsmişdi sarı tikanlar.
Sənə qovuşmaqçün illərdən bəri
Vermişəm neçə yol dəryaca qanlar.

Sənin də kürlüyün, əyilməzliyin
Bəxtinə yazdırdı Nuhun qarğışın.
Onunçün bir kimsə seçə bilməyib
Ömrünün baharın, payızın, qışın.

Ucanın, məğrurun əzəldən bəri
Çəkilməz başından dumanı, çəni.
Böyüklük özü də bir dərdmiş, dağım,
İçi özün yaxar, çölü düşməni.

Bizim özümüzdən dərdimiz böyük,
Dərdi daşqırlıqda ha daşqırlayaq...
Ələnən ələnər öz içimizə,
Ələnməyəni bəs hara tullayaq?..

Məni bölüklədi yad bilə-bilə,
Özümdə özümü itirim deyə.
Axıtdı qanımı hey gilə-gilə,
Düşməni qoynumda bitirim deyə.

Bizim köksümüzə sapladı düşmən
Hayıstan adlanan paslı xəncəri.
Əl tulası kimi hey qısqırdırlar
Hayları bizlərə nə vaxtdan bəri.

Ağrıdağ, dağların ağır ləngəri,
Azəri türkünün ağır çağıdır.
Qan verib sustalan, haqqı talanan,
Əlin Haqqa açan fağır çağıdır.

Mənim kimliyimi yaxşı bilirlər...
İndi qəza vurub, qədər dönübdü.
İndi də içimdə bir vulkan yatır,
Nə püskürə bilir, nə də sönübdür.

Bizim soyumuz da, yağımız da bir,
Niyə birləşməsin soydaşlarımız?..
Mən yağı əlində zəlil olanda
Xoş günə çıxacaq qardaşlarımız?..

Mən bir boğazam ki, kəsilsəm əgər,
Baş bədənsiz qalar, bədənsə başsız.
Lap tanrı yanında, Haqq dərgahında
Qiymət verilərmi üzüyə qaşsız?..

Quru mənəmliyin qurumuş arxı
Çarxını fırlatmaz bu dəyirmanın.
Meydanda durmasaq ər oğlu ərtək
Qovğası sovuşmaz azğın şeytanın.

Ağrıdağ, zamanın rəngi sürüşkən,
Haqlı haqsızlanıb, haqsız haqlanıb.
Arxasız millətin, arxasız elin
Varlığı, yoxluğu Allaha qalıb...

Türkiyə, Van,
09-10.06.1996

VAN GÖLÜ

İstəyirsən Van,
Verməlisən qan.
Türk sözü

Başı qar çalmalı dağlar qoynunda
Çırpınan, nazlanan yatan Van gölü.
Sən türkün əbədi qan yaddaşısan,
Dünəni bu günə çatan Van gölü.

Sən mavigözlü bir türk anasıtək,
Türkün dağlarına layla çalırsan.
Geniş ürəyinlə, açıq qəlbinlə
Çoşqun Xəzərimi xatırladırsan.

Sənin də zərrəndə ulu türkümün
Sevinci, kədəri, qəmi uyuyur.
Sən mənim əzəldən can sirdaşımsan,
Can öz sirdaşından necə soyuyar.

Hər nəğmən, hər xəfif pıçıltıların
Mənimçün tarixin bir səhifəsidir.
Kükrəyən, haykıran sərt dalğaların,
Bir haqqa tapınan türkün səsidir.

Kükrəyən, haykıran səsin, harayın
Ayağa qaldırsan batmış Turanı.
Düşmən hiyləsinə, düşmən felinə
İllərcə uyuyub yatmış Turanı.

İndi yavaş-yavaş türk soydaşların
Nəğməsin kökləyir nəğmələrinlə.
Məni Haqqa çağır, Haqqa yetir sən
Turançılıq adlı qədim dininlə.

Bir qızıl almadır çoxuna Turan
Ağacı təpəgöz ölkəsindədir.
Cənnət bulunarmı tökülməsə qan,
"Cənnət qılıncların kölgəsindədir".

Van gölü, əlvida demirəm sənə,
Sən mənim duzumda, çörəyimdəsən.
İllər dolansa da, ömür keçsə də
Sən elə əbədi ürəyimdəsən.

Türkiyə, Van,
07.06.1996

QARA DƏNİZ

Qara dəniz,
yadındamı –
mən sənlə ilk dəfə
görüşdüm İstanbulda!
Sonra da Samsunda,
Sonra da Artvində…
İndi də görüşürük
əski türk yurdu olmuş
Mavigözlü Batumda.
Hər görüşdən şirin bir
xatirə qalıb yadımda…

Yenə də dayanmışam
dəniz iyi qoxuyan
çınqıllı sahilində,
Dinləyirəm qəlbinin
məhrəm pıçıltısını
türkün ortaq dilində.
Yenə də ləpələrin
çırpılır ayağıma.
Yenə də dalğaların
sevincək uşaq kimi
atılır qucağıma.
Üzün sakit qıvırcıqlar olsa belə

bətnindəki qasırğanı,
yatmış, gizli sərt tufanı
gərəyincə görməyibdi,
duymayıbdı zaman hələ.

Sənin adın,
soyun qədim, Qara dəniz…
Bu gününlə, sabahınla
uğraşmağın öz yerində…
Hərdən-hərdən dünənini
keçmişini ara, dəniz!..
Bir vaxt sənə nəğmə qoşdu,
şeir yazdı Əhməd Cavad.
Onda belə deyil idi
nə zəmanə, nə də həyat.
Bu gün səni seyr edirəm
dayanıb üzü qibləyə,
Çətin bir də bu zəmanə
məni qıra, səni əyə!..

Mənim rəngim rəng alıbdı
camalından, Qara dəniz!..
Neçə milyon arxadaşım,
soyadım var –
sənin kimi dəli-dolu,
ağırləngər, əsmərbəniz

Qara dəniz!..
Bəlkə də sən
Turan adlı məmləkətin
yoxluğunu dərd edərək
qəzəbindən
boğulmusan, qaralmısan?!.
Bəlkə də sən
qanı ilə, canı ilə
dəyişməz imanı ilə
türk olanı
özünə qaytarmaq üçün
var olmusan?!.

Ey tanrılar dərgahına
baş əyməyən
Prometey xislətlim mənim!..
Yarandığın gündən bəri
haqsızlığa dönməz qənim
Məğrurluğun,
yenməzliyin ucbatından
zaman-zaman
çarmıxlara çəkilsən də,
Gah qabarıb, sədlər yarıb,
Gah da geri çəkilsən də
sən yenə də
içindəki kürlüyünlə

sığmayırsan Yerə, Göyə.
Mən bilirəm,
lalın dilin
öz anası bilən kimi.
Sən qəlbinin ağrısını,
əzabını, acısını
qan qardaşın,
can sirdaşın,
məndən özgə
açammırsan bir kimsəyə.

Qara dəniz!..
Qara dəniz!..
Məni elə ovsunlayıb
ürəyimi çalmısan ki,
heç bilmirəm
hara gedim,
hara, dəniz!..

Batum,
01.10.2004

SƏN ELƏ YAŞA Kİ...

İkiliklər və dördlüklər

İKİLİKLƏR

Qəlbində insanlıq ölübsə əgər,
Sənin yaşamağın, de, nəyə dəyər.

***

"Böyüklər" yanında yallanan yalaq,
Düşmənə arxadır, Vətənə qınaq.

***

Elmə yamaq olar nadan həmişə,
Çətinliyə düşcək düşər təşvişə.

***

O şey ki, qismətin deyildir sənin,
Onun tərkini qıl, çəkmə sən qəmin.

***

Tək Allahdan başqa bir kimsəyə sən
Ürəkdən bağlanma, zillət çəkərsən.

***

Layiq olan yerdə otursa hər kəs,
Onda bir kimsəyə zaval da gəlməz.

***

İnsana insandır həmişə qənim,
Gərək insanın da tapasan çəmin.

***

Ən çətin xislətdir insan xisləti,
Onunçün dərk etmir çox həqiqəti.

***

Qaya kölgəsində yatdı çoxları,
Axırda da daşa dəydi oxları.

***

Gödənçün cihada çıxan millətin,
Düşmən ayaq altda salar qeyrətin.

***

Yoxdursa zatında abırdan əsər,
Ona bel bağlama, ipini kəsər.

***

Oturub-durduğun bir kimsənin sən
Zatın tanımasan, bəla çəkərsən.

***

Çörək itirənlə kəsmə duz-çörək,
Axırda qalarsan ortalıqda tək.

***

Özgə kolgəsində şah olsan da sən,
Öz kölgən yoxdursa, kişi deyilsən.

***

Hər kəs öz haqqının olsa köləsi
Tutar yeri, göyü sədası, səsi.

***

Kim ki, öz ağlının olsa ağası,
Ondan uzaq olar dünya qovğası.

***

Sən elə yaşa ki, gələndə məqam
Kimsə deməsin, var belə bir adam.

***

Özündə özünü kəşf edən insan
Dünyanı ovcunda saxlayar, inan.

***

Kimin qəlbində var Allah qorxusu,
Onun şeytandan da yoxdur qorxusu.

***

Neçə ki, sənin öz əlindədir can,
Qoyma salsın səni ayağa dövran.

***

Bir tikə çörəkçun baş kəsən, nadan,
Hər kəsin qismətin verir yaradan.

***

Yüz körpədən biri doğulur İNSAN,
Onların çiynində dayanır cahan.

***

Xalqının içindən ucalmayan kəs,
Onun da dərdini anlaya bilməz.

***

Çalış baş kəsməyə eyləmə vərdiş,
Bu dünya fırlanır... dəyişir gərdiş.

***

Qudurmuş adamın yoxdur dərmanı,
Halaldır, vaxtında tökülsə qanı.

***

Bu gün "ətəyini" yalayan bir kəs,
Ağzı aşa çatcaq, kəsəcək nəfəs.

***

Hər gecə özün çək öz hesabını,
Bir kimsə döyməsin səhər qapını.

***

O kəsin ki, gəlir "dəni" ellərdən,
Qurtarmaz boğazı bir gün əllərdən.

***

Bir tikə çörəyə, bir çımdik duza
Şükr elə, səbr elə, getmə güdaza.

***

Şərəfsiz adamdan gözləmə şərəf,
Səni tora salar, eyləyər tələf.

***

Yoxsa sifətində kişilik rəmzi,
Lap üzünə tüpur, dəyişməz bənzi.

***

Çoxu gəzdirsə də adında Vətən
Gözdən pərdə asıb yaşatdı gödən.

***

"Vətən", "Vətən" deyən çox "söz adamı"
Vətənçün qıymadı bir damla qanı.

***

Gənclikdə qazansan halal şöhrəti,
Sənə daim olar xalqın hörməti.

***

Yaxşının qiymətin verər yaxşılar,
Yenə bu dünyada yaxşı ad qalar.

***

Pisdən pislik törər, şeytandan şeytan,
Kişilərdən kişi, nadandan nadan.

***

Qarnı tox olarsa küçə itinin,
Günü qara olar yetim-yesirin.

***

Qarın otaranın olmaz hörməti,
İtər ayaqlarda namus-qeyrəti.

***

Kim ki, Allahına etmir bəndəlik,
Onun ruzisi də olmaz gündəlik.

***

Əl uzatma əlin çatmayan yerə,
Sən əlini uzat əl verənlərə.

***

Sən özün-özünə qoymasan hörmət,
Verməyəcək sənə bir kimsə qiymət.

***

Kişilik yükünü çəkəmməz hər kəs,
Hər papaq qoyana kişi deyilməz.

***

Hər kəsin qandığı bir səviyyə var,
O səviyyədən də dünyaya baxar.

***

Verdiyin çörəyi başa qaxma sən,
Özün də kimsədən çörək yeyirsən.

***

Nə qədər müqəddəs olsa da çörək,
Duzun da qiymətin verəsən gərək.

***

Duzdadır hər şeyin dadı-cövhəri,
Duzsuz hikmətin də yoxdur dəyəri.

***

İnsanın duzu da səmimiyyətdir,
Səmimi olmayan saxta niyyətdir.

***

Qəlbini düz tutsan, çatarsan kama,
Faş etmə sirrini heç vaxt bədnama.

***

Yaxşı bələdsənsə öz mədənə sən,
Elə yemək ye ki, həzm eyləyəsən.

***

Sən öz həkimin ol, həkimdən əvvəl,
Ağrıcaq təşvişə düşmə əlbəəl.

***

Hər kəs yaxşı bilsə ağrıyan yerin,
Açar sirrini də dürrün, gövhərin.

***

Özünə edərsən hər nə eyləsən,
Daim hər işində həddini bil sən.

***

Hesabın bilməsə bir kimsə əgər,
Başı da qovğadan qovğaya düşər.

***

Daim sayğı göstər qarşındakına,
Onda hörmət gələr sənin adına.

***

Sayğısızlıq etsən bir kimsəyə sən,
Özün də sayğısız günə düşərsən.

***

Çalış hər işində özün ol, özün,
Onda ötkün olar hörmətin, sözün.

***

Özündə cəm olub dünyanın sirri,
Heç nə arama sən özündən qeyri.

***

Özündə həm şeytan, həm də var Allah,
Allaha tapınsan, etməzsən günah.

***

Çalış hər mqamda Allahı gör sən,
Odur həm itirən, həm də bitirən.

***

Özün öz sirrini eyləməsən faş,
Agah ola bilməz sirrindən qardaş.

***

İnsana düşmən də, dost da özüdür,
Bu, bəndə sözü yox, Allah sözüdür.

***

Tutmasan özünü kimsədən uca,
Tanrı layiq görər səni taxt-taca.

***

Taleyinin üzü dönübsə səndən,
İncimə Tanrıdan, küsmə bəndədən.

***

Bir də gəlməyəssən bu dünyaya sən,
Yaxşı ad qazan ki, yada düşəsən.

***

Ən böyük saxlancdır xalqın yaddaşı,
O heç vaxt səhv salmaz üzüklə qaşı.

***

Dünyada ədalət olsaydı əgər,
Bu qədər zülmü də çəkməzdi bəşər.

***

Qorxu olan yerdə ədalət də var,
Ədalətlə olar dünya bəxtiyar.

***

Çəkilsə dünyadan qorxunun əli,
Çalxayar aləmi şeytan əməli.

***

Kim ki qəlbi ilə bağlıdır Haqqa,
Onun işi düşməz heç vaxt nahaqqa.

***

Kim ayırd edirsə haqqı nahaqdan,
Kamil yaratmışdır onu Yaradan.

***

Nə haqqını yedirt, nə də haqqı ye,
Ölüm hökm etsə də, yenə haqqı de.

***

Haqq yolu olsa da əzablı bir yol,
Yenə də bu yoldan götürmə sən qol.

***

Olsan da nə qədər haqqın aşiqi,
Yenə əldən vermə açar-kilidi.

***

Sənə agahdırsa dərk etdiyin haqq,
Daha bir kimsədən eyləmə soraq.

***

Çeynənmə saqqıztək ağızlarda sən,
Elə iş tutma ki, gözdən düşəsən.

***

Hər işində gözlə sən öz səbrini,
Bil öz məqamını, bil öz yerini.

***

Gözləmə ki, sənə göstərsinlər yer,
Hamıya yerini özün nişan ver.

***

Elə yerdə otur, gəlsə bir kimsə,
Əziyyət vermə sən onda heç kəsə.

***

Ömründə bir fıdan bitirməyən kəs,
Bağ salıb bağbanlıq eyləyə bilməz.

***

"Çox bilirəm" deyib öymə özünü,
Yaxşı əməlinlə de öz sözünü.

***

İnsan əməliylə alar qiymətin,
Qoyar ortalığa öz ləyaqətin.

***

Çalış əməlində uca ol ki, sən,
Xalqın üzünə də baxa biləsən.

***

Xalq elə Xaliqdir, Xaliq də Xalqdır,
Onlara baş əyən ucalacaqdır.

***

Axıtma məzlumun gözünün yaşın,
Tökdürən tapılar sənə göz yaşın.

***

Tülkünü bəzəyib etsən də aslan,
Yenə tülkü kimi qalacaq, inan.

***

Şərəfsiz yol ilə yeyilən çörək,
Bir gün zəhər olub gözdən gələcək.

***

Kimin ki, halaldır duzu, çörəyi,
Onun da təmizdir, safdır diləyi.

***

Dualı çörək ye, neçə ki, sağsan,
Duasız çörəyi, bil, qusacaqsan.

***

Çalış qazanasan el məhəbbətin,
Məhəbbət olmadan yaşamaq çətin.

***

Sən çiyninə al ki, elin yükünü,
El də arxa durub çəksin yükünü.

***

Özü haqq olmasa bir kimsə əgər,
Haqqı, ədaləti mın yerə çəkər.

***

Çapıb-talasan da dünyanın varın,
Bir tikə loxmayla doyulur qarın.

***

Nə qədər çox yığsan qarnına yemək,
O qədər üfunət çəkərsən, demək.

***

Üfunətdən uzaq olmaq istəsən,
Gərək nəfsinə sən diqqət edəsən.

***

Nəfisdir insanı dəyərdən salan,
Yenə təmiz addır insana qalan.

***

Xoşbəxt o adamdır, ona vətəndə
Qəbir qismət olur, həm də kəfən də.

***

Bir kəfəndən ötrü tökmə abrını,
Cəhd edib artırma dünya varını.

***

"Qalacaq dünyada dünyanın varı",
Bundan bir nəticə çıxar sən barı.

***

Min dinarlıq papaq qoysan da belə,
Yoxdursa namusun, ləkəsən elə.

***

Kişinin dəyəri namusundadır,
Bir təmiz adında, bir qanındadır.

***

Təmiz qandan gəlir təmiz ləyaqət,
Çirkli qan törədir hər cür cinayət.

***

Təmizqanlı ilə qur həyatını,
Onda sən taparsan əsl zatını.

***

Saf ağacdan calaq vur ağacına,
Yayılsın meyvənin ətri hər yana.

***

İçəndə dağların suyunu iç sən,
Qumlaq sularından ziyan çəkərsən.

***

Çörək verdiyin it tutar adamı,
Bunu mən demirəm, söyləyir hamı.

***

Nə qədər yalmanıb, etsə də qılıq,
Zatıqırıqlara etmə yaxşılıq.

***

Gördün ki,düşmüsən şərə, böhtana,
Düşmə min sifətə, girmə min dona.

***

"Ən böyük biclik də düzlükdür elə",
Düzlük keçməyirsə, gətirmə dilə.

***

Çox düzlər gördüm ki, düzdə qoydular,
Axırda heyvantək kəsib soydular.

***

Şəraitə uyğun hərəkət etsən,
Onda bir kimsədən ziyan görməzsən.

***

Ən çətin məqamda, ən çətin anda
Yenə ümid axtar Haqqın yanında.

***

O gizlin deyildir, lap aşikardır,
Hər kiçik zərrədə nişanı vardır.

***

Kimə gizlidirsə o böyük nişan,
Onda nə ruh qalıb, nə də ki, bir can.

***

Bəsirət gözüylə aləmə baxsan,
Orda min bir sirrə agah olarsan.

***

Cəhd etmə çox sirrin sirrin açmağa,
Yoxsa yolun gedib dirənər dağa.

***

Sən çox həvəslənmə dünya sirrinə,
Çox bilib, özünü salma dərinə.

***

Çox da sual vermə: niyə, nə üçün?
Hər ağıl fələyin çəkəmməz yükün.

***

Hər kəs öz içindən olsaydı agah,
Nə pislik edərdi, nə də ki günah.

***

Cənnət,cəhənnəm də öz əlindədir,
Səvab da günah da əməlindədir.

***

Hər kəs cavabdehdir öz əməlinə,
Gözü,qulağına, bir də dilinə.

***

Çalış qururunu vermə əlindən,
Ümid gözləmə sən, yoxsa, kəlindən.

***

Nə qədər olsa da dostun,tanışın,
Özünsən dar gündə arxan, qardaşın.

***

Bir kəsi özünə həmdəm istəsən,
O həmdəm bir Allah, bir də özünsən.

***

Allahdan,özündən üz döndərmə sən,
Yoxsa ki,hörmətdən, gözdən düşərsən.

***

Olsan toxum kimi şumun üzündə,
Onda yem olarsan quşun gözündə.

***

Demə ki, kişiyəm, kişi adım var,
Kişilik kişilər yanında olar.

***

Nakişi nə bilir nədir kişilik,
Şərəfdir onlara hər fahişəlik.

***

“Fahişə” görmüşəm kişi qeyrətli,
“Kişilər” görmüşəm fahişə təbli.

***

Onsuz da öləssən – ya tez, ya da gec,
Şərəflə yaşa ki, ”ÖLMƏYƏSƏN” heç.

***

Ucuz ölüm tapar ucuz adamı,
Bahalı ölümün başqadır tamı.

***

O kəs ki, bilmirsə öz dəyərini,
Heç zaman həyatda tapmaz yerini.

***

“Hər işdə bir xeyir varsa da”, insan,
Hər ”xeyri” xeyirtək etməsin güman.

***

İblisin bir üzü, bir sifəti var,
İnsanda min sifət edərsən aşkar.

***

İblis, bəlkə də, heç qorxmur Allahdan,
Bilir, rəhimdildir böyük Yaradan.

***

İblisin qorxduğu varsa da bir şər,
O da haqq itirən bu miskin bəşər.

DÖRDLÜKLƏR

Ağzımda sözüm yandı,
Baxmaqdan gözüm yandı,
Mən dözüm anasıyam,
Dözməkdən dözüm yandı.

***

Ocağın közü mənəm,
Zamanın sözü mənəm,
Rəngim Vətən rəngidir,
Astarı, üzü mənəm.

***

Qəmə tuş yeri mənəm,
Qəm, sənsiz yerimənəm,
Vətən bir bədəndirsə,
Ağrıyan yeri mənəm.

***

Sözüm özümə bağlı,
Özüm sözümə bağlı,
Bir sözün ucbatından,
Gəzirəm sinədağlı.

***

Haqdan gələn söz mənəm,
Haqqı görən göz mənəm,
Nartək dənələnsəm də,
Haqq əyilsə, dözmənəm.

***

Bu daş – Vətən daşıdı,
Yol yoldaşım naşıdı,
O bilmir, bu daş deyil -
Ürəyimin başıdı...

***

Durma yolumun üstdə,
Könlüm yox o həvəsdə,
Nə oldu, bizdən oldu,
Günah gəzmə heç kəsdə.

***

Bu dünya qalmaqaldı,
Yolum yollarda qaldı,
Tanrım nə vrermişdisə,
Hamısın bir-bir aldı.

***

Saldı məni dil dilə,
Kim ağlaya, kim gülə,
Dərdli dərdini çəksin,
Kimdir göz yaşın silə!.

***

Göylərin qatı mənəm,
Torpağın altı mənəm,
Nə var, nəyi görürsən -
Hər şeyin zatı mənəm.

***

Haqqı tanı haqq ilə,
Nahaqqı alma dilə.
Haqqı nahaq bilənlər
Çətin imana gələ...

***

İnsan insan olan gün
Qovuşacaq Göylə Yer.
Onda şeytan, mələk də..
Olacaqlar yerbəyer.

DAHA YOLLAR BAĞLANIBDI
TALEYİMİN QAPISITƏK

Son illərin şeirləri

ƏVVƏLİ DƏ SİRDİR, SONU DA SİRDİR

Quş öz balasını yemləyən kimi,
Mən də yemləyirəm şeirlərimi.
Sevinclə, kədərlə, qəmlə, fərəhlə
Bəyan eyləyirəm diləklərimi.

Hər dilək bir nişan, bir əlamətdir,
Onlarda ürəktək döyünür aləm.
Hər aləm içində canlı bir aləm,
Hər canlı aləmin canı da mənəm.

Məndə təcəlladır küllü kainat,
Məndən kənarda yox canlı bir həyat.
Sirat körpüsüyəm yaranışımdan,
Keçəcəkdir məndən cümlə mövcudat.

Əvvəlim, axırım bir şeydir elə,
Dönüşüm gəldiyim yerədir ancaq.
Yolumun başında qarşıma çıxan,
Yolumun sonunda qarşılayacaq.

Ən qədim köhnədir ən yeni təzə
Dünyanın astarı, üzlüyü kimi.
Nə qədər çək-çevir etsə də ağlım,
Çözülməz Tanrının sözlüyü kimi.

Haradan gəldiyim özümə ayan,
Hara gedəcəyim – Tanrı işidir.
Mənim hər zərrəmdə bir gizli ümman,
Əvvəli də sirdir, sonu da sirdir...

06.08.2014

SÖZÜ SÖZLƏ YAŞATDIM

Şeirlərimi səpdim
toxumluq dənlik kimi
zamanımın, xalqımın
əbədi yaddaşına,
Baharına, yayına,
payızına, qışına,
Bir də –
Şəhid qanı çilənmiş
torpağına, daşına.

Bəlkə, beşi göyərdi,
Bəlkə, üçü, ikisi,
Bəlkə, biri göyərdi,
Bəlkə də heç birisi...

Ancaq zamanında mən,
Səpdim o toxumları –
gerçəkli gümanları,
gələcək arzuları.

Bacardığı bu oldu
Əvvəl-axır ömrümün,
Zülmət gecələrimin,
Ümid dolu günümün.

Nə ağac əkə bildim,
Nə də yol çəkə bildim,
Nə daş üstə daş qoyub
Bir daxma tikə bildim...

Sözü sözlə yaşatdım
Özümü yaşadantək.
Nəyim var, nəyim yoxdur,
gələcək göstərəcək.

Tehran, 01.06.2014.

İŞIĞA CAN ATIB ÜRƏYİM HƏR AN

Mənim ürəyimə işıq ver, Allah,
Dünya işığını qoy məndən alsın.
Bu nə bir şöhrətdir, nə də ki qərəz,
Sadəcə arzudur, arzum yer alsın.

İşığa can atıb ürəyim hər an,
Əritsin qəlbimin qaranlıqların.
Yoğursun işıqla yoğrulanları,
Qoysun ortalığa könlünün varın.

İşıqdan işığa işıq tutaraq
Qovuşsun ürəyim söz işığına.
Sözdən işıq alan işıqlı sözlər
Dönsün bu dünyanın yaraşığına.

Dünyanın dünyası söz işığında
Arınıb, durulub, saflaşsın bir az,
Sözə təslim olsa insanlıq əgər,
Kimsənin qəlbində işıq azalmaz.

Sözün işığından güc alıb bəlkə,
Günəşin işığı sönməz olubdu.
Yerdən kainatın sonsuzluğuna
Tək sözün işığı dönməz olubdu.

...Mənə söz işığı, söz nuru göndər,
Açım bu dünyanın kilidlərini.
Sözə tapındırım, sözə yenildim
Şeytana baş əyən hər bəşərini.

24.03. 2015

QƏRİBƏ ADAMLAR, QƏRİB ADAMLAR

Qəribə adamlar, qərib adamlar
Oxşayır talecə bir-birlərinə.
Qəriblər qürbətdə, qəribələrsə
Yaşayır vətəndə qərib yerinə.

Qəribə adamlar, qərib adamlar
Yuvasız quş kimi qalar ayaqda.
Gecəsi gündüzlə düşər qarışıq,
Nə zamana baxar, nə də ki vaxta.

Sanki bu dünyanın admı deyil,
Yaşarlar su üstə saman çöpütək.
Taledən, qismətdən əli üzülü,
Bağçası bar verməz, çəməni çiçək.

Qəribə adamlar, qərib adamlar
Onlar yaşamırlar özləri üçün.
Nə riya bilirlər, nə kələk-külək,
Cavabdeh olurlar sözləri üçün.

Bir dərvişsayağı ömür sürürlər.
Nə döyəni döyər, nə də söyəni.
Onlar könülcə də sevib-seçməzlər
Təkəbbürlə gəzib özün öyəni.

Tək könül açarlar Allah eşqinə,
Qazanarlar halal, yeyərlər halal.
Könül bağlamazlar dünya eşqinə,
Haqqa qul olarlar, yalana da lal.

Qəlbimdə qəriblər, qəribələr var.
Onlar can sirdaşım, könül varımdır.
Çoxuna əl tutdum, oldum da sarban...
Onlar son dayağım, etibarımdır.

26.03.2015

TƏSƏLLİ

Ruhuyla yaddaşlara köçən əvəzsiz ana, istedadlı və ləyaqətli alim Fərqanə xanım Kazımovanın əziz xatirəsinə.

Elə bil, heç yoxmuşsan
bu dünyada,
Fərqanə, bacım!
Yazdığın kitablar,
böyütdüyün övladlar,
bir də
sinəsi dağlı yaxınlar
olmasaydı,
elə bil, heç yoxmuşsan
bu dünyada!..
Bir də ki,
Insan ömrü nədir axı,
bir kəpənək ömrü qədər
ömrü də yox,
gözünü açıb yumunca
görürsən ki,
bu ömrün də vəfası yox.
Bəlkə, elə bununçün də
çox erkəncə uçub getdin,
qızılgülün üstündən
şeh uçub gedən kimi.

Elə bil ki, bu dünyaya
bir az acıq, bir az da
ərk edən kimi.
Getdin ki, yerin görünsün
qəfil yıxılan
çinarların yeri kimi!..
Ancaq sən
həmişə yaşayacaqsan
“dirilərin” arasında “ölü”,
ölülərin arasında diri kimi.

15.06.2015

VƏTƏNİMİN YAŞI ÇİNAR

Parkların birində susuzluqdan
quruyan çinar gördüm

Susuzluqdan ölən çinar,
Sənin suyunu kim kəsdi?
Dərdi dərdlə bölən çinar,
Sənin suyunu kim kəsdi?

Puçur-puçur qarıyırsan,
Budaq-budaq quruyursan,
İçin-için zarıyırsan,
Sənin suyunu kim kəsdi?

Dilin yox ki, dil deyəsən,
Kimi qarğıyıb söyəsən.
Kim qalıb ki, inciyəsən...
Sənin suyunu kim kəsdi?

Daha kölgən səngiyibdir,
Hövsələn də təngiyibdir,
Qol-budağın çəngiyibdir,
Sənin suyunu kim kəsdi?

Torpağımın adı çınar,
Ocağımın odu çinar,
Ruhumun da dadı çinar,
Sənin suyunu kim kəsdi?

Vətənimin yaşı çinar,
Ürəyimin başı çinar,
Qəlbimin göz yaşı çinar,
Sənin suyunu kim kəsdi?

Çinarların baxtı olmaz,
Çinarların taxtı olmaz,
Ölməyə də vaxtı olmaz,
Sənin suyunu kim kəsdi?

Su kəsənin suyu olmaz,
Köku olmaz, soyu olmaz,
Sənin kimi boyu olmaz,
Sənin suyunu kim kəsdi?

12.08.2015

ONDA YAZILACAQ...

Mən elə bilirdim ki, təkcə pul, var-dövlət, ucuz karyera üçün mafiozlar, dəstəbazlar yaranır. Sən demə, ədəbiyyatı, xüsusilə də poeziya "monopoliyası" yaratmağa çalışan dəstəbazlar da varmış...

Sözdən söz çıxardır sözanlamazlar,
Salamı samanla salır qarışıq.
Astarı üz bilir, üzü də astar,
Ürəkdə yox işıq, gözdə yox işıq.

Di gəl, söz allahı sanır özlərin,
Bir sapını çəksən, düşər min sözü.
Öz gözündə tiri görməz nadanlar,
Özgənin közünə kor olur gözü.

İstedadı qısır, qələmi kütlər
Min "dastan" bağladır puç adlarına,
Kor atın nalbəndi, kor oğlu korlar
Tərifər döşəyir ünvanlarına.

Meydangir oynadır meydan atını,
Alqışlar yağdırır söz dəllalları.
Meydana yad kimsə atıla bilməz,
Atılsa, atılar öz dəllalları.

İndi şairlər ta düşüb dəyərdən,
"Şeir" yazanlarsa miniblər dəbə.
Ötəri, itəri vızltıları
"Tərənnüm edərək" gəlirlər təbə.

...Vicdanı korların görməz gözləri
Bölünən, talanan, bitən Vətəni.
Şəhid məzarında alqan içində
Çürüyən kəfəni, itən kəfəni.

Ancaq bu, Zamandır –
Dəyirman Zaman,
Üyüdür dənliyin boğaz dənin də,
Kozarın ununu buğda unundan
Seçənlər tapılar günün birində.

Onda şairlərə çatacaq növbə,
Düşəcək ayağa "şeir" yazanlar.
Bir çeynəm saqqıza mənliyin satan
Əsl şairlərə quyu qazanlar.

Onda öz taxtında oturacaq SÖZ,
Onda şeirin də güləcək üzü.
Onda dəllallara yer qalmayacaq,
Onda yazılacaq ZAMANIN ÖZÜ,
Bir də ki,
hər kəsin astarı, üzü...

25.10.2015

SƏN DEMƏ...

Qələmdaş dostum, şair
Vaqif Məmmədovun ruhuna

Sən demə,
təkcə millətlər, xalqlar deyil,
ölülər də qaçqınlıq,
köçkünlük həyatı yaşayırmış,
Son anda
tabutunda
o dünyaya ömürlük
qəm, kədər
daşıyırmış -
rəhmətlik
Vaqif kimi...
Yaman tez qırıldı
bir şair ürəyinin sarı tel simi!..

Sədərəkdə doğulmuşdu,
Sədərəkdə böyümüşdü,
Sədərəkdə "döyülmüşdü",
Sədərəkdə öyülmüşdü...
İlk şeirini,son sözünü
Sədərəkdə yazdı...
Ancaq –
məzarını

Bakıda qazdı!..
...Atasını Sədərəkdə
dəfn etmişdi Vaqif,
Qardaşını, anasını Bakıda.
O vaxtdan da ağrıyırdı,
için-için ağlayırdı
Sədərəkdəki ata evinin
son kərpici, daşı da...
Görünür,
ana məhəbbəti güc gəldi
Sədərək torpağına,
ata məzarının
acı intizarına!.
Basdı ciyərparasını
ana isti bağrına...
Bununla nöqtə qoydu
Sədərəkdə çatılmış
bir ümid ocağına!..
...Qəribə zamanda yaşayırıq,
vallah, qəribə!..
Bu zamanda
təkcə millətlər,
xalqlar deyil,
sən demə, ölülər də
dönürmüş qəribə..

07.02.2016

RUHUN ŞAD OLSUN

Yazıçı, filoloq alim Rafiq Babayev üçün

Ruhun şad olsun, Rafiq,
Bu axşam radioda
hekayəni dinlədim.
Sonra sənsizliyini
yada salıb
için-için inlədim...
Gözlərimin önündə
canlandı
Ordubadın Aza kəndində,
təpənin üstündə
"tikilən" qəbir evin,
Bir də, yeri gələndə
dostun Firiduna[2]
altdan-altdan söz atıb
şirin məzələnməyin.
Yadındadır?..
Siqaranın külündən
dolmuşdu otağında
güllərin dibçəyi də?..
Tüstüdən saralmışdı

[2] *Firudin Rzayev, dilçi alim.*

əzizin Əkrəmin[3]
qəttəzə pencəyi də?..
Elə bilirdin,
burula-burula qalxan
siqara tüstüsündən
(özün demiş)
ciyərin bayram edir.
Özün də, bilirdin ki,
hər siqara dənəsi
ömrünü-gününü
özü boyda tükədir.

...Ömrünün son illəri
sənin dostun, sirdaşın
"Ölüm mələyi"n oldu.
Ancaq səndən sonra da
biri-birindən gözəl
"Axırıncı axşam"ın,
"Yolçu daşı"n,
bir də, "Zühür"un qaldı.

...Bilmirəm, qardaşım,
yerin rahatdır,
ya ruhun...
Allah eləsin ki,

[3] *Əkrəm Hüseynzadə, folklorşünas alim.*

hər ikisi rahat olsun...
Çünki sən
bu qısır, bəduğur düyada
rahatlıq nədir – bilmədin,
ürəkdolusu da gülmədin.
Ağrını-acını
Ordubad havası tək
çəkib içinə
kimsəyə dərd vermədin...
Yaşadın taleyin hökmünü,
bir də təqvimdə olan
qırmızı damalı
"istirahət günü"nü...

...Yadıma düşəndə
yerişin, duruşun
yaman göynədir məni
gülüşünün ətri,
qələminin sətri
və iş otağında
ustünü toz, tor basmış
sahibsiz masanın yeri...

02.08.2016

ZAMANIMA, NAKAM DOSTLARIMA VƏ ÖZÜMƏ ELEGİYA

– Bu şəhərdə ta kim qaldı?
– Heç kəs –
köçən köçdü,
ölən öldü...
Bir zamanlar çiçək-çiçək
çiçəkləyən bu şəhər ta
boz küləklər uladığı
quru çöldü...
– Heyif...
min heyif ki,
nə köçəndən xəbər tutdum,
nə öləndən...
Başım elə qarışdı ki,
özümdən də yox xəbərim!..
Onunçün də qalmayıbdı
nə qəpiklik dəyərim,
nə kimsəyə gərəyim,
nə də –
Alahın itinə də
atılası çörəyim!..
Yadlaşmışam özümə də,
Yadlaşmışam Yerə, Göyə,
Tanrı verən dözümə də!

Qara qorxu içindədir
Ömrüm, ğünüm, həyatım!
Səksəkəli gün keçirdir
təzəm, köhnəm, boyatım!
Tale çöndü,
Ocaq söndü,
Köz də küldü!.
Bu da belə bir yazıdı,
Bu da bu cür gündü...

27.11.2016

SÖHBƏT

– Sonuncu şerini nə vaxt yazmısan?
– Birinci şerimi yazdığım günü.
– Sənə nə veribdir şeir yazmağın?
– Bir "baş ağrısını", bir qara günü.

– Eləysə, gəl at sən bu şerin daşın,
Bir ömür yaşarsan – ağrımaz başın.
– Əzizim, fikrindən, sən Allah, daşın,
Qələmdir, şeirdir mənim candaşım.

Mənə ümid verən, yaşadan onlar,
Onlardır şəriksiz varım, dövlətim.
Gözümün qarası, ağı da onlar,
Onlarda yaşayır sevgim, nifrətim.

Hər dəfə əlimə qələm alanda,
İlk sözüm, son sözüm yazılır sanki.
Birinci şerimin həyəcanını
Yaşadır sonuncu şerin ahəngi.

Həm sözə qul oldum, həm də Allaha,
Xəyanət etmədim heç birinə də.
Sözdə yaşatsam da Allah sirrini,
Vaqif olanmadım bir sirrinə də.

Qələmin bətnində, sözün canında
Uyuyur göylərin, yerin cövhəri.
Bir damla cövhərdə olub bərqərar
Həm Tanrı əməli, həm şeytan şəri.

Qələmdir ayıran haqqı nahaqdan,
Qələm tutan əlsə haqq ola gərək.
Onda nə haqq itər,nə nahaqq bitər,
Onda xoşbəxt olar – yaşar gələcək!..

21.10.2016

HƏLƏ İNANMIRLAR...

Milli ordunun kapitanı şəhid Ceyhun Orucəliyev haqqında televiziya verilişi hazırlayanlar məsləhət gördülər ki, ondan yadigar qalan iki körpə qızı atalarının məzarı üstünə gül qoyduğu kadrlar da çəkək. Dedik ki, onlar hələ də atalarının ölümünü bilmirlər, inanırlar ki, qayıdacaq...

Sənin ölümünü bilmir qızların,
Elə bilirlər ki, qayıdacaqsan.
Elə bilirlər ki, bir ata kimi
Onları qoynunda qoruyacaqsan.

Yollardan yığılmır hələ gözləri,
Ata axtarırlar baxışlarıyla.
Bəzən də şəklinin durub önündə
Səni çağırırlar göz yaşlarıyla.

Elə bilirlər ki, günün birində
Bir ağ göyərçinə dönüb gələssən.
Oyuncaq üstündə "sözləri olan"
Hər kəsin payını özün bələssən.

Göyə bulud gəlcək, bir külək əscək,
Dil boğaza qoymur bir cüt bənövşən.
"Yəqin, səngərdədir atamız indi"
O anda bir sənsən tək yada düşən.

Sən öldün, Tanrıya borcunu verdin,
Qalanlar min dəfə ölüb-dirilir.
Hər gecə yuxuda görürlər səni,
Hər gecə xəyalın salama gəlir.

Bir zaman gələcək şəhid adınla
Qürur duyacaqdır bu körpələrin.
Ancaq... bu gün onlar yol gözləyirlər...
Onların halından yoxdur xəbərin.

Sənin əllərinə qalıbdır həsrət
Duyğunun, Aylinin qıvrım saçları.
Bilirəm, yolun ta gedər-gəlməzdir...
Onları yuxuda ovundur barı.

Hələ inanmırlar, ölərmiş ata,
Hələ inanmırlar sənsizliyinə.
Hələ inanmırlar döyüş paltarın
Soyunub, atalar kəfən geyinə.

Elə bilirlər ki, qayıdacaqsan.
Elə bilirlər ki, dönəssən bir gün.
Ümidlə qatırlar başların hələ,
Ümidlə qoy hələ üzləri gülsün.

Ümidlə qoy hələ üzləri gülsün,
Bir sevinc çilənsin baxışlarına.
Dönüb yol daşına vaxtı gələndə,
Səni gəzənlərin çıx yollarına...

18.10.2016

YAZIM Kİ...

Elə bil,
tikan üstdə oturmuşam...
Nəsə yazmaq istəyirəm.
Ancaq hələ bimirəm ki,
nədən yazım,
kimdən yazım?
Yerdən yazım,
Göydən yazım?
Daş-qaşlı kəcavəli,
Qotazlı dəvədən yazım?
Nənəmin çörək ağacı
kirgitdən, həvədən yazım?
Ya da
rəngi sarı çıçək rəngi alan
övladdan-nəvədən yazım?
Bilmirəm ki,
kimdən yazım,
nədən yazım?
Bəlkə,
mən özümdən yazım?
Gah sozalan, gah közərən,
odamı da isitməyən
ocağım, közümdən yazım?
Ürəyimi parçalayan,

dilimi də qarsalayan,
kağız-qələmi yandıran
fikrimdən, sözümdən yazım?..

Yazım ki, mən
hər zaman
yad əllərdə sıxılan
bir ovucluq torpağam.
yüz illər ayaq altda
didim-didim didilən
sahibsiz bir papağam...

Yazım ki, mən
hər kəsin
asanlıqla içdiyi,
üstündən də
saymazyana keçdiyi
bir udumluq suyam.
Hərdən-hərdən silkinsəm də,
kükrəsəm də, coşsam da,
Əslim, köküm nədirsə –
elə buyam!..

Yazım ki...
(yazmaqdan da
bezmişəm ta)

Mən bunları –
olanı, olmayanları
yazsam da, yazmasam da,
onsuz da,
məni məndən yaxşı bilir bu dünya.
Bəlkə, elə bununçün də
nə keçmişim,
nə bu günüm,
nə də "şanlı" gələcəyim
qoyulmadı heç vaxt saya...

Və
nəhayət,
yazım ki,
mənim balalarım –
nəvələrim,
nəticələrim,
kötücələrim,
nə bilim,
daha nələrim,
nələrim...
Bütün olanlar üçün,
Olub, qalanlar üçün
axtarmayın kimsədə
nə günah, nə də ki suç!..
Mən özüm öz əlimlə

öldürdüm keçmişimi,
bu günümü,
gələcəyimi –
hər şeyimi...
Onunçün də, bu dünyada
əliboş, üzüqara
bir ömür yaşadım ki,
axırı da ...
oldu puç...

26-27.03.2016

BİR DƏ ÇƏTİN GƏLƏ ƏLƏ BU DÜNYA

Bir vaxtlar "dost-tanış" başımda idi,
İndi bir zəngə də yoxdur gümanım.
Özüm öz içimdə tələtümdəyəm,
Tufanlı dənizdir mənim hər anım.

Hər anım qərq olur düşüncələrdə,
Ələyib kəpəyin qatıram una.
Nə qədər çalışıb-çapalasam da,
Düşürəm zamanın burulğanına.

Nə qədər çəkəcək bu qovhaqovlar...
Elə hey vuruşda, döyüşdəyəm mən.
Təzədən dünyaya gəlməyəcəm ki,
Bir yol da xoş üzün göstərsin aləm.

Kim nə aparıbdır qara torpağa?
Mənim apardığım nə olacaqdır?
Kimdən nə qalıbsa bu ac dünyaya,
Məndən də bir quru ad qalacaqdır.

Nizamı pozulub nizam quranın,
Sanki Ayla Günəş dəyişib yerin.
Az qalıb Yer çıxa öz məhvərindən,
Qaçıbdı rəngi də dibsiz göylərin.

Bir də çətin gələ ələ bu dünya,
Nə dağda qarı var, nə bağda barı.
O qədər gözümdən düşdü ki dünya –
Bir toz dənəsi tək yox etibarı...

08.07.2016

İLAHİ

İlahi, sən mənə bir dərddaş yetir,
İçimi qurd kimi yeyir dərdlərim.
Nə açа, nə də ki bükə bilirəm,
Havalı adamtək bilinmir yerim.

Nə qədər içimlə danışmaq olar?!
Bəzən heç bilmirəm nə danışıram.
Nə qədər tək-tənha alışmaq olar?!
Bu nə ömürdür ki, mən yaşayıram...

İnsanlar bir yana, dağa-daşa da
Ürəyim qızmır ki, könül açmağa.
Bir yerin varmı ki, sənin, İlahi,
Götürüb başımı ora qaçmağa?!

Bəlkə, qınayırsan məni, nə bilim,
Bəlkə də, naşükür sanırsan məni,
Mənim çəkdiyimi çəkən tapılmaz,
Mənim çəkdiklərim yaxar aləmi.

Naşükür deyiləm, vallah, İlahi,
Sən məni məndən də yaxşı bilirsən.
Qara qanlar axır damarlarımdan,
Sənsə ağrın-ağrın gülümsəyirsən.

Sən Göydə tənhasan, mən Yer üzündə,
Sənin səbrin çoxdur, mənim də dərdim.
Heyif ki, əlacım, imkanım yoxdur,
Yoxsa, dərdləşməyə Göyə gələrdim...

İlahi, sən mənə bir dərddaş yetir,
Bir qulaq yoldaşı olsun qəlbimə.
Səndən ayrı mənim kimim var, axı,
Özün de, könlümü bəs açım kimə?!

14.12.2016

ADAM VAR...

Adam var, elçi daşıdır,
Adam var, yolçu daşıdır.
Adam var ki, ayaq daşı,
Adam da var, baş daşıdır.

Şair kimdir? Elçi daşı?
Ya baş daşı, ayaq daşı?
Ya da, bəlkə, yolçu daşı?
Bəlkə, zamanın savaşı?..

Bu suallar yorur məni,
Cavab tapmaq yaman çətin.
Ancaq nəçi olursan ol,
Tükənməsin məhəbbətin,
Tükənməsin sədaqətin.

15.03.2017

QİYAMƏT GÜNÜNÜ GÖZLƏYİR HAMI...

"Özümdən özümə" silsiləsindən

İndi şeir yazmaq dirənib daşa,
İnsan yadırğayıb insan səsinə.
Səni başa düşən kimdir, a şair,
Şerin hökm etsə də Yer kürəsinə.

Sən şeir yazanda, şeir deyəndə
Qaynayıb, çağlayıb çıxsan da təbdən,
Tək sənin şeirin, sözün yox, şair,
Çox müqəddəslər ta düşübdü dəbdən.

Kara çatmayırsa Haqqın kəlamı,
Bəndənin yazdığı kimə gərəkdir?..
İnsan öldürübsə insanlığını,
Lap Yaradan gəlsin, neyləyəcəkdir?

Şeir yazırsan ki, guya bu dünya
Saflaşsın, durulsun, arınsın bir az.
Sənin dünya ilə işin olmasın...
Sən öz içindəki insanlıqdan yaz.

İçində insanlıq ölən şairin
Ölü də doğulur şeri, sənəti.
Min dastan yazsa da Vətən eşqinə,
Bir toz qədərincə yoxdur qiyməti.

Qaçıb şeirimizin ağzının dadı,
Bilən, bilməyən də düzür qafiyə.
Ağrısı özündən böyük Vətənin
Əsl şairləri susublar, niyə?!.

İndi bu millətin qibləsi olan
Bir qələm adamı, söz adamı var?!.
Qiyamət gününü gözləyir hamı:
İnsan öldürübsə insanlığını,
Bundan pis qiyamət günümü olar?!.

29-30.05.2017

QIŞ GÖZƏLLİYİ

Şaxta ağacların budaqlarında
Qırova bürünüb dalıb yuxuya.
Qarda eşələnən bala sərçələr
Çırpınıb, silkinib dönür yuvaya.

Arabir Günəşin soyuq istisi
Qarın çöhrəsini dənərləndirir.
Üzünə iynətək sancılan çısək
Yolu, cığırları çiçəkləndirir.

Dumana bürünən dağ yamacları
Doldurub qar ilə qoynun-qoltuğun.
Mürgülü dərələr, oğrun bərələr
Dönüb yatağına qarlı çovğunun.

Meşə talasında yaşıl dağ gölü
Bürünüb min rəngli qış duvağına.
Fidan bulaqların almaz qaş-daşı
Dönüb cığırların çilçırağına.

Ağacdan ağaca şəfəq süzülür,
Hərəsi bir çalar, rəngə çalırlar.
Bu rənglər şaxtanın buz əllərriiylə
Budaqdan budağa naxış salırlar.

Yarpağı silkinmiş boz ağacların
Başında quşların boş yuvaları.
Ağacdan ağaca uçub qonurlar
Meşə sakinləri – meşə quşları.

Dovşan ləpirləri, kəklik izləri
Bənzəyir ağ duvaq üstə naxışa.
Qarı şırımlayan ovçü cığırı
Baş alıb yol gedir üzü yoxuşa.

Buzla sırğalanıb çayın çaylağı,
Sazağın sularda qalıbdı səsi.
Gədikdən boylanan ana maralın
Gözündə çağlayır yazın müjdəsi.

Bir lal sükutu var dağın, dərənin.
Qarın hellənci də sükutu pozmur.
Təkcə zirvələrdə qiylayan qartal
Qışın qışlığının həddinə dözmür.

O hərdən süzərək dumanda, çəndə,
Oyadır ruhunun yaz havasını.
Çarpışır, vuruşur qarla, boranla,
Qoruyur vətəntək öz yuvasını.

...Bu qışın bənzərsiz öz gözəlliyi
Gözəllik içində bir gözəllikdir.
Mənim Vətənimin qış gözəlliyi
Dünyada əvəzsiz, dünyada təkdir.

23.01.2017

APARSAM, BƏLKƏ...

Mənsiz açılacaq bir gün bu səhər,
Onda vətənim də yeni olacaq.
Buludlar gözündən yağacaq qəhər,
Təkcə bu dünyaya sevgim qalacaq.

Sevgim yaşadacaq məni mənsiz də,
Ona bir döyünən ürək vermişəm.
Haraya sevgimlə getmişəm qoşa,
Orada duz-çörək, ülfət görmüşəm.

Nifrətim əriyib yaz qarı kimi,
Kədərim sevgimlə tapıb təsəlli.
Hərdən dindirəndə qəm sarı simi,
Sevgim sipər olub qəmə beşəlli.

Sevmişəm daşın da daş yaddaşını.
O yaddaş kimliyim, nəçiliyimdir.
Sevdim bulaq adlı yurd sirdaşını,
O sirdaş saf sözüm, duz-çörəyimdir.

Mənim sevgi dünyam bütöv bir ölkə,
Onunla ümmana, dəryaya vardım.
Aparsam,aparsam,aparsam,bəlkə...
Vətəndən vətənə vətən apardım.

20.03.2017

HALİ-ƏHVAL

Daha yollar bağlanıbdı taleyimin qapısıtək,
Nə bir damla yağış görür, nə bir zərrə Günəş, gerçək.
Nə ayağım yer tutur ki, durub gəzim insan kimi,
Nə də ağlım ağıldır ki, dövr eləyim dövran kimi.
Nə günüm bir gün oldu ki, yada düşə xatirələr,
Nə bir kimsə qədəm basıb yoluxmağa bizə gələr.
Nə kəsdiyim çörəyin də ta bir dadı, duzu qalıb,
Nə kişinin kişi adı, nə kəsəri, sözü qalıb.
Nə "gözdən qoydular" məni bir rahatca nəfəs alım,
Nə bir dostu, bir qonağı adam kimi yola salım.
Nə Göyündən yarıdım mən, nə Yerindən bu dövranın,
Nə əkdiyim bağça qaldı, nə hörmətim, nə ad-sanım.
Nə dağımda dağ vüqarı, qalmadı nə bağımda bar,
Nə əkdiyim ağacımdan dərəmmədim bircə nübar..
Nə əl verib əl atdığım bir kimsədə əl qalıbdı,
Nə bu yurda arxa duran sel gücündə el qalıbdı.
Nə Günəşin istisindən canım qızır, ruhum qızır,
Nə qəlbimə bir ümidlik məlhəm olan işıq sızır.
Nə pirimdə kəramət var, nə məscidi-haramımda,
Nə "İncil"də himmət gördüm, nə"Tövrat", nə "Quran"ımda.
Nə gərdişin əvvəli var, nə bu günü, nə də sonu,
Nə haqqın haqq üzü qalb, nə dəyişər şeytan donu.
Nə zəmanə mənlə oldu, nə də mən zəmanə ilə,
Nə ocağım alovlandı, nə də sönüb döndü külə.

Nə məndə ta qalıb mənlik, nə də özümdə özümlük,
Nə taqətdə qalıb taqət, nə də dözümdə dözümlük.
Nə gərdişə, nə dövrana bel bağlayan ağılsızdı,
Nə kişiyə arxa duran can yonqarı oğul, qızdı.
Nə dostlardan dostluq gördüm, nə yoldaşlarda yoldaşlıq,
Nə dövrandan şadlıq umdum, nə bir nəmər, nə də başlıq.
Nə kimsənin göz dikmədim tikəsinə, nə şanına,
Nə günahsız "günahkarın" bais olmadım qanına.
Nə göz verdi, nə bəsarət, nə də işıq etdi əta,
Nə şah bildi məni dövran, nə bir nökər, nə də gəda.
Nə dövranın pis üzünə tüpürməyə cürətim var,
Nə də dövran əməlindən nə utanır, nə edir ar.
...Nə fələyin sitəmindən bezikəndir bu Xanəli,
Nə də Haqqın dərgahına çatır səsi, çatır əli!..

19.10.2017

SAZ HAVASI

Saz havası,
min illərdir ruhumuzun
can sirdaşı!..
Beşiyimin nəğməkarı,
laylamın ilk əlifbası!..
Vətənimin, millətimin
sənsiz bir an olmayıbdı
nə düyünü, nə də yası!..
Sənə vurğun ola-ola
nədən belə qərq olmuşuq
şirin-şirin röyalara?!.
Bəlkə elə onunçün də
Vətənimiz, millətimiz
min illərdir yad əllərlə
bölüklənib olub para?!.
Sənin ruhun yüz illərdir
ayıltmadı niyə bizi?!.
Yüz illərdir Cənubumun,
Şimalımın – o tayımın,
bu tayımın yollardadır
hələ gözü?!.
Niyə sənin hər pərdəndən
qopan nalə, düşən yanğı
kor etmədi gözümüzü,

qaytarmadı özümüzə-özümüzü...
Bəlkə, bizi ayıltmaqçün,
özümüzə qayıtmaqçün
bir ilahi möcüzəyə var ehtiyac?!.
İnanmıram... inanmıram
səndən özgə bir möcüzə
ruhumuzun havasına
ola əlac!..
Saz havası!..
Dədəm Qorqud urvatının xatirinə
Qaytar bizi Şah Xətai qeyrətinə,
O qeyrətin
düşmən bağrı çatlatdığı
bir dünyalıq heyrətinə!!..

13.01.2018

DÜNYA MƏNİM OVCUMDADIR...

Oturmuşam kameratək cansıxıcı
dörd divarlıq otağımda
təkçə-tənha.
Ancaq hələ
ümid ilə baxıram mən
hər axşama, hər sabaha.
Həmdəmimdir acı-şirin xatirələr,
Yada düşür nələr... nələr...
Gah fikrimin aran yeli
qanad çalır zirvələrdə,
Gah dağların sərin mehi
ləpə vurur pəncərəmdə –
pərdələrdə.
Gah ahıla, gah dəliyə
dönürəm mən
bircə anın içindəcə.
Yaşım da o yaş deyil ki;
nə gündüzdür, nə də gecə.
Ömrüm, günüm alatoran çağındadır,
Cismim Cəhənnəm odunda,
Ruhum "Cənnət bağındadır".
Xəyalımın qanadında yol gedirəm
dünyanın lap o başına.
Yol boyu da bələnirəm

milyon-milyon məzlumların göz yaşına...
Sığınsam da dörd divarın arasına,
dünya mənim ovcumdadır nöqtə kimi.
Olubdu ki, o nöqtənin
nöqtəsinə agah üçün
tər tökmüşəm sübhə kimi.
O nöqtədən yol almışam,
yol gəlirəm
içimdəki özümə mən –
"Özüm" adlı sözümə mən.
O nöqtədən yol almışam
əyrimə mən, düzümə mən.
Mən də kiçik bir nöqtəyəm
nöqtələrin sirasında –
qələm tutan, söz üyüdən
xiridarlar arasında.
Mən nə sonun başlanğıcı,
nə başlanğıc sonundayam.
Kainata nur çiləyən
bir nöqtənin donundayam.
Bu nöqtədə cəmlənibdir
bütün küllü zərrəciyim –
həm dünənim,
həm bu günüm,
həm əbədi gələcəyim...

26-27.02.2018

TANRI MÜJDƏSİ

Dünyasını vaxtsız dəyişən dostlarımın xatirəsinə

...Dostlar durna qatarı tək
verib qanad-qanada
üzləri suluykən
köçdülər bu dünyadan.
Bu qəfil köç karvanıyla
mat qoydu bəndəsini
əzəmətli yaradan.

Rəsul Rza demişkən:
"Su oymuş qaya kimi
uçulur dörd bir yanım",
Onunçün də qaynamır
dünyaya daha qanım.
Çoxdan çəkilmişəm ta
dünya toyxanasından.
Baş açа bilmirəm heç
dostlarımın yasından.
Görünür, ta vaxt-vədə
gəlib döyür qapını.
Vaxtlı-vaxtsız xəbərlər
pıçıldayır mənə də:

“Sən də əl-ayağını
yığışdır yavaş-yavaş
sahmanla köç atını.
Onsuz da nə yazmağa
tutarlı sözün qalıb,
nə tutuşub yanmağa
ocaqda vardır közün.
Nə də bir dost qapısı,
nə doğma ünvanın var
dar gündə gülsün üzün”.

Dostlarsız, doğmalarsız
insana lap yad olur
dişiylə, dırnağıyla
çatdığı od, ocaq da.
Qısılıb qalır adam
gözdən, könüldən iraq
bir küncdə, bir bucaqda.
Nə Haqqa çatır əlin,
nə dərdi deyir dilin.
Qovrulursan içində
odu içində olan
qov qovlanan kimi.
Sevincin göy əskidə,
üzə bilmirsən qəmi...
Başlayır yavaş-yavaş
ömrün sərgərdan dəmi.

...Səfil, səy yaşamaqdan,
vaxtsız ölüm yaxşıdır.
Ayıb örtəndir ölüm –
O Tanrı müjdəsi təkı
insanın son naxşıdır...

29-30.05.2018

ÇƏTİNDİ...

Bir dərənin suyunu
ayırma min dərəyə.
Çalış ki, min dərənin
suyunu yığ bir yerə.

Onda dağlar dağı da
diz çökəcək önündə.
Çağlayacaq səadət
ömrünün hər günündə.

Bir damlanın gücündə
yatıb ümman ləngəri.
Ən dərin ümmanda da
var damlanın öz yeri.

Damla-damla böyüyüb
dənizlər olur ümman.
Kainat dediyin də
yaranıbdı damladan.

İnsan da bir kainat –
Böyüyür damla-damla.
Yaşayır bu həyata
Tükənməz bir inamla.

İnsanın böyüklüyü
Onun vüqarındadır.
Nə "şan-şöhrətli" adda,
Nə sərvət, nə vardadır.

Vüqar incə bir şüşə,
Qırılsa, ələ gəlməz.
Nadan min il yaşasa,
Onun dəyərin bilməz.

Cəhənnəm əzabıdır
Ömür sürmək vüqarla.
Çox ağırdır yaşamaq
Namusla, ehtibarla.

Ancaq yenə təmiz ad,
Namus, qeyrət qalacaq.
Zaman çox "ölməzləri",
"Əbədi sönməzləri"...
Öz taxtından salıbdı,
Öz taxtından salacaq...

Bəlkə də inanmırsan
Bu həqiqətə indi.
İnamsız yaşamaqsa,
İnsan, sənə çətindir.

DAĞ ÇAYI

Məslək dostum,fəlsəfə üzrə fəlsəfə doktoru
Sabir Bəşirovun unudulmaz xatirəsinə

...Bir dağ çayı idin, qardaş,
Səni məhbəs kimi sıxan
qayalarla, sərt dağlarla
vuruşaraq, döyüşərək
durulurdun, saflaşırdın
yavaş-yavaş.
Bilirdin ki, yaşamağın,
vuruşmağın, döyüşməyin
hədər deyil,
Bilirdin ki, vuruşlarda,
döyüşlərdə
hərdən məğlub olmağın da
kədər deyil.
İstəmirdin çoxlarıtək
dəryalara, ümmanlara
qovuşasan,
istəmirdin!..
İstəyirdin öz adınla,
ünvanınla,
keçmişini, bugününü,
sabahını qoruyaraq

tarix boyu alnıaçıq,
başıuca,
qəlbi təmiz yaşayasan.

Çox görmüşdün,
azman-azman dağ çayları
ümmanlara, dəryalara
qovuşanda ölüb gedib,
Böyük-böyük arzuların,
amalların ölümləri
bölüb gedib.
Qalmayıbdı nə adları, nə sanları,
silinibdi ünvanları.
Minillik bir ölü kimi
unudulub olanları.
Sənsə coşub çağlayırdın
öz arzunla, öz yolunla,
qadağalar sədlərini yara-yara
işiq verdin, həyat verdin
neçə-neçə aydınlara,
nurlu, aydın sabahlara...

15.10.2018

ZAMAN ÖZÜ DEYƏCƏKDİR...

Bu gecəm də uzun çəkdi,
Bir əsrlik gecə oldu.
Bu gecə də hal-əhvalım
təbdən-təbə düşə-düşə
heç bilmədim necə oldu...

Bu gecəm bir gecə oldu
gecələrin sırasında.
Ovutdum bu gecəmi də
gözlərimin qorasında.

Qonağımdır bu gecəm də
min bir xəyal, min bir duyğu,
Hər xəyal da, hər duyğu da
özlüyündə
mincavablı sual-sorğu.
Haqq-hesablı divan oldu
bu gecəm də mənim üçün.

Bu divanda əməllərim
əyan oldu mənə bütün.
Gah müqəssir, suçlu oldum,
Gah da hakim bu divanda.
Sanki bu an yanımdaydı
Yeri-Göyü Yaradan da.

...Bu gecəmin divanında
açdım sabahın gözünü.
Ancaq son söz zamanındır:
Mən kiməmsə, nəçiyəmsə
Zaman özü deyəcəkdir
əbədilik son sözünü!..

20.10.2018

ALLAHA TƏVƏKKÜL...

Mən babamı görməmişəm,
Görənlərdən eşitmişəm
ki, babam ortadolu,
motalpapaq kişi imiş.
Yer şumlamaq, səpin səpmək,
daxma tikmək, ağac əkmək,
çobanlıq, naxırçılıq,
ilxıcılıq peşəsinə meyil eləmək
onun əsas işi imiş.
Yaşayarmış dişi ilə, dırnağıyla,
Bu dünyanın əzabını, ağrısını
ürəyinə sarmağıyla,
daşıyarmış tukənməz bir marağıyla.
Asqıranda, öskürəndə,
hərdən-hərdən qəzəbindən püskürəndə
dodağı qaçarmış xəfifcə, yüngül,
deyərmiş: "Lənət kor şeytana,
Allaha təvəkkül".
Atam da yaşayıbdı eynən babam kimi –
əllərinə yetərmiş ancaq hökmü.
Bar verməsəydi əkdiyi ağac,
göyərməsəydi zəmidə sünbül,
tövrünü də pozmazmış,
deyərmiş: "Allaha təvəkkül".

Beləcə, nəsildən-nəsilə,
fəsildən-fəsilə
“Allaha təvəkkül” deyə-deyə
İçimizi yeyə-yeyə
gəldik çıxdıq bu günə:
nə Vətəndə vətənlik qaldı,
nə məndə, nə də
kimsədə mənlik.
Nə tabaqda urvalıq,
nə də çuvalda dənlik...
Elə bir oyuna düşdük ki,
səbrimizi basmaqdan,
yada qulaq asmaqdan
bağrımız da oldu kül!..
Çarəmiz ta nədir ki,
qalmadı ta səbir ki...
Yenə babam demişkən,
Yenə atam demişkən:
“Allaha təvəkkül”!..
“Allaha təvəkkül”!..

27.12.2018

SƏN GÖZƏL ÜZ GÖRDÜN, GÖZƏL ÜRƏK YOX...

Məni gözəlliyin gözünə vurma,
Gözəl yaranmışam başdan, binadan.
Gözəl olmasam da sənin gözündə
Mənə qələmini çəkib Yaradan.

Duyar gözəlliyin gözəlliyini
Könlü gözəlliyə dustaq olanlar.
Öpüb gözəlliyi qoyar göz üstə
Təmiz ürəklilər, təmiz qanlılar.

Gözəllik ölçülmür gözəl camalla,
Gözəllik gözəlin əməlindədir.
Gözəllik gözəldir ağıl-kamalla,
Riyasız, boyasız, təmiz dildədir.

Əxlaqı gözəldir, mənliyi safdır,
Əsl gözəlliyin, əsl gözəlin.
Fitnəsi, işvəsi "can alanların"
Başa düşmək olmur əməlin, felin.

Sən gözəl üz gördün, gözəl ürək yox,
Çünki gözəllikdən üzaqsan, yazıq.
Əsl gözəlliyi duymaq, duyurmaq
İlahi bir eşqdir, İlahi varlıq.

Üzü gözəllərdən uzaq ol, uzaq,
Qəlbi gözəllərin dur səcdəsinə.
Aldanma qəmzəli göz yaşlarına,
Vurul təmiz eşqim möcüzəsinə.

28.12.2018

SƏN VƏTƏN İŞIĞIYDİN

Müqəddəs işığı heş zaman bitib- tükənməyən, əsrlərdən bəri insanı insanlığa çağıran Mirişlilər ocağının ruh daşıyıcılarından biri, həkim, ziyalı, hörmətli Adil Mirişliyə ehtiramla.

İnsan da bir işıqdır
Yaranıb Haqq nurundan.
Bəlkə də, Günəş elə
öz nurunu alıbdır
İnsanlığın qorundan.

Günəş göyün İnsanı,
İnsan yerin Günəşi.
Məncə, elə bundadır
həyatın da nəşəsi.

Sən də bir işıq idin
İnsanlar arasında,
Fərqi yox, yaşasan da
dünyanın harasında.

Yaşının bu çağında –
səksənin qucağında
köç etsən də Vətəndən,
Vətən köçmədi səndən.

Sən Vətəndən köçəndə
elə bilmə Vətəndən
tək özünü apardın...

SənVətənin bağrından
elə özün boyda da
odu heç vaxt sönməyən,
məhəbbəti dönməyən
bir Günəş hərarətli
bütöv Vətən heyrətli
topa işıq qopardın...

...Sən Vətən işığıydın –
O işıqdan od alsın
Qürbətdə od-ocağın.
Əbədi, sönməz olsun
yanar nurlu çırağın!..

04.01.2019

NƏNƏM XALÇA TOXUYARDI...

Nənəm xalça toxuyardı,
Toxuduqca ilmə-ilmə,
Naxış-naxış, narın-narın,
Şirin-şirin oxuyardı:
"Xurcunu qotazlı yar,
Sinəsi söz, sazlı yar,
Sən məni ta neynirsən,
Yanında var nazlı yar".

Nənəm xalça toxuyardı,
Toxuduqca həvə-həvə,
Kirgit-kirgit, çeşni-çeşni
Gözündən yaş axıdardı:
"Xalçamı sərdim qara,
Ürəyimdə var yara,
Yurd-yuvasız bir quşam,
Allah, mən gedim hara"?

Nənəm xalça toxuyardı,
Toxuduqca hər naxışdan,
Hər ilmədən dağın-daşın
Çiçək ətri qoxuyardı:
"Çiçəyi xallı dağlar,
Maralı hallı dağlar,
Yarı yara qovuşdur,
Butası allı dağlar".

Nənəm xalça toxuyardı
Əriş-əriş, arğac-arğac.
Kücülərdi hanasını,
Oxşayardı qulac-qulac:
"Yeləni güllü xalçam,
Sinəsi göllü xalçam,
Yaman gözdən uzaq ol,
Ətəyi tüllü xalçam".

Nənəm xalça toxuyardı,
Allı-güllü, naxış-naxış,
Hər naxışı, hər ilməsi
Bu dünyaya yeni baxış:
"Könlümün başı xalçam,
Yurdumun yaşı xalçam,
Sən getdiyin ocaq, kaş,
Olmasın naşı, xalçam".

Nənəm xalça toxuyardı,
Hər ilməsi ağılıydı.
Vurduğu sirli naxışlar
"Məlikməmməd" nağılıydı:
"Xalçam uçdu göylərə,
Müjdə verdi yerlərə,
Göydən üç alma düşdü,
Paylayın dəcəllərə..."

Nənəm xalça toxuyardı,
Yeddi rəngin yeddisindən.
Qan verərdi, can verərdi
Hər rəngə öz nəfəsindən:
"Gözümün nuru xalçam,
Qəlbimin qoru xalçam.
Mən köçüb gedərgiyəm,
Adımı qoru, xalçam".

Nənəm xalça toxuyardı
Qışı qıştək, yazı yaztək.
Deyərdi ki, Haqq arasan,
Xalçam üstə salavat çək:
"Dinim-imanım xalçam,
Arxam,gümanım xalçam,
Qalsam cəllad əlində
Sənsən amanım, xalçam".

...Nənəm nağıl oxuyardı,
Nənəm xalça toxuyardı...

11.01.2019

GÜNAHKAR SƏNMİSƏN, YA "GƏDƏ" DÜNYA?!

Sənin də, sən demə, düz vaxtın olub,
İsmətli, həyalı qız vaxtın olub,
Meydan sözün imiş, söz vaxtın olub,
Heyif, doğulmadım o vədə, dünya.

Çağların var imiş, ta ələ gəlməz,
Salam-sabah varmış, ta dilə gəlməz,
Dəmin bəmdə qaldı, ta zilə gəlməz,
Varmı əməl edən düz vədə, dünya?..

İndi insanlığın lığı qalıbdı,
Kişilik ölübdü, "bığı" qalıbdı,
Gözün qarası yox, ağı qalıbdı,
İtib ağsaqqallıq, yox Dədə, dünya.

Nə səmənd at qlıb, nə minən kişi,
Papağın çırp yerə – yox dinən kişi,
Çoxalıb özüylə öyünən kişi...
Bir gödən qalıbdı, bir mədə, dünya.

Qılınc-qılınc olsa, yatmaz qınında,
Millət-millət olsa, batmaz qanında,
Hər üzün görsək də bu dövranın da,
Haqq üzün görmədik kimsədə, dünya...

Xanəli, səndə də yox insan qanı,
Varsa, yazdığının kəsəri hanı?!..
Nə Allahı “saydın”, nə də Quran,
Günahkar sənmisən, ya “gədə” dünya?!..

13.01.2019

BİGANƏLƏR ÖLKƏSİNDƏ

Hərə bir iş başındadır
bir qarınlıq çörək üçün.
Biri küçələrə süpürgə çəkir,
biri ağac əkir.
Biri fəhləlik edir,
biri bənnalıq.
Biri kiməsə "börk tikir",
birisə kimsəyə arxalıq.
Kimsə kimsənin çəkməsin silir,
kimsə veyil-veyil baxıb gülür.
Kimisi də təsbeh əlində,
zikir dilində –
qazancının yolun bilir...

Mənsə oturmuşam
bir ağac kölgəsində –
biganələr ölkəsində!..

İş başındayam elə mən də:
gözə görünməyən
sonu bilinməyən bir iş başında.
Beynim, düşüncəm söz üyüdür,
fikir toxuyur,
hər fikrindən də qan qoxuyur
bu çal yaşında.

Lakin
bunun fərqində deyil
nə yanımda əyləşən,
nə də
qonşu skamyada papiros eşən.

Çoxları sanır ki, mən
bu dəqiqə, bu anda
bekar-behdin adamam,
Hər şeyə laqeyd,
hər şeyə yadam –
beşdə alacağım yox,
üçdə verəcəyim.

Yaxşı ki, başa düşüb
duyan yox kimsə məni
biganələr ölkəsində.
Yoxsa canım çıxardı
"insanın" tələsində –
zamanın qəfəsində...

05.05.2019

ÜÇ NÖQTƏYƏ (...) İTHAF

– Təzə nə yazırsan, nə yaradırsan?
– Daha şeir yazmıram –
yaza bilmirəm.
Yazdıqlarım mənə nə veribdi ki,
yazmadıqlarım da mənə nə verə...

İndi
keçmişdə yazdığım şeirlərimi
bükərək kəfən kimi
ağappaq vərəqlərə
çevirib təzədən sinə dağıma
qoyuram qabağıma.
Ana şəhidini ağlayan kimi
ağlayıram şəhid şeirlərimi!..

19.04.2019

ƏDƏBİ MÜHİT

Hərdən seyrək-seyrək
göy gurultuları qulağa dəyir,
Ara-sıra
şimşəklər də buludlar arasından
od çiləyir,
İldırım vəlvələsi
qəhətdir hələ...

Həzin-həzin
bulaqlar da pıçıldaşır,
çaylar da təkəmseyrək
aşıb-daşır,
dəniz fırtınası
görünmür hələ...

Handan-hana
təpələri titrədən,
dərələri yellədən
püskürmələr duyulur
Dağları silkələyən,
ümmanları tufana,
fırtınaya səsləyən
zəlzələ yoxdur hələ...

28.07.2019

BİR NAKAM SEVGİYƏ...

Torpaq səni sevdi,
sən də torpağı.
Bitdi bir ömrün
acılı-şirinli
qarası, ağı.
Söndü arzuların
ümid çırağı.

18.08.2019

AXI BU MİLLƏTİN VƏTƏNİ VARDI...

Mənə şair deyir ağıllı, dəli,
"İldə bir söz çıxmaz xəsis canımdan"[4]
Quruyub bulağım, çağlamır çayım,
Bezmişəm yerimdən, asimanımdan

Mən necə şairəm, necə yazaram,
Parmparça olub dağılıb Vətən.
Mən necə şairəm, necə yazaram,
Başımda turp əkir hər yoldan ötən.

İndi şerimizin "baş qəhrəmanı",
Bir incəbel qızdır, bir dağ çiçəyi.
Yadına düşürmü "şair qardaşın"
Əsirlikdə ölən el ağbirçəyi?!

Yazırıq, pozuruq dağdan, arandan,
Babək qeyrətindən, qoç Koroğludan...
O qədər saldıq ki, sözü abırdan
Utanıb xəcalət çəkir Yaradan.

Bəlkə də, burda da düşmən əli var:
"Hammız sənətkarıq", "hammız şairik".
Başımız qarışıb "söz oyununa"...
Bizi nə gözləyir – hələ "bilmirik".

[4] *Misra M.Müşfiqindir.*

Sən ey “xalq şairi”, ”xalq dilimancı”,
Yazıqdır bu millət, yazıqdır bu el.
Bu qədər yalanlar, gur püləmələr
Bir gün öz başında çatlayacaq, bil.

Əldə qalıb indi bir çimdik Vətən!..
Bizsə çarpışırşq cibin eşqinə.
Millətin haqqını yedik, yedirtdik,
Onunçün də qaldı Vətən bu günə...

...Axı bu millətin VƏTƏNİ vardı,
Qılıncı daş yarıb, dağ qoparardı.
Sözünün kəsəri ordu basardı...
Onun bəxt üzüyün bəs kim apardı?!.
Onun bəxt üzüyün bəs kim apardı?!.

19.09.2019.

ƏMANƏT

Dünyasını vaxtsız dəyişən əvəzsiz dost, görkəmli dilçi, AMEA-nın müxbir üzvü Adil Bağırov Naxçıvanda yaşadığı evinin pəncərəsi önünə bir fidan çinar əkmişdi...

Bu gün
pəncərənin önünə
illərcə bundan öncə
            əllərinlə əkdiyin,
körpə övladın kimi
qayğısını çəkdiyin
çinarını gördüm,
Çinarı sən bilib salam verdim.
Yaman qol-budaq atıb
            səndən sonra,
Təkbaşına dov gəlir
şaxtaya, borana, qara.
Budaqların çoxu da
            əyilibdi yollara...
Ancaq
ağac olanda nə olar...
onun da qəlbi var,
düşüncəsi var,
Çoxumuzdan vəfalıdır
"kəsdiyi çörəyə".
Sahibdir riyasız, boyasız

gül kimi ürəyə.
Bir ovuc su versən
qədrini biləcək,
üzünə güləcək,
istəsən,
yolunda da öləcək…

Yaxşı ki,
insanlar kimi deyil ağaclar,
Yoxsa heç nəyin üstündə
bir-birini
qırıb-çatar...

Üzə vurmasa da kimsəsizliyini,
ancaq elə bil,
duyub sənsizliyini.
Onunçün də
sığala həsrət qalan,
saçın küləklər yolan
bir körpə balan kimi
yarpaq-yarpaq, puçur-puçur
isti göz yaşlarını
dibinə salır çinar.
axı, onun nə yaşı var?!.

Sən Haqqa əmanət olsan da,
ruhunla baş-başa qalsan da,
bunu bil:
Səndən də çox şeylər qaldı
bizlərə əmanət, Adil:
əsərlərin,
əməllərin,
halalca təmiz adın...
Bir də ki,
yarımçıq ömrünü
səndən sonra yaşadan,
boyuna baxıb öyündüyün,
kədərinə sıxılıb,
dəminə sevindiyin
tənha, yorğun çinarın.

15.10.2019

ÖMÜR YOLU

Geriyə baxıram, acılı-şirinli,
qayğılı, qayğısız, bəhərli, bəhərsiz
illərim, aylarım, günlərim,
irəli baxıram sayılı anlarım,
bəlkəli gümanlarım görünür.
Fikrim, xəyalımsa
ömrün dolaylarında
duman kimi sürünür.
Sən demə, bu da bir ömür yolu imiş –
bir insan ömrünün yolu –
gah boş, gah da dolu.

Ötənlərdən bu günlərə
ailə, uşaq, nəvə, nəticə –
bütöv bir nəsil,
bir də bir-iki misram qaldı.
Bir para şeylərimi də
aman umduğum zaman aldı.
Ancaq vaxt-vədə,
İstəsək də, istəməsək də,
öz sözünü deyir.
Və savabını, günahını
xatırladır sənə bir-bir.

Günahım savabımdan
çox olub, deyəsən,
deyim ki, bunu da biləsən:
Vaxtında görməli işlərimi
vaxtInda görmədim
ağlımın ucundan.
Ancaq onu da deyim ki,
bir şey də ummadım ağlım kəsəndən
nə atamdan, nə anamdan,
nə də qardaş-bacımdan..
Öz dişim-dırnağımla qazandım nə varsa,
Yoxsa, batacaqdım zamanın burulğanında
özgəyə qalsa...
İnsafən, hərdən əl tutanım da olub,
"qorxma" deyənim də.
Haqqımı yeyənlər də çox olub,
çörəyimi yeyənlər də.
Hərdən-hərdən məni
öyənlər də tapılıb,
qaramca deyənlər də,
bəzən də
bir "çarəsiz" iş üçün
qapımı döyənlər də.

Bəlkə də,
ömür dediyimiz yolun
ləzzəti də bu imiş,
necə ki, bir kişı nə vaxtsa demiş:
“İnsan kərpic kimidir,
yandıqca bərkiyir”.
Biri də demiş ki:
“İnsan yıxılır, durur, sonra yeriyir”.
Mən də yandıqca bərkidim,
yıxıldım, durdum, yeridim.
Yıxıla-yıxıla,
dura-dura,
yeriyə-yeriyə,
bərkiyə-bərkiyə,
bir də gördüm ki,
qar yağıb, qapımı alıb...
İndi bəzi işlərim də var ki,
onlar da, ömür vəfa etsə,
sabaha qalıb...

30.12.2019

QAYITMAZ

Kimlər gəldi, kimlər getdi?
Hardan gəldi, hara getdi?
Niyə gəldi, niyə getdi?..
Gedən getdi, ta qayıtmaz.

Başımızdan ağıl getdi,
Süfrəmizdən noğul getdi,
Neçə-neçə oğul getdi...
Gedən getdi, ta qayıtmaz.

Düşdük bitməz bir nağıla,
Görüm, bu dövran dağıla,
Biz dünyaya sığmaz ikən
İndi sığdıq bir ağıla...
Gedən getdi,
ta qayıtmaz,
Vətən getdi...
ta qayıtmaz!!!

19.01.2020

OLMADIQ

Qurumuş çay öz keçmişinə məftun olmamalıdır.
Rabindranat Taqor

Çoxumuz mindik ağ ata
Ağatlı oğlan olmadıq.
Sürdük atı qürbət elə,
Vətəni yada salmadıq.

Nə bağ saldıq, nə də bostan,
Qoşduq yekə-yekə dastan.
Bizə qaldı quru ad-san,
Ondan da fayda qılmadıq.

Öyünürük keçmiş adla,
Oynayırıq sönmüş odla,
Ha dünəni çağır, yadla...
Vətənə oğul olmadıq.

10.01.2020

SUAL DA ÖZÜNSƏN, CAVAB DA ÖZÜN...

Quş gündə qonsa da minbir budağa
Yenə yuvasında tapır dincliyin.
Vaxtında olmasa odun, ocağın,
Şam kimi əriyib sönər gəncliyin.

Bil ki, yaşamağın və yaşatmağın
Hələ yazılmamış qanunları var.
Sənin taleyinə düşən yazını
Nə yazan əl pozar, nə də ruzigar.

Ümmanlar üzündə üzən qayığıq,
Hansı limandadır son qismətimiz?
Bəlkə də, tufanlı sərt dalğaların
Qoynunda bitəcək aqibətimiz.

Nə zaman bitəcək ömür yolumuz?
Varmı bu sualın cavabın bilən?
Harda qazılacaq son mənzilimiz?
Harda örtüləcək üstümüz görən?

Təpədən-dırnağa sualdır ömür,
Cavab tapa-tapa itir ömür-gün.
“Niyə”, “nə üçün”lə başlanan həyat
“Niyə”, “nə üçün”lə bitir də bir gün.

Çalış öz içində axtar özünü,
Sual da özünsən, cavab da özün.
Çox da ümid olma bəxtə, qismətə,
Yaşayan özünsən,yaşadan özün.

09.02.2020

RUHUMU OVUDA BİLMİRƏM DAHA

Ruhumu ovuda bilmirəm daha,
Yalan eşitməkdən doyub, bezibdi.
Sən demə, o məndən milyon il qabaq
Yeri də, Göyü də gəzib gəlibdi.

Milyon illərdir ki, bu kainatın
Ələk-vələk edib astar-üzünü.
Hələ də ayırib, seçə bilməyib
Haqq ilə nahaqqın əyri düzünü.

İnsan cildindəki şeytan oğlu şər
Haqqı nahaqq kimi soxub gözlərə.
Milyon illərdir ki, çarəsiz insan
Haqqı gəzə-gəzə düşüb düzlərə.

Gəzib, getmədiyi yer də qalmadı,
Hələ də görməyib Haqqın üzünü.
Vuruşub, doyüşüb, qanlar töksə də,
Tapa bilməyibdi haqqın izini.

...İnsan insanlıqda tapar haqqını,
İnsanlıq ölübsə, ölübdü Haqq da.
Ruhumu ovuda bilmirəm daha,
Belə bir zamanda, belə bir vaxtda.

15.02.2020

İNSANA XİTAB...

Deyirlər, cəhənnəmdə od yoxdur, odu əməli ilə cəhənnəmə gedənlər özləri ilə aparırlar. Hər kəsi də apardığı öz odunda yandırırlar.

Mobil telefonlar susub, lallaşıb,
Məzarıstandakı başdaşları tək.
Niyə qorxursunuz, niyə, cənblar,
Qalan qalacaqdır, ölən öləcək.

Bu koronavirus vahiməsindən
Sanki Yer titrəyir yerbəyerindən.
Canının, malının sağlamlığıyçün
Bəşər az qalıb ki, dönə dinindən.

Bu da bir bəladır, gəlibdir Göydən,
Bəşər günahının "mükafatı"tək.
Hərə öz cəzasın özü çəkəcək,
Hərə bir yol ilə ölüb gedəcək.

Koronavirusdan kəskin, amansız
Viruslar törəyib iblis insandan.
"Düşünən başların" şərafətindən
Onsuz Yer kürəsi doyubdu qandan.

Çoxdandır pozulub dünyanın halı
“İnsan” sutək içir insanın qanın.
Nə “Tövrat”ın qalıb xətir-hörməti,
Nə də ki, İncilin, nə də Quranın.

Bu da bir bəladır – Allah bəlası,
Gəlibdi Yer üzün sala sahmana.
Hərə öz günahın qoya ortaya,
Sığına birtəhər anda-amana.

Qırağa çəkməsin yaxasın heç kəs –
Özümüz gətirdik öz bəlamızı.
Allah sevmədiyi əməlimizlə
Yıxırıq özümüz öz yuvamızı.

Neçə ki, gec deyi, əl götür, İNSAN!!..
Haqqın sevmədiyi əməllərindən.
Yoxsa belə getsə, inan və inan
Çıxar Yer kürəsi öz məhvərindən!!!

30.03.2020.

.

KİŞİLİK BİR ZİRVƏDİR Kİ...

Kişilik bir zirvədir ki, hər erkəyin əli çatmaz,
Kişi olan halalına ömrü boyu haram qatmaz.
Halal gələn bu dünyaya halallıqla yaşayırlar,
Halallıqla yaşayanlar KİŞİ adın daşıyırlar.

Otun, suyun, daşın belə öz kökü var, öz soyu var,
Hər bitkinin, hər ağacın öz çəkisi, öz boyu var.
Öz kökünə, öz adına zatı bütöv dönük çıxmaz,
Bir qarınlıq yalaq üçün bir kimsənin evin yıxmaz.

Bacardıqca əl tutacaq əli əldən üzülənə,
Kasıblıqdan, yoxsulluqdan ilmə-ilmə süzülənə.
Haram tikə yeyənlərsə harınlara qul olurlar,
Namusunu əlindən al, susqun, dinməz, lal olurlar.

Kişilik nə boy-buxunla, nə cah-cəlalla ölçülməz,
Kişilik üzük qaşıdır, hər qaşla ölçüyə gəlməz.
Kişi deyil özgəsinin haqqın çalan, haqqın yeyən,
Paçalara sığınaraq özlərinə “kişi” deyən.

Belələri artır gün-gün lap həndəsi silsiləylə,
Nə Vətənlə maraqlanır, nə Dövləti, Ölkəsiylə...
Harda yağlı tikə görsə, cumurlar ora it kimi,
Sorurlar millətin qanın zəli kimi, ac bit kimi.

Bu millətin qapısında it çanağın yalayırlar,
Məqam düşcək özgələrin qapısında ulayırlar.
Nə Allahdan çəkinirlər, nə millətin qəzəbindən,
Bir-birinə arxa durur belələri yerbəyerdən.

Basılmaz bir ordu olub nakişilər adı ilə -
Babasıyla, atasıyla, övladıyla, yadı ilə.
Zamanında siçovultək gizlənirlər deşiklərdə,
Zamanında şeytan kimi üzə çıxırlar hər yerdə.

Leş sökürlər,baş kəsirlər bircə anın içindəcə,
"At oynadıb", "qurd olurlar" Vətənin hər küncündəcə.
Dara düşcək, tülkü kimi, tula kimi yalmanırlar,
Şər işlərin, əməllərin "tövbə" edib, tez danırlar.

Hər oyundan aydan arı, sudan duru çıxır onlar,
Fürsət düşcək, milyonların evlərini yıxır onlar.
Çörəyini yediyindən danos yazır, dil fırlayır,
Dar ayaqda düşmənin də qurşağını tumarlayır.

Belələri dönük çıxır anasına, bacısına,
Namusuna-arvadına, öz oğluna, öz qızına.
Tək onların qarnı doysun, cibi dolsun, varı gəlsin,
Süfrəsinin yağı gəlsin, balı gəlsin, narı gəlsin.

Üzlərinə tüpürsən də, qovlasan da qapından sən,
Dürtüləcək yan-böyürdən, ya bacadan, pəncərədən.
Fırıldağın, əyriliyin min yolunu bilir onlar,
Bir çoxu da
"dindar" kimi, "hacı" kimi bu milləti fırlayırlar.

Bəziləri, üzdən iraq "alim" olub ad alırlar,
Akademik adınadək pillə-pillə "ucalırlar".
Gözləri yox heç görməyə şəxsiyyəti olanları,
Qısqırdırlar üstlərinə özləritək tulaları.
Əsər yoxdur nə abırdan, nə mənlikdən, şəxsiyyətdən,
Az qalır üz döndərəsən bunlar olan cəmiyyətdən...

...Bəsdi daha, ay oxucum, yordum səni, üzdüm səni.
Bu mövzuda yazdığımçün gəl qınama, vallah, məni.
Bu mətləbi çox uzadıb çək-çevirə salmaq olmur,
Belə çirkin əməllərə biganə də qalmaq olmur...

Oxu bütün tarixləri sətir-sətir, varaq-varaq,
Həqiqətin işığında həqiqəti axtararaq
görərsən ki,
Kişi kimi yaşamağın ləzzəti çox, şərəfi çox,
Əvəzində, əzabı çox, ağrısı çox, zilləti çox.

KİŞİLƏRİN dar ayaqda olmasa da bir dayağı,
Çaqqallarla, tülkülərlə bürünsə də solu, sağı,

Ancaq yenə
Həqiqətdir, halallıqdır KİŞİLƏRİN qibləgahı,
Haqq yolundan dönənlərin yox amanı, yox Allahı.
Qaranlıqlar əriyibdir KİŞİLƏRİN ziyasından,
Doğub aydın səhərlər də mərd KİŞİLƏR zəkasından.
KİŞİ kimi yaşayanlar KİŞİ adı daşıyıblar,
Tarixlərin yaddaşında tarix kimi yaşayşblar.

06-07.04.2020.

AĞRI

...Sağ əlimin üstündə
kiçik nöqtə boyda
qara ləkə yeri var
qalıb nadincliyimdən
"şirin xatirə kimi".
Görənlər soruşur, maraqlanırlar
sirri açılmamış möcüzə kimi...

Ancaq bu günədək, bu zamanadək
kimsə soruşmayıb,kimsə görməyib
alnıma vurulan qara möhürtək
Zəngəzur ləkəsin, Təbriz ləkəsin,
Borçalı ləkəsin, Dərbənd ləkəsin,
Qarabağ ləkəsin, Kərkük ləkəsin...
İtən torpaqların bitən ləkəsin –
Bu başı bəlalı VƏTƏN LƏKƏSİN!!!

19.04.2020

HƏYAT VƏ ZAMAN

Bütün olacaqlar, bütün olmuşlar
uzaq səfərlərin qatarı kimi
bir-bir gəlib keçir ömürdən-gündən.

Ancaq qalır bizim ürəyimizdə
yalnız olacaqlar və olmuşların
qayaya yazılan daş yaddaşıtək
silinməz, pozulmaz çapıq izləri.

O izlər yaşadır keçmişimizi
acılı-şirinli xatirələrlə –
bəzən boğur bizi acı qəhərlə,
bəzən də ovudur qəhqələrlə.

Beləcə dövr edir həyat və zaman,
Ömrün son anına, son gününədək.
Başlanır təzədən yeni bir həyat,
Başlanır təzədən yeni gələcək...

01.05.2020

GÜNƏŞ VƏ HAQQ ÜÇÜN DOĞULAN...

Həqiqət də işıq kımı gözləri kor eləyir.
Alber Kamü

"Həqiqət Günəşdir" deyib deyənlər,
Günəşsiz kainat kordur, şikəstdir.
Ancaq ki, Günəşin üzünə baxan
De, hansı kişidir, de, hansı kəsdir?..

Bir kimsə varmı ki, gözün qırpmadan
Beşcə saniyə də baxsın Günəşə?
Bir kimsə varmı ki, Günəş naminə
Özün bilə-bilə atsın atəşə?..

Günəşdən gizlənir "günəşsevərlər",
Məqamı gələndə, vaxtı gələndə.
Bəzən də Günəşin varlığın danıb
yayınıb yaşarlar dalanda, tində.

Günəş həqiqətdir, həqiqət zəhər,
Kimsə öz xoşuyla içməyib zəhər.
Çox aşiqlər gördüm – Haqqın aşiqi
Yaşayıb bir təhər, ölüb bir təhər.

Sən ey həqiqətə qul olan adam,
Həqiqətin yükü ağırdan ağır.
Bu yükün altına girməz “ağıllı”,
Dəlisən, dəlitək ha çığır, bağır.

Axır öz səsinə kar olaçaqsan,
Haqq üçün ağlayıb kor olacaqsan,
Yanıb öz içində qor olacaqsan,
Həqiqət gözünə dik baxan adam.

Günəş kainatın tək varlığıdır,
Sənsə həqiqəti deyən tək adam,
Hər dəfə təzədən doğulur Günəş,
Hər dəfə Haqq deyən təzə bir adam.

Nə Günəş tükənib bitib itəndir,
Nə də ki, Haqq üçün doğulub ölən.
Əzəldən yaranış belə yaranıb
Kimsə yox bu sirrin sirrini bilən.

Həqiqət axtarır hərə bir cürə,
Həqiqət nə Göydə, nə də Yerdədir.
Həqiqət insanın düşüncəsində,
Həqiqət insanın öz içindədir.

Neçə ki, qarışıb qan qana, itib
həqiqət deyilən Haqqın işığı.
Əgər dərk etdiyin həqiqət varsa,
Özünü çox üzmə, ey Haqq aşığı...

02.05.2020

VUR, ƏSGƏRİM, HAQQ SƏNİN, HƏQİQƏT DƏ SƏNİNDİR!

Şanlı ordumuza

Otuz ildir qələmim qəzəbindən boğulur,
Otuz ildir ümidlər bələyində boğulur,
Otuz ildir arzular sinələrdə dağ olur,
Otuz ildir millətin səbri belə sovrulur...
İndi zaman dəmidir, indi Günəş doğulur,
Vur, çatlasın, əsgərim, düşmənin qan yaddaşı!..
Ucalsın enməzliyə Vətənin məğrur başı!..

Bu günün şairi də, qibləgahı da sənsən,
Sənin qalib zəfərin zamanın dastanıdır.
Səngər-səngər döyüşüb qaldırdığın o bayraq
Vətən şəhidlərinin al qırmızı qanıdır...
Vur, əsgərim, düşmənin sönsün o son çırağı!..
Kəsilsin düşmən əli, qoy pozulsun növrağı!..

Bu bir şanlı tarix ki, düşübdü xoş bəxtinə,
Bu tarixi yaradan, bu tarixi yazan sən.
Yazdığın bu tarixin hər anı qan yaddaşı,
Bu tarix yazılarmı öz canından keçməsən?!.
Vur, əsgərim, qələbə, qələbə bizimlədir!..
Ən böyük davanızsa gələcəkdə... öndədir!..

Qarbağ havasına köklənsən də bu gün sən,
Zəngəzur, Göyçə gölü gözləyir yolunuzu.
İrəvan xanlığının xanlığını qaytarıb
Dola Vətən boynuna o məğrur qolunuzu...
Vur, əsgərim, Vətənin gülsün dağı, aranı!..
Qoy axsın səngər-səngər düşmənin murdar qanı!..

Arxanda dayanıbdı o Ali Baş Komandan,
Hər addımı qətiyyət, hər addımı cəsarət!..
Millətin ruh bayrağı, bayraqdarı da Odur,
Odur Haqqın haqq səsi, o səsdə ulu qeyrət...
Vur, əsgərim, möhkəm vur həqiqətin zəfərin!..
Təngiməsin, bitməsin tarix yazan hünərin!..

Sənin baban qan töküb, Vətən qurub hünərlə
Düşmənə qan uddurub tarix boyu zəfərlə,
Qoru Vətən mülkünü Şah İsmayıl təpərlə,
Misri qılınc əlində, dəliləri səfərlə...
Vur, əsgərim, dağılsın düşmənin son sipəri!..
Zəfərin qoy çulğasın anamız Göyü, Yeri!..

Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir,
Həqiqətə kor olan Həqiqətə qənimdir,
Bu Vətən həm millətin, bu Vətən həm sənindir,
Sən millətin oğlusan, bu millət də sənindir...
Vur, əsgərim, əlinlə tarixə öz möhrünü!..

Nəsillər də qorusun doğma Vətən mülkünü!..
Bu gün Vətənin gözü sənintək qeyrətdədir,
Bu gün düşmənin gözü sənintək heyrətdədir,
Bu günün hər anı da cəsarət, cürətdədir,
Nə mənsəbdə, nə "ad"da, nə ucuz şöhrətdədir,
Vur,əsgərim, ürəklə cəsarətin cəngini!..
Qaytar bir də özünə millətin ahəngini!..

...Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir!..

06.10.2020

VARIB

...Yaman söndü bu od-ocaq,
Külü də qaysaq bağlayıb.
Bir vaxtlar odu bir yana –
Közü də sinə dağlayıb.

Buza dönüb yanar daşı,
Donubdu yanaqda yaşı.
Köçüb gedibdi yurddaşı…
Qorun da yellər aparıb.

Bu da belə bir yazıdı,
Ömür-gün də ayazıdı.
Çalınan ta qəm sazıdı...
Hayını simlər qoparıb.

Xanəli, xan xandan gedər,
Gələr kandan, candan gedər.
Nə getsə, məkandan gedər,
Məkan var ki, kandan varıb...

09.02.2021

LİRİK POEMALAR

AĞRI

Vətən bir ocaqsa, Şəhidlər oddur…

20 YANVAR

Tariximin qan yaddaşı,
qanlı günü…
Şəhidlərin ildönümü,
Şəhidlərin doğum günü.
Axışırlar yad etməyə
Şəhidistan torpağını.
Şəhidistan qəbul edir
kasıb-kusub qonağını.
…Kimi cırır yaxasını
şəhidinin qabağında,
Kimi qardaş harayında,
Kimi ata sorağında.
Kimisi də oğrun-oğrun
göz yaşını qarsalayır,
Kimisi də fəryadıyla
ürəkləri parçalayır.
Qarışıbdı bir-birinə
əzan səsi, dua səsi.
Qarışıbdı bir-birinə
əklillərin,

çiçəklərin zümzüməsi.
…Gəlib bura ürəyində dərd olanlar,
Gəlib bura ömrü boyu mərd olanlar,
Bu torpağın bir sıyırma daşı kimi
yad baxışa, yad niyyətə sərt olanlar.
Sanki fəxri qarovulda
dayanıblar heykəl kimi.
Üzlərində, baxışında
kədər hissi, qəm nəşəsi.
Başdan-başa bəzədilmiş şəhidistan
baş əydirir qarşısında hər bir kəsi.
Şəhidistan dalğalanır
dərya kimi,
ümman kimi,
Şəhidlərin məzarları
gülümsəyir insan kimi.

***

Gəlir qara "Mersedes"lər,
Gəlir qara "Qaz-10"lar da.
Dayanırlar yanbayana
Maşınlardan düşüb gəlir
"Üzdə gülüş, cibdə bomba
gəzdirənlər",
Özlərini arvad kimi əzdirənlər.
Şux geyimi,
şax yerişi,

vəzifəsi,
sərvətiylə öyünənlər.
Qara niyyət,
qara əlcək geyinənlər.
İzdihamı yara-yara
baş əyirlər,
gül qoyurlar
şəhidləşən məzarlara.
Bir anlığa sükut edib,
asta-usta yerişiylə,
İçindəki gülüşüylə,
çəkilirlər bir kənara.
Nitq eləyib,
tost deyirlər
şəhidləşən oğullara.
Sanki şəhid cəsədləri
cana gəlir,
duyuq düşür
bu riyakar gəlişlərdən,
bu riyakar yerişlərdən.
Od püskürür,
qan hayqırır,
Məzarüstü daşlarını
çatıb qırır.
Qanlı kəfən əyinlərdə,
Qanlı bayraq çiyinlərdə

heykəl kimi qalxıb durur…

***

…Şəhidlərin kimisinin sinəsində,
kimisinin kürəyində
güllələrdən
dəlmə-deşik yaralar var.
Sinələrinin yarısının qanı kəsib,
Kürəklərin yarısının
qanı hələ səngiməyib…
Biri deyir:
– Mənim yaram sağalmazdı.
Məni vuran "səngərdaşım",
"arxadaşım" oldu anam.
Mən bilmədim,
düşmən qabaq, yoxsa içim!..
Bircə güllə, bircə silah
satmaq üçün…
Var-dövlətə, "şan-şöhrətə"
çatmaq üçün,
Ana-bacı qeyrətini çəkməyənlər,
Bircə kərdi soğan belə əkməyənlər
güllələdi, çatdı məni.
Biri deyir:
– Ömrüm boyu silah nəydi
görməmişdim.
Biz bir bölük cavanları

qəfildəncə
doldurdular maşınlara,
sürdürdülər bir kənara.
Pul verənlər canlarını
qurtardılar…
Mənim kimi pulsuzları,
mənim kimi dilsizləri
zor gücünə payladılar səngərlərə,
qırdırdılar nahaq yerə.
Ancaq buna baxmayaraq
biz döyüşdük,
biz vuruşduq
son gülləmiz,
son damlamız qalanadək.
Heç olmasa, düşmənlərdən
məzarımız boyda torpaq alanadək.
Axı belə olmaz, anam,
Axı belə olmaz, atam.
Hər kəs məzar boyda torpaq
düşmənlərdən ala bilsə,
Onda Vətən yad əllərldə
təhqir olub qalarmı heç?
…O birisi qalxıb deyir,
Bu birisi söz istəyir…
(hər şəhidin öz dərdi var,
öz yarası,
çox dərdlərin açılmayıb hələ sirri,

müəmması).
Şəhidlərin baxışından
şimşək çaxır,
od ələnir.
Şəhidistan torpağında
yer titrəyir,
silkələnir.
Biri qalxır, bir qıç üstə,
qarayanız, boyu bəstə.
Kəfənindən damla-damla
qan tökülür,
Qəzəbindən göz böyüyür,
ürəyində illər boyu
qövr eyləyən dərd sökülür:
– Bəsdi daha…
Bəsdi daha…
Tost dediniz ruhumuza, adımıza,
şanımıza,
And içdiniz qanımıza.
İstəyirsiz ruhumuzu çəkin dara,
İnanmırıq…
İnanmırıq
qanlımızı qəltan edən
başçılara!!.
Vicdanınız ləkəlidir,
baxışınız kölgəlidir.

Əllərriniz qana batıb yadlar kimi.
Tariximin yaddaşına
yazılıbdır adlarınız
bu torpağa düşmən olan adlar kimi.
Qanımızla suvarılan
gülüstanı alan sarlar,
Bu Vətəni gödənində
qurban edən canavarlar…
Şəhidlik bir nemətdirsə,
Şəhidlik bir qüdrətdirsə,
namusdursa, qeyrətdirsə,
niyə kənar qaçırsınız
bu qeyrətdən,
bu nemətdən,
bu şöhrətdən?..
Yaxşı baxın,
Yaxşı baxın
sıramıza, boyumuza,
rəngimizə, soyumuza.
Kasıb-kusub nəsliyik biz,
Bu torpağın əsliyik biz.
Sizdən burda olan yoxdur,
Sizdən burda ölən yoxdur…
Bu torpağın hakimi siz,
sahibi biz.
Hakim olub neçə illər

bu torpağa yad ünsürlər,
Soyub-soyub talayıblar.
Təsadüfi başçıların ucbatından
bu milləti qatma kimi
barmaqlara dolayıblar.
Haqq sözünü deyəndə də
qanlarına bulayıblar.
Bu Vətənçün ölənlərin nəsli bizik
Bu Vətəni bölənlərin nəsli də siz.
Siz kim,
Biz kim?!
Çıxın gedin!
Çıxın gedin!
İncitməyin ruhumuzu,
Alçaltmayın adımızı, soyumuzu.
İçinizdə yadlar vardı
bu Vətənə,
bu torpağa,
bu millətə.
Öz oğlunu, uşağını,
yeddi arxa dönənini
gizləyirlər o şəhərdə, bu şəhərdə.
Özünüzsə en salıbsız
qızıl-zərli bəstələrdə.
Quş südü də
iyrənc gəlir bu tiplərə,

Ancaq quru çörəyi də
çox görürlər bu millətə
– bu şillərə.
Hansın deyək?
Nəyi deyək?...
Cibin xalqdan uca tutan
başçıların kütlüyündən,
özlərinə çul toxudu
yadlar Vətən ipliyindən.
Nə zaman ki, səndən uca durdu gödən
Yazıq Vətən!
Yazıq Vətən!
Xətai tək babamızdan
Bizə miras qalan Vətən!!.
Qeyrətimiz ucbatından
ovuc-ovuc parçalandın,
"Qızıl pul tək xırdalandın".
Bir vaxt dünya boyda olan
AZƏRBAYCAN,
İndi papaq boyda qaldın.
…Hərdən bizə elə gəlir
sən adlı bir ölkə elə
bir xəyalmış, bir yalanmış…
O bir anlıq nəfəsini dərib durur,
İzdihamsa çalxalanır, ləngər vurur.
Xəyalından gəlib keçir

şəhidlərin kəm taleyi varaq-varaq,
Baxır yenə natiqlərə
öz sözünə başlayaraq:
–1918-də, 1920-də də
azadlıqçün
on minlərlə soydaşımız,
qardaşımız şəhid oldu.
Dövlət qurdu.
Öz adını, soy adını
tarixlərin yaddaşına qanla vurdu.
Bəs axırı?.. Axırı nə?.. Axırı da
Adı sizdən olanların,
Soyu sizdən olanların,
Astar-üzü bilinməyən,
Yaxşı pisi ələnməyən
ocaqbaşı düşmənlərin əli ilə
"Ölkə yandı, Vətən yandı",
Nəşəmizə dərd calandı.
Şəhidlərin adlarını, məzarını
yaddaşlardan, uğrunda qan axıtdığı
bu torpaqdan qazıb atdı
başımızın ağaları.
70 ildə qövr elədi
bu millətin, şəhidlərin yaraları…
Tarix bizə dərs veribdi –
Bəlkə də bir vaxt gələcək

bəzinizin heykəlini
qoyacaqdı düşmən əli.
Kəsiləcək şəhid verən anamızın
süd döşləri, kətmən əli.
Bəlkə o vaxt
silinəcək məzarımız yer üzündən.
Gələn nəsil
düşmən kimi tanıyacaq bəlkə bizi.
Başlarının üstlərinə
qaldıracaq bəzinizi.
Necə Kirov, Şaumyanı
çevirmişdiz qibləgaha,
Əvəzində Cavad xanı
batırmışdız min günaha.
Necə Razin, Puqaçovu
yaşatdınız bu sabahdan, o sabaha,
Əvəzində Xətainin,
Səttarxanın ruhlarını
çəkdirdiniz yad çarmıxa…
Başımızı kəsənlərə ad verdiniz:
küçə adı, meydan adı, şəhər adı.
Özümüzə çoxlarınız qənim olduz,
dəsmalladız özgə, yadı,
…Bəzən…
Bəzən oyalanır məzarımız
için-için,

Tüstü çıxır təpəmizdən
əlçim-əlçim, biçim-biçim.
Düşünürsən:
Kimlər üçün şəhid olduq,
kimlər üçün?.
Bir millətdə ki,
“sənin” ola, “mənim” ola,
Bir millət ki, öz-özünə qənim ola,
Bir millət ki, dost-düşmənin seçəmməyə,
Öz dərdini dərdi bilib çəkəmməyə,
Bir millət ki, yaxşı-pisi böləmməyə,
Vətən üçün, yurdu üçün ölənmiyə,
Bir millət ki, kimliyilə öyünməyə,
Bir bədəndə bir can olub döyünməyə –
O millətin yolunda da ölmək günah,
O millətin içində də qalmaq günah,
O millətin dərdini də bölmək günah.
Tarix boyu alver gedib
bu torpaqda, bu bazarda.
Bu alverdə satan da siz, alan da siz.
Soruşuruq:
Şəhid niyə bəs olduq biz?..
Cavab verin!
Cavab verin!
Döyükməsin gözləriniz,
Deyin görək,

axı bizim günahımız nəydi belə?..
Açılmamış qönçə ikən
kəfən görək, məzar görək?..
Tapılmaz bir tikə kimi
vəzifəyə qırsaqqızlar sayəsində
vətəninə, torpağına,
millətinə, ocağına biganələr
indi artıq özlərini "kişi "sayır.
At oynadır meydanlarda,
Küçələrdə, bazarlarda
adam döyür, adam soyur.
Soyduqları dollarınan
yeddi arxa dönəninə heykəl qoyur.
Belələri öz yurdundan, ocağından
ac-yalavac qaçaq düşən möhtacları
çılın-çılpaq
qabağında oynadırlar.
Al şərabı boğazında qaynadırlar.
Tülkü ikən "şirləşiblər"
Gündə də bir bazar açıb –
tipləşiblər.
Onun, mənim, bu millətin
dövlətini, sərvətini
vaqon-vaqon, qatar-qatar
yad ellərə sata-sata
hərəsi bir mərtəbədə yerləşiblər.

Deyin görək…
Belə kefi görən kəslər,
Belə ömür sürən kəslər,
Vətən üçün ölərmi heç?!
Bu torpağın qan damarın sora-sora
harınlaşıb ölənləri,
Bu torpağa qənimləri, düşmənləri
hansı üzlə dəfn edəcək
bu torpağa sahibləri?..
O nəfəsin dərir bir an.
İzdihama dönüb baxır.
Baxışından qəzəb yağır,
şimşək çaxır:
– Sizə elə gəlməsin ki,
biz bir heçik,
ruhsuz, cansız bir cəsədik,
Biz şəhidik.
Biz şahidik.
Şəhidlərə, şahidlərə ölüm yoxdur…
Biz şahidik bu vətənin,
bu millətin bu gününə, sabahına.
Biz şahidik hər bir kəsin
yerişinə, duruşuna,
günahına, savabına.
Biz saymadıq dərdimizin
mində birin.

Biz deyirik:
– Siz də bizə dayaq durun,
bir hay verin.
Bu ağrını, bu acını
siz də görün, siz də deyin.
Diri ikən ölülərin
əzabı çox, günahı çox…
Hamı susub, hesab gedir öz içində,
Baxışların mənaları,
sualları bir biçimdə.
Elə bil ki, söz tapmayır,
öz içində alışır o.
Sanki heç kəs gözə dəymir,
ruhlar ilə danışır o:
– Azərbaycan – dərd içində
solan anam.
Yarı canı yad əllərdə qalan sonam.
Azərbaycan – mənim canım,
mənim balam!..
Danışdıqca qövr eyləyir
içindəki yaraları,
Bir atəş tək səpələnir dörd bir
yana paraları:
– Azərbaycan – tarix boyu için qovğa,
çölün düşman.
Dünənin qan, bu günün qan,

Azərbaycan – hər yerində şəhidistan.
And veririk,
səndən ötrü şəhidləşən
mərdlərinin al qanına.
And veririk, öz adına, öz şanına,
Allahına,
bir də aydın sabahına.
Yaşının ahıl çağında,
Tarixin sərt sınağında
Möhkəm dayan!
Möhkəm dayan!
O yenə də nəfəsini dərib durur,
İzdihamca çalxalanır,
ləngər vurur.
Çalxalanan, dalğalanan
izdihamın gur bətnindən
min-min seçmə ər seçilir.
Beşikdəki körpələr də
azmanlaşır, ərənləşir.
Gəlib keçir şəhidlərin qabağından,
dəstə-dəstə, nəsil-nəsil
baş əyilir, and içilir.
And içilir qanlı şəhid kəfəninə,
And içilir Azərbaycan Vətəninə.

İyun-avqust 1994

BÜTÖVLÜK

Yeddi ildir Bakının
Şəhidistan bağının
müsəlləh əsgər kimi
keşiyində dayanan,
İçin-için qovrulan,
İçin-için də yanan
bir məşəl haray çəkir…
O haray millətimin
baxışıdır, rəngidir,
Dalğa-dalğa yüksələn
səsidir, ahəngidir.
Yeddi ildir o məşəl
qızılı saçlarını
bir eşq dəlisi kimi
dağıdır məcnununa
döndüyü bu Vətənin
nurdan nurlu üzünə.
Yeddi ildir o məşəl
salam verir bu yurdun
qaranlıq gecəsinə,
işıqlı gündüzünə.

***

Səsim, ünüm yetməyən
Göyün dərinliyindən,
Yerin yeddi qatından,
Yerin yeddi yerindən
yeddi ildir ki, bir səs
mənə hey pıçıldayır:
– O təkcə məşəl deyil,
Şəhidlərin özüdür.
Yüzillərdir səadət,
azadlıqçün çırpışan
günahsız bir millətin
haqqa ismarladığı
sualıdır, sözüdür.
O təkcə məşəl deyil,
raketlərin, tankların
səslərini batıran
şəhidlərin səsidir.
Vətənimizə gö dikən
düşmənə tuşladığı
millətin gülləsidir.
O bir məşəldən də çox
şəhid analarının
ərzə ürək sözüdür.

Bütün görünməzliyin,
Bütün görünənlərin
astarıdır, üzüdür.
O təkcə məşəl deyil,
zəncirləri dişiylə
qıran mərd övladların
atəşidir, təbidir.
Bu təb bütün dünyaya
bağırır ki, eşidin:
Azərbaycan torpağı
şəhidlik məktəbidir!..
O məşəlin od dili
torpaq altdan püskürən
şəhidlərin ruhudur.
O ruhların fəryadı
hələ fil qulağında
yatmış yatağanları,
sərvət üçün, mal üçün
atasının da gorun
çalmış çalağanları
nə ayıldır, qorxudur…

O – təkcə məşəl deyil,
O – düşmən zindanında
hörüyündən asılan,
Özlərinə özünün

məzarı qazdırılan
ağbirçək anaların,
Süngülərə taxılan
dodağı süd qoxulu
günahsız balaların
fəryadıdır, ahıdır.
“Millət başçılarının”
millətə xəyanəti,
danılmaz günahıdır!..

O, təkcə məşəl deyil,
Şəhidlərin qanıdır.
O qandır ki, milləti
millətlərin içində
millət kimi tanıdır.
O qandan suvarılmış
qılıncının gücüylə
düşməni diz çökdürən,
laçınlı Sultan bəyin,
Öz sazıyla, sözüylə
qəlblərdə mülk tikdirən
kəlbəcərli Şəmşirin,
Şuşaya ilk daş qoyan,
Bu Vətənin, bu yurdun
hər qarış torpağına
“Vətən” deyib baş qoyan

Pənah xan tək öndərin
düşmənlərə satılmış
o daş qəbirlərinin
harayı-qisasıdır.
Hələ təzə başlayan
mübarizə eşqinin
ilkin əlifbasıdır.
O, təkcə məşəl deyil,
Neçə-neçə nakamın,
yağı tükənən şamın
gəlinlik örpəyidir.
Hələ gözü yol çəkən,
“kotan qoşub, qəm əkən”,
Təzə tumurcuqlayan
eşqini, istəyini
vaxtsız torpağa bükən
qəlbi nisgililərin
yaralı ürəyidir!..
O – şəhid ataların,
O – şəhid anaların
beşik qundaqlarının
yumruqlaşan əlidir.
Bu əllərin qəzəbin,
laylasıyla xovlayan,
Səmənd atlar belində
başları tacsız qoyan,

Saçının bir teliylə
aslanlar cilovlayan
odrəngli nənəlıərin
odlaşan heykəlidir.

O – təkcə məşəl deyil –
Bir ittihamnamədir
millətə qənim olan
satılımış vicdanlara.
Vətənimin varını
əmib əmliyə dönən
cəlladlara – yanlara.
Vəzifəsin, kürsüsün,
basin qoruyanlara…
O məşəlin Günəşdən
duru, saf işığında
yaxşı-yaman üzlənir,
Azca günahı olan
vicdanlar təmizlənir.
Vicdanı kor olanlar,
Düşmənin ocağına
bir çəngə qor olanlar
yarasalar tək qaçıb
daldalanır, gizlənir.

O – təkcə məşəl deyil –

O – bir məhək daşıdır.
Qəlbi saf insanların
önündə diz çökdüyü
müqəddəs başdaşıdır.
O – müqəddəs, o, təmiz
alovlaşan diliylə
üz tutur qəlbi qara
bir yığın əclaflara…
Ocağına, elinə,
Vətənə dönüklərə.
Varlığıyla yoxluğu
bilinməyən yüklərə
“Azərbaycan deyilən
torpağı qanlı Vətən
təkcə şəhidləşənin
Vətəni deyil” – deyir.
Burda sizin də axı
nəslinizin ruhu var.
O ruhlardan çəkinib,
O ruhlardan üşənib
heç olmasa, bir çimdik
siz də çəkin namus, ar!

O məşəl od püskürür,
Yanıb qovrulub deyir:
“Ey bu yurdun mərdləri,

əyilməz qüdrətləri,
Şəhidlərin qanıyla
boyanan torpağımız
necə ki, düşmənlərin
tapdağında inləyir,
O mənfur ab-havada
dərdlənib vərəmləyir –
onların pak ruhunu
gül-çiçəklə ovutmaq,
xoşhal eyləmək olmaz.
Şəhid məzarı üstə
bir qucaq güldəndisə,
öz qanıyla yoğrulan
bir çimdik torpaq gərək.
O torpaqdadır onun
ruhu, eşqi, amalı,
O torpaqdadır onun
uğrunda çarpışdığı
əbədi istiqlalı!!!

…O – təkcə məşəl deyil –
O – azadlıq bayrağı,
qeyrət, hünər rəmzidir!
Dalğa-dalğa yüksələn,
düşmənə dov gələn,
xalqın kükrəyən qanı,

Sahilini gəmirən
tufanlı dənizidir.
O tufanlı dənizin
dalğasından meh əmib
sinəsinə hopduran
başıqarlı yurdumun
alov rəngli nərgizi,
şehli bənövşəsidir.
O, istiqlal dadını
təzəcə dadmış olan
millətimin əyilməz,
dönməz iradəsidir.

O – təkcə məşəl deyil –
O – şəhid balasının
ürəyinin yağıdır.
Bu Vətənin, bu yurdun
sönməyən çırağıdır!!!
O – qanıyla, canıyla
Yeni bir dünya quran,
Atəşiylə, oduyla
düşmənin bağrın yaran
yarımçıq ömürlərin
davamıdır, yaşıdır.
Bu günümdən sabaha
uzanan tariximin

əbədi yaddaşıdır.

…Siz, ey mənim yurddaşım!
Məsləkdaşım, qardaşım!..
Anam, bacım, sirdaşım!..
O – təkcə məşəl deyil!!!
Başı qarlı dağlardan
qüvvət alan, güc alan,
Bütün keçilməzləri,
qadağanı, sədləri
ayaq altına salan
Arazımın, Kürümün
nərəsidir, cəngidir.
Dərdi özündən böyük
Azərbaycan xalqının
Azadlıq çələngidir…

21-26 yanvar 1997

İNAM

28 May – İstiqlal günüm!
Başlanıb yurdumun toy-busat dəmi.
Yarıb əsrlərin qaranlığından
Təbrikə gəlmişdi ulu Əcəmi.

Baxışında yerin-göyün ləngəri,
Bədəni tunclaşmış heykəl misallı.
Bir əlində tişə, birində qələm,
Duruşu, görkəmi mələk camallı.

Heyrətə büründü çöhrələrimiz,
Bu nə hikimətdir, nə möcüzədir?!.
Şükürlər Tanrının bu qismətinə,
Nə böyük xoş gündür, xoş dəqiqədir?!.

Dünənim bu günlə çiyin-çiyinə
Söykəli dayanıb baxır sabaha.
Keçmişin bayraq tək uca tutan xalq
Uyub şeytanlığa batmaz günaha.

Əl verib görüşdü çiyin-çiyinə,
Nəslinin, kökünün dildaşlarıyla.
Üz qoyub Vətənin sal daşlarına,
Bölüşdü dərdini sırdaşlarıyla.

…Gəzdikcə Naxçıvan torpağını o
Əllərin qaldırıb dedi: “Min şükür”.
Öyündü yaradan, quran əllərə,
Gözlərində sevinc, qəlbində qürur.

Baxdı yaratdığı türbələrinə,
Dedi: “Necə varsa, elə də qalıb.
Yağılar görsə də bu cüt övladım[5],
Nə kərpicin salıb, nə rəngi solub”.

Birdən çöhrəsinin allandı rəngi,
Nəsə xatırlayıb xəyala daldı.
İllərin dumanlı, qatı çağından,
Bəzi məqamları yadına saldı:

–Aldım fərmanımı şahlar şahından,
Yaratdım zamanın dürr incisini.
Hər kiçik naxışda, hər dürlü rəngdə,
Vəsf etdim Tanrının möcüzəsini.

Bir naxışı yüz cür şəkilə salıb,
Yazdım “lailahə-illəllahımı”.
O qədər arayıb axtardım, axır
Naxışlarda tapdım qibləgahımı.

---

[5] *Əcəminin ”İbni Yusif Küseyroğlu” və “Möminə xatun” türbələri nəzərdə tutulur.*

Xaqanlar xaqanı o Qızıl Arslan
Mat qaldı sənətin möcüzəsinə.
Baş əydi, min dəfə səcdəyə gəldi
Çarpan bir ürəyin çağlar səsinə.

O böyük qəhrəman, o tacidarın
Sənəti sevməyi – bu, bir gümandı.
Böyük sənətkarın, böyük sənətin
Qiymətini verən xalqdı, zamandı.

Xalqın varlığıyla səsləşən əsər,
Xalqın özü kimi müqəddəsləşər.
Başından əssə də min boran, tufan
Nə kərpici düşər, nə sözü düşər…

Əcəmi üz tutdu quran əllərə
Bir ata, bir dədə nəsihətiylə.
Öpüb gözlərinin üstə qoyduğu
Vətən torpağına məhəbbətiylə:

– Dərdi böyük olan xalqın əzəldən,
Özü də böyükdür, sözü də böyük.
Xalqımız dərd ilə əkiz doğulub
Bizləri dərk etməz əxlaqı çürük.

Bir toyuq hini də tiksəniz, oğul,
Çalışın özünüzün naxışınız olsun.
“Özgənin atına minən tez düşər”,
Hər şeyə özgün baxışınız olsun.

Şeirdə Nizami, memarlıqda mən
Bütün Şərqə yaydıq üslubumuzu.
Almadıq özgədən bir çürük dənə,
Özümüz qaladıq öz odumuzu.

Dünyanın incisi bu əməllərim,
Mənim yox, xalqımın ülviyyətidir.
Hər naxış, hər kiçik həndəsi fiqur,
Sevən ürəklərin şeriyyətidir.

Ürəyin çox dərin qatları var ki,
Sözlə açmaq olmur onun sirrini.
Boyalar, naxışlar, daşın qüdrəti
Onda əvəzləyir sözün yerini.

…Diqqətlə baxsanız bu naxışlara,
Hərəsi bir anın yadigarıdır.
Birində sevinc var, birində kədər,
Birisə ömürün ilk baharıdır.

Hərdən günəşlidir, hərdən çənlidir,
Hərdən fərəhlidir, hərdən qəmlidir,
Hərdən bəhrəsizdir, hərdən dənlidir,
Sənətkar dünyası, sənətkar yolu.

Hər kəsin dünyada bir taleyi var,
Kimsədən soruşmaz yazını yazan.
Haqqın buyruğuna baş əyir Yer, Göy,
Odur mizan quran, mizanı pozan.

Kimi dəbdə olur təzə paltartək,
Kimi sağlığında əbədiləşir.
Kimini diriykən saymırlar adam,
Öləndən sonrasa müqəddəsləşir.

Zamanın Haqq çəkən tərəzisinin
Pərsəngi itəndə görmə üzünü.
Kiminin zəhməti, kimininsə də,
Aldığı ənamlar əyir gözünü.

Çalışdım, xalqımın böyüklüyünü
Vəsf edim torpağın, daşın diliylə.
Bu müqəddəs yurdun qəm-kədərini,
Hayqırım aləmə memar əliylə.

Bir an fikrə dalıb başladı sözə:
Yaratmaq – əzabın min əziyyətin,
Zəhmətin, hünərin elə özüdür.
Yaratmaq – bir xalqın, bütöv millətin
Dünyaya sığmayan ürək sözüdür.

Yaratmaq – bir naxış, söz ucbatından
Dəmir çarıq geyib dağlar aşmaqdı.
Yaratmaq – həyatın rahatlığından
Ömürlük əl çəkib vidalaşmaqdır.

***

…Əcəmi fatehdir, sənət fatehi.
O, bütün zamanlar tacidarıdır.
Qılınc fatehləri unudulsa da,
Sənət fatehləri qibtə yeridir.

Neçə xaqanların ağlını alıb,
“Mömina xatun”un tanrı çöhrəsi.
Başını ucalqtdı Odlar yurdunun
Memar Əcəminin bu şah türbəsi.

Şadlıqdan, fərəhdən ulu ustadın
Köksünə sığmayır böyük ürəyi.
Hər yeni xiyaban, hər yeni meydan,
Oyadır tükənməz Vətən istəyi.

***

Elə ki, biləndə, ana Vətəni
Bölüllər Cənuba, Şimala, Qərbə…
Əllərin başına sıxıb hayqırdı:
– Bəs necə dözürsüz bu qara dərdə?!

Biz ki, Azəriyik – türk oğlu Türkük!..
Türkün vətənini, bölmək olarmı?!
Ey Cahan Pəhləvan, ay Qızıl Arslan,
Vətəndə vətənsiz ölmək olarmı?!.

Bu Vətən ərənlər məktəbi olub,
Hanı bu məktəbin dərs verənləri?!.
Tanrı da ömründə heç bağışlamaz,
Qılıncı mərdlərə tərs verənləri.

Bəlkə, Tanrımızın qəzəbi keçib
Bu yurda, bu elə, bu məmləkətə?!.
Bəlkə, Haqq yoluna dönük çıxmısız,
Haqq da əvəzində salıb zillətə?!.

Bizim qanımızda od xisləti var,
Axı, Vətənimiz Odlar Yurdudur?!
Niyə qorumadız bu odu, bala,
Niyə Göyçə gölüm düşmən yurdudur?!.

Vətən əmanətdir nəsilbənəsil,
Odur hər millətin ən şah əsəri.
Vətənsiz millətin, Vətənsiz elin
Bir nimdaş həsir tək yoxdur dəyəri.

O iblis niyyətli, o məzhəbsizlər,
Bizə düşmən olub yaranışından.
Ancaq biz fürsəti vermədik əldən
Seçmədik düşməni dindaşlarından.

İlanın ağına, qarasına da
Min lənət oxudu Qorqud Atamız.
O vaxtdan yüzillər gəlib-keçibdir,
Bəlkə, qarışıbdı sonra qanımız?!.

Yoxsa, Gündoğandan Günbatanacan
Bayrağı ucalan məğrur millətin
Nə dəyə bilməzdi kimsə daşına,
Nə ala bilməzdi kimsə şöhrətin.

Gör kimlər… gör kimlər at oynadırlar,
Oğuz xanlarımın yurd beşiyində.
Di gorun çatlasın, ay Qazan babam,
Döz bu ağır dərdə, döz gor evində…

Siz hansı üz ilə gedəcəksiniz,
Ulu babaların gor dərgahına?!.
Siz hansı haqq ilə dönük çıxdınız
Şəhid ataların qızıl qanına?!.

O millət xoşbəxtdir, onun düşməni
Özündən böyükdür, özündən ulu.
Bizim düşmənimiz tülkü xislətli,
Bizim düşmənimiz daha qorxulu.

Əvvəl meydan vardı, kişilik vardı,
Düşmən qabaq-qənşər gələrdi üzə.
Başlar kəsilərdi, qan tökülərdi,
İmkan verilməzdi hiyləyə, sözə.

Yaxşı deyiblər ki, kimin əvvəli,
Kimin axırı… fırlanır dövran,
Gözünün yağını yedirtsən də, bil,
Fürsət düşən kimi çalacaq ilan.

Namus da, şərəf də yaddır onlara,
Harda ağa görsə, nökər olarlar,
Sənin ocağını söndürmək üçün
Yüz illər qapında quyruq bularlar.

***

Nə qədər bəlalar çəksək də bizə
Tarixin dərsləri dərs olmur, ustad.
Onunçün də keçən yüzilliklərdən
Bizi zindan kimi sıxır kainat.

Ay ustad, bu Vətən bölünməmişdən
Əvvəl çörəyimiz parçalanıbdı.
Yağlı tikəmizi düşmənə verən
Ata övladından qisas alıbdı.

Təmiz ürəyimiz, təmiz qəlbimiz,
Bizə düşmən olub düşməndən betər:
Kimin gözlərində nəm görmüşüksə,
Kiminsə üzündə qəm görmüşüksə,
Göz yaşını silib, qəmin almışıq,
Xeyir-dua ilə yola salmışıq…

Onunçün də bizim Vətən dərdimiz,
"Kos-kos" oyunutək ayaqlardadır.
Yadların kefinə nə var ki, babam,
Millətin əzabda, Vətən dardadır.

Bizə haray yoxdur biz olmayandan,
Biz olanlar isə dərd içindədir.
Elə tələ qurub tələ quranlar,
Ağrımız, acımız bir biçimdədir.

Bizim içimizdə bütövlük olsa,
Vətən bütövlüyü dünəndən olar.
Quş da səkə bilməz başımız üstdən,
Düşmən də tük salar, bağrı çatlayar.

***

Elə ki, Əcəmi şəhidistanın
Önündə salavat çəkib dayandı,
Onda Vətənində hələ mədlərin
Tükənmədiyinə qəlbən inandı.

İnandı keşikdə duran əsgərin
Başının üstdəki o al bayrağa.
Bir də ki, intiqam odu püskürən,
Şəhid dağı görmüş ana torpağa.

Dedi ki, bir arxdan su gəlibdisə,
İnanın ki, bir də çağlayıb gələr.
O əsgər başının üstdəki bayraq
Bütöv Azərbaycan üstə yüksələr!..

2000-2001

TƏBİL

…Bu dəfə dağlarla görüşəndə mən,
Dağlar mürgülüydü duman içində.
Nə qədər ağrılar, dağ-düyün görüb
Sonuncu onillik zaman içində.

Bulaqlar gözündə bir sual, nida,
Dərələr dördgözlə baxır adama.
Təklikdən darıxan bir ana kimi
Qayalar qolunu salır boynuna.

Lalənin də rəngi qaçıb, elə bil,
Qara xal düşübdü nərgiz bağrına.
Gözləri şəbnəmli yemişan kolu
Həsrətlə boylanır yolun ağına.

Sınıxıb yamanca dağ kəlləri də,
Qorxudub onları barıt qoxusu.
Elə səksəkəli dolaşırlar ki,
Ərşə çəkilibdi şirin yuxusu.

Çağlayır şəlalə sivri qayadan,
Onun da səsində bir giley-güzar.
Gədikdə ilişib qalan çəhlimin
Çöküb gözlərinə xəfifcə qubar.

Sən demə, insansız dağ da, dərə də,
Anasın itirən quzu kimidir.
Ağzından dürr töksün çiçək dilində –
Dəyəri kasıbın sözü kimidir.

İnsandan güc alır dağlar dağı da,
Onunla tamlaşır, bütövləşirlər.
Dar gündə dizdizə oturub onlar
Ata-oğul kimi dərd bölüşürlər.

Şairlər anası bu ulu dağlar.
Açdı ürəyini dərdaşım kimi.
Danışdı qəlbinin ən saf duyğusun,
Danışdı könlünün sirdaşı kimi.

…Bu günün dərdinin mində birini
Yazdım sinəmdəki bu sərt daşlara.
Nəsillər dəyişib, illər keçdikcə,
Yetişsin gələcək nəsildaşlara.

Çox bəlalar çəkib bu yurdun başı,
Bu da bir tarixdir, bu da bir gündür.
Ancaq nər oğullar qılıncı ilə
Dərdi də toy-bayram etmək mümkündür.

Bizim başımıza gələn bəlanın
Çoxu ağlımızın ucundan gəlib.
Uyduq xoş sözünə murdar yalanın
Onunçun zülmümüz ərşə dirənib.

Nə qədər şəhərlər, kəndlər dağıldı,
Başı baş olmayan başlar ucundan.
"Bir dəli quyuya bir daş atandan"
Bütöv bir milləti qoyub sərgərdan…

Kişnərtisi göyü dələn kəhərlər
Həsrət qalıbdılar yüyən-yəhərə.
Ayağı yer tutan kənd cavanları
Axışır şəhərə, köçür şəhərə.

İndi sərt tufanlı dəryadı zaman,
Harda bənd alacaq – görünmür sonu.
Kimin ki, zamanı görən gözü var,
Zaman da qoruyar, hifz edər onu.

İndi heç ağıllı bir it də belə,
Tərk etməz qaldığı yurdun, yuvasın,
Ocağı kor qoyub köçən övladın
Ocaq da verməyib xeyir-duasın.

Getdikcə ocaqlar korunlaşırlar,
Hardasan, hardasan ocaq yiyəsi.
Kilid altda qalan dustaq evlərin
Bürüyüb aləmi ahı-naləsi.

Bir kəndi saxlayan bar ağacları
Qurumuş qolların açıb Allaha.
Qala divarıtək həyət barısın
Daşı da daş üstə qalmayıb daha.

Bir soruşan yoxdur köçüb-gedənlər,
Xəbəriniz varmı keçmişinizdən?
Bu yurdda babamız daş yeyib, dözüb.
Gecəsin seçməyib heç də gündüzdən.

Alışqan satmaqla, siqar satmaqla
Çörək yemək olmaz qarın dolusu.
Siz dağlar qoynunda böyüyən ərdiz,
Qazancsız olacaq "vicdan oğrusu".

Onsuz da qaydadı əzəldən bəri
Kim ki, yaşamağı bacarandısa,
Ona kənd də birdir, səhər də birdir.
Acından ağzına qurd düşənlərə
Fərqi yox, şəhər də, kənd də qəribdir.

Siz əliqabarlı kişi oğlusuz,
Kişilər kəndini, kəsəyin atmaz.
Bir qarın çörəyə, "xoş" yaşayışa,
Abır-həyasını, ismətin satmaz.

Kəndində daş üstə bir daş da qoysan
Yenə də keçmişə bir ehtiramdır.
Babalar qəbrinə baş qoymayana
Harda yaşamağın nə fərqi vardır.

Bu kəndin, elatın günahı varsa,
Onu siz etmisiz gözükölgəli.
Hərə öz yükünü çəkib aparsa,
Kəndlər də yaşamaz adı ləkəli.

Nə oldu, bir zaman bu kənd-kəsəkdən
Çıxan dahilərə baş əydi cahan.
Çuxasın götürən kəndə qaçırdı,
İndi kənd olubdu əllərə baxan?!.

Adamda kişilik, ləyaqət olar!..
Bir çətinə düşcək, atmazlar eli.
Qaçıb halallığın çətin anından
Yüngül haramlığa açmazlar əli.

Dürtülüb şəhərin yan-yörəsinə
Bir başı saxlamaq nə böyük işdir?
İndi bu dağları tək qoymaq olmaz,
Bu günün hər anı, günü döyüşdür.

Kimin ki, xeyiri dəyər şəhərə
Nə olar, qoy onlar şəhərli olsun.
Sizin ki, çoxunuz çoban-çoluqsuz…
Adamın gərək bir vicdanı olsun.

Bu dağlar qoynunda çobanlıq etmək
Şərəfdir şəhərdə saqqız satmaqdan.
Mənliyi olana ölüm də xoşdur
Özgə kölgəsinə sinib yatmaqdan.

Sahibsiz qocalar, sahibsiz evlər
Ölür bir-birindən xəbər-ətərsiz.
Xanımı yanında bir kəlpeysər də
Sülənir şəhəri dərdsiz, kədərsiz.

Az qalıb arvadlar məzar qazırlar
Oğullu, övladlı sahibsizlərə.
Kəndlərin həyanı beş-üç qoca da
Mal-heyvan dalınca düşüb düzlərə.

…Ay kəndin başçısı, bir sən də düşün,
Cavanlar kəndlərdən qaçaqdı niyə?..
Torpağı əllərə hələ yatınca
Nə qədər baxsınlar bomboş təknəyə?..

Onların bəzisin qınamaq olmur.
Ailə var, uşaq var, çörək istəyir.
Elə ailə var, suya da möhtac…
Dözməyə nər oğlu, ürək istəyir.

İndiki cavanlar gözün açanda
O keçmiş hökumət "çal-çağır" idi.
O qədər mənalı böyümüşlər ki,
Yuxudan durmaq da bir nağıl idi.

İndi görürsən ki, dəyişdi dövran,
Cavanlar qalıbdı yol ayrıcında.
Fabrik də, zavod da işləmir hələ,
Çırpınır həyatın ehtiyacında.

Yurdun qalabürclü nər oğulları
Atıb külfətini, çıxıbdı kənddən.
Kənddə qalanlar da "küçə bəyidir",
Qaralıb qəzəbdən, saralıb dərddən.

Elə bil, kəndlər də, qoca dağlar da
Vətəndə arxasız, elsiz, qəribdi.
Ehtiyac elə bir dərs oxuyub ki,
Ana da baladan üz döndəribdi.

Yüzillərdir onsuz kiçilir Vətən,
Çətin, itənləri bir də bitirək.
Necə ki, qalmışıq gödən hayında
Qorx ki, olanı da əldən itirək.

Axı, bir insaf da dinin yarsıdır.
Bir içim suyu da yoxdur bu kəndin.
Bir səbəb də budur köçənlər üçün,
Qalanlar bu kənddə nəyə güvənsin?!.

Ay el başçıları, ay başbilənlər,
Hələ vaxt var ikən düşünün bir az.
Əgər belə getsə, kənddə-kəsəkdə
Bir bəni insanın tozu da qalmaz.

Kəndlərin sakitcə boşalmağında
Mənə elə gəlir, gizli bir əl var.
Bəlkə də yatmışıq fil qulağında,
Bizi bizdən alan şeytan əməl var?..

Yoxsa ki, bu qədər qansızlıq olmaz,
Gözün görə-görə sönür ocaqlar.
Harınlar bu dərdi vecinə almaz,
Bu dərd sizinkidir, sizin, kasıblar!..

Həyatın bundan da betər üzü var.
Sabah qalacaqsız əli qoynunda.
Nə qədər namümkün olsa da kəndlər,
Dar gündə saxlayar eli qoynunda.

Hələ də çoxumuz gözləyirik ki:
"Allahdan buyruqdu, ağzıma quyruq".
Daha sən gördüyün "baban" ölübdü,
Biz indi özümüz çul toxuyuruq.

İndi öz əlimiz, öz başımızdı.
Nə əksək, nə biçsək, özümüzündür.
Bugünün dəyərin ucuz tutmayaq,
Bu günçün nə qədər qan tökülübdür.

İstəsə ağatək dolanar hər kəs
Bu qara torpağın uzağlığında.
Ömrünü dağların ömrünə calar
Tapar əlacını sağlamlığın da.

Kənddə mal-heyvanın atıldığı da
Az qalıb qızıldan qiymətli olsun.
Qatığı, pendiri, südü, qaymağı…
Hələ qalan şeylər bir yana dursun.

Tək qeyrət gərəkdir, çırmayıb qolu
İşləyib tər töksün gecə-gündüzlü.
Əkənin, biçənin, qurub tikənin
Ailəsi, uşağı yaşar ağüzlü.

Heyif ki… heyif ki, çoxunun hələ
Dili tər damcılı duza dəyməyib.
Hələ də çoxunun burnu yellidi,
Hələ burunları buza dəyməyib.

Elə bilirlər ki, səhərdə elə
Pulu yel gətirir – otur dəstələ.
Ancaq bilmirlər ki, beş qəpik üstə
Nə qədər saqqallar verilir yelə.

Bu dağlar həm quran, həm də pozandı,
O bağrına basır dağ vüqarlını.
Mizanını pozur, gözündən salır.
Əhdə dönük şıxan "dəliqanlını".

Qaranquş həyatı yaşayanlar var:
Qışı şəhərlidir, yayı kəndlidir.
Beləsindən şəhər, kənd də bezardır,
Bilinmir nə məslək, nə niyyətdədir.

O sovet kəndinin xudayarları
Kəndlərə baxır ta qoltuq altdan.
Bugünün ağa tək "bəxtiyarları"
Salıbdı kəndləri köhlən atından.

Belə nankorların nanı qırıqdı,
Gündə min sifətə, min rəngə çalır.
Anasının qəbrin tanımayanlar
Vətən dərdi ilə "alışıb yanır".

Heyif, belələri yaranışından
Ömrü kef üstündə vurular başa.
Utanmaq, çəkinmək yaddır onlara,
Nə yaşa baxırlar, nə də ki başa.

…Siz elə bilirsiz hər çulu cırıq
Kənddən köçüb getsə, bəy oğlu bəydi?!.
Ayə, ağlınızı başıza yığın
Siz ağılda adam kimə gərəkdir?!.

Sahibsiz evlərin qarovulluğun
Çəkən o itlərdən utanın barı,
Kimsədən öyrənmək gec olar sizə,
İtlərdən… itlərdən öyrənin arı.

İtlər bu evlərdə bir vaxt yediyi,
Bir tikə çörəyə boğulub qalıb.
Bir azca ehtiyac duyan kimsələr -
Hərə bir şəhərdə lövbərin salıb.

Kimə bayquş desən, küsər, inciyər,
Ancaq bayquş atmır elin, obasın.
Ölən günə qədər, son nəfəsədək
Saxlayır xaraba yurdunun yasın.

Kəndin halallığı ana haqqıdı,
O gec-tez tutacaq bəd övladını.
Haqqa dönük çıxan almaz haqqını
İtirər mənliyin, etiqadını.

Kəndlərin bəxtləri onda söndü ki,
Ağsaqqalar vaxtsız köçdü dünyadan.
Hərə bir “ağsaqqal” olduğu üçün
Xeyir-bərəkət də çıxdı aradan.

Doğrudur, yaşları yetmişi, ötən
Saqqalı ağların sayı çoxalıb.
Ancaq qan yatırdan, el yola salan
Ağsaqqal kişilər yaman yoxalıb.

Bu da bizlərə bir tale zərbəsi,
Günah əhliymişik, görünür, biz də.
Üzdə "Allah" deyib səcdə etsək də,
Hələ şeytan yatır ürəyimizdə.

Necə ki, həddini bilməyir hər kəs,
Vallah, başımıza daş da yağacaq.
Necə ki, düz yola gəlməyir çoxu,
Ayağımız altdan yer də qaçacaq.

Görmüşük bir evdə, eldə, obada
Biri od olanda, biri olar su.
İndisə od suyu üstələyibdi,
Çıxıb qəlbimizdən Allah qorxusu.

Axı, belə olmaz, axı, a qardaş!..
Hər şeyin əzəldən var bir qanunu.
İnsan da bu qədər Allahsız olar,
Ata keçmişini, dana soyunu?!.

Baxıram, hər bulaq daşı üstündə
Bir ad yazılıbdı bıçaq ucuyla.
Köçüb gedəcəkdiz… niyə qoymadız,
Bulaqlar yaşasın öz adlarıyla?!.

İndi bulaqlar da xəcalət çəkir,
Kiminsə adını daşımağına.
Dözməyir bu yurddan kam alanların
Bu yurda çəkdiyi sinə dağına.

(Yaxşı ki, dağların dağ vüqarına
Bir ləkə gəlməyib bu çağa qədər.
Sığınıb kişilər etibarına
Dözübdü sonuncu sınağa qədər.

Sahibsiz qalanda yurd daşları da
Sıxır göz yaşını daş ürəyinə
Onlar da dözməyir naxələflərin
Kəndlərin inamın öldürməyinə.)

Bu yurdda hər daşın öz aləmi var,
Bənzəmir özgə bir yurd daşlarına.
İçində qovrulan köz aləmi var
Oxşayır bir xalı naxışlarına.

Daşlarla dil tapsan, görəcəksən ki,
Onların da qəlbi, düşüncəsi var.
Daşı duya bilməz daşürəklilər,
Daşların daş dilli zümzüməsi var.

Ən çətin məqamda, ən dar ayaqda
Daşlar da insanın dərddaşı olub.
Çox vaxt qalsalar da ayaqlar altda,
Axırda insana başdaşı olub.

Hər divar daşında bir arzu, bir kam
Bir koma min arzu, kamın özüdür.
Ərənlər əliylə ucalan bir daş,
Bu yurdun düşmənə ən sərt sözüdür.

Barı daş qədər də olmadınız siz,
Duyasız bu yurdun ağrı-acısın.
Bir də ki, siz axı hardan duyasız,
Sizlərə yad olan kənd ehtiyacın.

Dərdi, ehtiyacı duyar ucalar,
Ucalıq dağlarla əkiz yaranıb.
Kimin ki zatında dağ vüqarı var,
O da bu torpağı əzizi sanıb.

Əyri damarlardan doğar əyrilik,
Əyrilik düzlüyün qənim daşıdır.
Torpağın bərəkət kəlin qaçırdan
Allahın, insanın qarğımışıdır.

Analar, doğunca əyridamarlar,
Qara daş doğsanız, ondan yaxşıdır.
Yenə də qara daş bir gün… nə vaxtsa,
Düşmənə atılan sapand daşıdır.

Siz, ey bu kəndləri atıb gedənlər!?
Bir vaxtlar halallıq eşqinə düşsəz,
Halallıq istəyin vicdanınızdan…

Vaxt gələr yuxuda görərsiz kəndi,
Görərsiz çayların burulmağını.
Görərsiz külü də torpağa dönmüş
Ocaq daşlarının qaralmağını.

Görərsiz sahibsiz, yetim məzarın
Uçulan başdaşı qırılı qalıb.
Görərsiz qarımış, düşgün evlərin
Qapısı çırpılı, vurulu qalıb.

Görəssiz – görməyə gözünüz qalsa,
Bu dağlar, dərələr vərəmləyibdir.
Deyəssiz – deməyə üzünüz olsa,
Kəndlərdə kol-kos da pöhrələyibdi…

(Dərindən köksünü ötürdü dağlar,
Çatılmış qaşından qor ələnirdi.
İçində kükrəyən vulkan səsindən
Elə bil, yer-göy də silkələnirdi).

***

– Heyf bu yerlərə, bu kəndlərə ki,
Sahibsiz qalacaq, sahibsiz Allah!..
Təslim edəcəyik bu qeyrətlə biz
Gec-tez bu torpağı düşmənə, vallah!..

İlahi, sən bizi o gündən qoru.
Qeyrətsizlikdənsə, ölüm yaxşıdır!
Bəsdir qınımıza çəkildik, yetər!
Yatma, ay azançı, azan vaxtıdır!.

Azan çək vicdanı dönüklər üçün,
Qayıtsın, qayıtsın doğma kəndinə.
Azan çək vicdanı sönüklər üçün
Qayıtsın yurd adlı imana, dinə!

Azançı, azan çək, qoy səsin çatsın
Özündə özünü itirənlərə.
Ağlına, qəlbinə möhür vuraraq
Elin töhmətini götürənlərə.

Qayıt, gəl bir damla vicdanı olan,
Qeyrət qılıncımız qalmasın qında.
Bu yurdun döyüşü hələ öndədir,
Kişilər son sözün deyəcək onda.

Nə qədər yığsaz da dünyanın varın,
Vətənsiz kişinin ünü olmayıb.
Ən dadlı nemətlə yallansa belə,
İtin də vətənsiz günü olmayıb.

Vətəndən – Allahdan üz döndərərək,
Uymayın şeytanın şeytanlığına.
Gəlin bir can kimi biz şəhid olaq
Bu yurdun – Vətənin ucalığına!

***

Daş üstə yazılan bu daş yazıdan
Kimin vicdanına od düşə… düşə.
Dağların çəkdiyi ağrı-acıdan
Qorxuram, dağlar da qədəmdən düşə.

Hansı torpağın ki, vuran əli var,
Orda dağların da başı ucadır.
Hansı torpağın ki, yıxan əli var,
O yurdun axırı bir tapmacadır.

Nə qədər öyünsək dünənimizlə,
Dünənimiz qalıb dünənimizdə.
Bugünün özü də bir dərsdir axı,
Niyə dərk etməyək bugünümüzdə?..

İstəyirik Vətən basılmaz olsun,
Qoruyaq kəndi də göz bəbəyitək,
Kəndlər bu Vətənin əsgərləridir,
Əsgərsiz bir Vətən, de, nəyə gərək?!.

…Bu dağlar həyəcan təbili çalır
Sabahın üzünə dik baxmaq üçün…

15-25.06. 1998

BAYRAĞINI UCA QALDIR, ANA VƏTƏN...

Bir kərə yüksələn bayraq bir daha enməz!
M.Ə.Rəsulzadə.

Ana Vətən! Sən günəşli ölkə kimi var olsan da
yaranışdan,
Başın heç vaxt açılmadı nə borandan,nə şaxtalı qarlı qışdan!...

***

Azərbaycan bir üzüksə, o üzüyün qaşı sənsən, Qarabağım,
Azərbaycan bir bədənsə, o bədənin başı sənsən,
Qarabağım,
Azadlığın, enməzliyin əfsanəvi yaşı sənsən, Qarabağım.
Həm kədərli, həm sevincli gözümün də yaşı sənsən,
Qarabağım.
Sənsiz mənim ürəyim də para idi, yara idi, Qarabağım,
Sənin belə quru adın dərdlərimə çarə idi, Qarabağım.
İllərdir ki, şeytanlığın, iblisliyin beşiyində dustaq idin,
Sinəmizə çalın-çarpaz çəkdirilən bir dağ idin, Qarabağım.
Nə əlimiz, nə ünümüz yetməyirdi nə bir kəsə, nə də sənə.
Əriyirdik, əriyirdin, sozalırdıq ildən-ilə, gündən-günə.
ATƏTlərin – matətlərin əlində bir oyuncaqdın illərlə sən,

Qara günün, qara bəxtin əzabını hey çəkirdin günlərlə sən.
Səndən ötrü vurnuxurduq, əzilirdik içimizdə, çölümüzdə,
Səndən ötrü ayaqdaydı oğlumuz da, qızımız da, ...ölümüz də.
Kimlərinsə günahının olmuş idin sapand daşı, qan savaşı,
Onunçün də sinən üstə at oynatdı oğrubaşı, quldurbaşı.
Canımızı dişimizə tuta-tuta, sıxa-sıxa dözdük yenə,
Çarən üçün illərdir ki, qitə-qitə, ölkə-ölkə gəzdik yenə,
Açılmayan düyün idi taleyinə düşmənlərin yazan yazı,
Düşünürdük, xilas yolun çəkər bundan sonra qırx il azı...
Əllərimiz üzülmüşdü haqq deyilən, fakt deyilən
dərgahdan da,
Ancaq yenə ümidimiz kəsilmirdi Haqq deyilən
Allahdan da.
Haqqımızı yeyirdilər gözgörəti bilə-bilə, qana-qana,
Qovrulurduq içimizdə, köz üstündə cızdağımız yana-yana.
Vuruşurduq, döyüşürdük içimzdə özümüzlə, sözümüzlə,
Sənin dustaq taleyinə dözəmmirdik qəlbimizlə, gözümüzlə.
Ancaq Zaman inad ilə səbir dedi, dözün dedi bizə bir az,
Bu haqqsızlıq, şərəfsizlik ömrü boyu belə getməz,
belə qalmaz...
Bu da, bəlkə, bizim üçün bir imtahan bir yazıymış
sınaq üçün,
Dostumuzla düşmənimi ayırd edib seçmək üçün,
qınaq üçün...

Qarabağım! Sənin qara bəxtin üçün günahkarıq
biz hamımız,
Biz özümüz özümüzə qənim olub, qurban dedik canımızı
Özgələrə, gəlmələrə, çörəyi də dizi üstə olan şeytan ölkələrə.
Qonaqladıq, qaraladıq, süfrəmizi paraladıq ac-yalavac
alçaqlara,
Qucaq açıb yerləşdirdik şeytanları, iblisləri isti otaq-ocaqlara.
Qanı qanla yumalıykən qanı yuduq su ilə ki, biz insanıq,
Allah xoflu, iman xoflu, əli kitab Quran xoflu müsəlmanıq.
Bizim kimi millət yox ki bu dünyada, ağzımızın tikəsin də,
Cibimizin son qəpiyi, sikkəsin də saxlamışıq qonaq üçün,
Dedik əsir-yesirlərə, yazıqlara: "Buyur, gəlin, başa keçin".
Özümüz öz əlimizlə quyu qazdıq özümüzə, sözümüzə,
Handan-hana ayılanda ha döysək də dizimizə, üzümüzə,
Ox kamandan çıxmışdı ta, özümüzü öz əlimiz yıxmışdı ta,
Çörəyimi yeyən düşmən xəncərini ürəyimə soxmuşdu ta...
"Öz-özünə eyləyənə el yığıla edə bilməz" məsəli var,
Heyf, bizi gec ayıltdı bu məsəllər, bu hikmətlər, bu kitablar.
Özümüzə qayıtmaqçün yollar gəzdik illərlə biz, aylarla biz,
Zülmətləri yara-yara, qova-qova axtarırdıq təmiz bir iz.
Şükür Tanrı dərgahına, şükür Haqqa, Qarabağım –
sinə dağım,
İndi-indi ayaq açır yeni dövrüm, yeni çağım, ilk növrağım.

İndi daha Günəş doğub – zülmətlərin bağrın yaran
yeni Günəş,
O Günəşin şəfəqindən güc alaraq işıqlanır yeni duyğu,
yeni həvəs...
Bundan sonra səni səndə ovudacaq o Günəşin hərarəti,
Saflaşdırıb duruldacaq hər arzunu, hər istəyi, hər niyyəti.
Bundan sonra Xarı-bülbül pardaqlansın, çiçəkləsin ürəyincə,
İsa bulaq hey çağlasın bundan sonra gərəyincə, görəyincə.
Səni sənə qaytardı o Haqqa bağlı ulu qüvvət, ulu qeyrət,
Bu qeyrətin qabağında diz çökübdü xəstə "millət",
cılız "dövlət".
Bu da bizə bir dərs olsun, bir dərs oldu, gözüm nuru,
Qarabağım,
Bundan belə qoy başlasın arzu dolu, ümid dolu yeni çağın.
Bəsdi daha qucaq açdıq, çörək verdik bəşəriyyət düşməninə,
Kökü-soyu haydan gələn hayla gedər, lənət bunların cəminə...
İçimizdə kök salmısdı, qan salmışdı illər boyu düşmən əli,
Havadarlar əli ilə üstümüzə uzanırdı tülkü dili, ilan dili.
Hər biri də yerləşmişdi ürəyimin şah damarı keçən yerdə,
Əlimizi, qolumuzu bağlamışdı Vətənimdə və hər yerdə.
Doğurdular, artırdılar tülkü kimi, siçan kimi qırx gündən bir,
İçimizi, çölümüzü qoxutmuşdu, iylətmişdi basmışdı kir.
"Bir az yana çəkil" decək haylaşaraq, birləşərək hürürdülər,
Bizi bizdə ovsunlayıb, aldan-altdan işlərini görürdülər.

Üç yüz ildir qanımıza qan qatdılar bilə-bilə, görə-görə,
Üç yüz ildir başımızı aldatdılar şirin vədlər verə-verə.
“Bilmədilər” bu vandallar yalan ayaq tutar getməz,
sona yetməz,
“Bilmədilər” təmiz torpaq hiylə ilə, kələk ilə bar yetirməz.
Çörəyimə, ürəyimə dönük çıxdı haqqa dönük çıxan “millət”,
Haqqa dönük çıxanlarda olmayıbdı nə cəsarət, nə də qeyrət.
İndi düşüb ayaq altda rəzil olub yalmanırlar o qapıda,
bu qapıda,
İndi daha üz döndərib şərəfsizdən yaxını “düşmən sapı da”..

Qarabağım! Qarabağım! İftixarım, şərafətim, baş tacımsan!
Azadlığım, ucalığım, enməzliyim, əbədilik amacımsan,
əlacımsan.
Səndən ötrü qan tökmüşük tarix boyu nəsil-nəsil,
fəsil-fəsil,
Səndən ötrü qan tökürük bu gün də biz şəhid-şəhid,
əsil-əsil.
Havan təmiz, suyun təmiz, çörəyinin dadı təmiz, tamı təmiz,
Saf ilqarın, təmiz duyğun, təbiətin füsunkar ilhamın təmiz,
Onunçün də tarix boyu göz dağısan azğınlaşmış alçaqlara,
Onun-bunun bucağında, qucağında yallanan o yaltaqlara.
Yaltaqlğın, alçaqlığın həddi yoxdur, səddi yoxdur
yaranışdan,

Yaltaqlığın, alçaqlığın gətirdiyi bəlalar da qoxuludur
qarlı qışdan.
Ancaq Haqqın haqq gücü də gec eyləyir güc eyləyir
el demişkən,
Bir güc var ki, Haqqdan gəlib, Haqqı deyir həm yenilməz,
həm döyüşkən:
Bu güc bütün məzlumların haqqın tutan ULU TÜRKDÜR,
Onun sözü, onun gücü Tanrı qədər çox ötkündür,
çox böyükdür!
Bu dünyaya düzən üçün göndərilmiş qadir Tanrı ordusudur,
Ulu Türküm Haqq istəyən hər millətin ən müqəddəs
arzusudur.
Mən də türkəm, bu düzəndə mənim də öz haqqım vardı,
payım vardı.
Onunçün də Haqqa qənim olanların gözü kordur,
qəlbi dardır.
Qarabağım, sən Haqq deyən bir millətin inadından
doğulmusan,
Al bayraqlı, dan ulduzlu, nur hilallı bir səhərdən
var olmusan.
İndi daha ruhun gülür, qəlbin gülür, gözün gülür,
üzün gülür,
Görüşünə əli güllə, çiçək dolu dəstə-dəstə ellər gəlr,
illər gəlir.

Üç yüz ildə görməmişdin sən bu qədər nə cahcəlal,
nə təntənə,
Alqış deyir Yer də, Göy də taleyinə işıq saçan bu xoş günə.
Bu xoş günə qovuşmaqçün üç yüz ildir yol gəlirdi
Azərbaycan
Bu xoş günə qovuşmağı gözləyirdi Şah İsmayıl –
ulu xaqan...

***

Qarı düşmən, papağını *(varsa əgər)* qoy önünə, düşün bir az,
Yaltaqlıqla, alçaqlıqla nə bir dövlət, nə bir ölkə qurmaq
olmaz.
Yaxşı deyib bəy babalar, xan babalar, hər sözü mərcan
babalar:
"Oğrudan ev quran olmaz, ev sahibin girdən salar,
vardan salar".
Sən Allahın qarğımışı, oğrubaşı,"yazıq", "məzlum"
quldurbaşı,
Hələ bir az amanın var, ətəyindən tök bu daşı, kəs savaşı,
Bir tikəyə qul eyləyib oynadırlar səni əldə, "can" deyirlər
sənə dildə,
Onlar da çox gözəl bilir boğulassan, batacaqsan daşan
seldə...

Yüzillərdir dadanmısan türk qanını içməyə sən şərbət kimi,
Talamısan havadarlar əli ilə türk yurdunu sərvət kimi.
İndi qalxıb ayağa, bil, haqq savaşlı Turan eli – Haqqın
güclü vuran əli,
Silkələyib oturdur o öz yerində Haqqa dönük "millətləri",
"ölkələri".
Baş kəsməklə, qan tökməklə yaşayarsan beşcə günlük,
bir həftəlik,
Ondan sonra bükəcəklər dizlərini olacaqsan əldə ənik...
Tarixlərdən xəbərsizsən, çünki özün soysuz-köksüz,
tarixsizsən,
Tarixlərə yamaq olan zatı, kökü bilinməyən bir iblissən.
Qarı düşmən, yüz ildən bir öz əlinlə öz ölmünə qol
çəkirsən,
Yüz ildən bir bəşəriyyət tarlasına fitnə səpib, qan əkirsən.
Ancaq yenə abır hissi yoxdur səndə nə dünəndə,
nə bu gündə
Sən çıxdığın, sən gəldiyin yerə kimi qovacağıq səni, düşmən,
Tökdüyün qan dənizində boğacağıq nəsilliklə səni həmən,
Bəlkə, onda bəşəriyyət xilas oldu sənin kimi bir iblisdən...

***

Başı uca olan Vətən, ucalardan ucadasan dünəninlə,
bu gününlə,
Bir azadlıq məktəbisən həm sağınla, həm solunla –
hər yönünlə.
Onsuz da bir canda idik, indi də bir can olmuşuq –
Qarabağlı,
Həm Göyçəli, Zəngəzurlu, İrəvanlı, Naxçıvanlı,
Qaradağlı...
Sənsiz bizım bir anımız, bir günümüz olmamışdır, ana
Vətən,
Səndən belə bircə qor da aparammaz min-min gələn,
min-min gedən.
Səndən ötrü, Məmməd Araz demiş belə, "biz hamımız
ölə billik".
Səndən ötrü qəlbimizi, canımızı qıyma-qıyma bölə billik,
Qarı düşmən yaxşı görüb, yaxşı görür qüdrətini, cürətini,
Yaxşı bilir canındakı, qanındakı heyrətini, qeyrətini.
O heyrətdir, o qeyrətdir səni daim uca tutan, ana Vətən!!!
O heyrətdən, o qeyrətdən doğulubdu sənin üçün
şəhid düşən!..
Hər qayanda, hər daşında, çiçəyində, gülündə də şəhid qanı,

Bu dünyada "şəhid qanı tölülməyən ölkə hanı, Vətən hanı"[6]
Vətən şəhid qanı ilə yoğrulmuş bir torpaqdır ki,
yox qiyməti,
Bu qiymətin qiymətidir mərd igidlər, şanlı oğular qeyrəti
Azərbaycan, sən analar anasısan, Qarabağ da balan sənin,
Öz balana qovuşsan da, bilirəm ki, qövr eyləyir yaran sənin.
Zəngəzurun, Göyçə gölün, İrəvanın... yol gözləyir
azadlıqçün,
Duyğuları oyatmalı, ilkininə qayıtmalı, olmalısan
vahid – bütün.
Buna sənin cəsarətin, ləyaqətin, inamın da çatır VƏTƏN!!
Bütöv olsan, vahid olsan, çəkinəcək, susacaqdır yoldan ötən...
Sən dünyaya Xətailər, Nadirləri[7] bağışlayan məmləkətsən,
Bütün Şərqdə ilk azadlıq bayrağını qaldıran da, axı, sənsən,
Cümhuriyyət havasını sən daddırdın bütün Şərqə,
bütün Qərbə,
Ətalətə, mütiliyə, köləliyə sən çalmısan ilkin qılınc,
ilkin zərbə.
Bundan sonra mürgü vurub Haqq yolunda ləngiməyə
haqqın yoxdur,
Ayaq üstə qalmaq üçün hər imkanın, hər qüdrətin yetər...
çoxdur.

---

[6] *Bu fikir Xalq şairi M.Dilbaziyə məxsusdur.*
[7] *Asiyanın sonuncu imperatoru Nadir şah Əfşar nəzərdə tutulur.*

Onu bil ki, bu kəhkəşan yollarında bircə anlıq sən dayansan,
Yenə quduz köpəklərin dişi ilə parça-parça olacaqsan...

Bayrağını uca qaldır, ana Vətən, indi meydan, söz sənindir,
Sən Tanrıdan yaranmısan, Tanrı köklü bütün Turan
Vətənindir!..
Bütün tarix sədlərini əbədilik qırmaq üçün, enmək üçün,
"Vətəninin sərhəddinə,son həddinə, son səddinə
dönmək üçün,
Zaman döyür qapımızı,
yaman döyür qapımızı,
yaman döyür qapımızı!!!"[8]

25-29.10.2020.

[8] *Bu iki misra otuz il bundan qabaq yazdığım "Yuxuda gördüyüm dağ" şeirimdəndir.*

MÜNDƏRİCAT

TALEYİN ÖZ YOLU, ÖZ ÜNVANI VAR...

Seçmə şeirlər

TOĞLUQAYANIN MƏMMƏD ARAZA MƏKTUBU 5
NƏNƏM NAĞIL DEYƏRDİ 7
SONRA GEC OLAR 9
ƏLİNƏ ƏL YETMƏZ... 11
TƏBİƏT İTİRİB TƏBİƏTLİYİN..... 13
DÖNƏ TALEYİMİZ QAĞAYILARA..... 15
İNDİ 17
ŞƏHİDLİK NƏĞMƏSİ 19
BİR DƏ GERİ DÖNMƏYƏCƏK BU QATAR..... 20
İNANIRAM Kİ... 21
HƏYAT TABLOSU 23
HƏRDƏN 25
BABAM NAĞIL DEYƏRDİ. 26
SAXLA QƏLBİNİ BUZ TƏK..... 30
VƏTƏN DƏ QƏRİB ÖLÜR... 31
DƏLİSƏN, DƏLİ... 34
DƏLİLİK BİR AZADLIQDIR 36
BİR AZ DA SEVGİDƏN DANIŞ..... 38

ARAMA 40
YAXŞIDIR 41
KAŞ, QƏLBİMİ GÖRƏYDİN... 42
SEVGİ DƏ BİR DƏLİLİK 44
ADSIZ ŞEİRLƏR 45

TÜRKƏ AĞI DEMƏK OLMAZ

Türkiyə eskizləri

NƏ MUTLUYAM 49
MƏRMƏRƏ DƏNİZİ 51
SEVGİ 53
İSTANBULDA DÜŞÜNCƏLƏR 54
TÜRKƏ AĞI DEMƏK OLMAZ 57
AĞRIDAĞI 59
VAN GÖLÜ 62
QARA DƏNİZ 64

SƏN ELƏ YAŞA Kİ…

İkiliklər və dördlüklər

İKİLİKLƏR 72
DÖRDLÜKLƏR 91

DAHA YOLLAR BAĞLANIBDI
TALEYİMİN QAPISITƏK
Son illərin şeirləri

ƏVVƏLİ DƏ SİRDİR, SONU DA SİRDİR..... 97
SÖZÜ SÖZLƏ YAŞATDIM 99
İŞIĞA CAN ATIB ÜRƏYİM HƏR AN..... 101
QƏRİBƏ ADAMLAR, QƏRİB ADAMLAR..... 103
TƏSƏLLİ..... 105
VƏTƏNİMİN YAŞI ÇİNAR 107
ONDA YAZILACAQ... 109
SƏN DEMƏ... 111
RUHUN ŞAD OLSUN 113
ZAMANIMA, NAKAM DOSTLARIMA VƏ
ÖZÜMƏ ELEGİYA 116
SÖHBƏT..... 118
HƏLƏ İNANMIRLAR... 120
YAZIM Kİ..... 123
BİR DƏ ÇƏTİN GƏLƏ ƏLƏ BU DÜNYA 127
İLAHİ..... 129
ADAM VAR... 131
QİYAMƏT GÜNÜNÜ GÖZLƏYİR HAMI..... 132
QIŞ GÖZƏLLİYİ..... 134
APARSAM, BƏLKƏ... 137

HALİ-ƏHVAL 138
SAZ HAVASI 140
DÜNYA MƏNİM OVCUMDADIR... 142
TANRI MÜJDƏSİ 144
ÇƏTİNDİ... 147
DAĞ ÇAYI 149
ZAMAN ÖZÜ DEYƏCƏKDİR... 151
ALLAHA TƏVƏKKÜL... 153
SƏN GÖZƏL ÜZ GÖRDÜN, GÖZƏL ÜRƏK YOX... 155
SƏN VƏTƏN İŞIĞIYDİN..... 157
NƏNƏM XALÇA TOXUYARDI..... 159
GÜNAHKAR SƏNMİSƏN, YA "GƏDƏ" DÜNYA?!..... 162
BİGANƏLƏR ÖLKƏSİNDƏ..... 164
ÜÇ NÖQTƏYƏ (...) İTHAF 166
ƏDƏBİ MÜHİT 167
BİR NAKAM SEVGİYƏ... 168
AXI MİLLƏTİN VƏTƏNİ VARDI... 169
ƏMANƏT 171
ÖMÜR YOLU..... 174
QAYITMAZ..... 177
OLMADIQ..... 178
SUAL DA ÖZÜNSƏN, CAVAB DA ÖZÜN... 179
RUHUMU OVUDA BİLMİRƏM DAHA..... 181
İNSANA XİTAB... 182

KİŞİLİK BİR ZİRVƏDİR Kİ... 184
AĞRI..... 188
HƏYAT VƏ ZAMAN 189
GÜNƏŞ VƏ HAQQ ÜÇÜN DOĞULAN... 190
VUR, ƏSGƏRİM, HAQQ SƏNİN, HƏQİQƏT DƏ
SƏNİNDİR! 193
VARIB..... 196

LİRİK POEMALAR

AĞRI..... 199
BÜTÖVLÜK..... 215
İNAM..... 225
TƏBİL..... 236
BAYRAĞINI UCA QALDIR, ANA VƏTƏN... 255

Kərimli X.

TANRI MÜJDƏSİ

Şeirlər və poemalar

Çapa imzalanmışdır: 05.03.2021
Fiziki ç.v.: 17
Tiraj: 150

Qanun nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing